Osman Gündüz

# İNTERNET

## AZƏRBAYCAN İNTERNET RESURSLARI

İnternet haqqında ümumi məlumat

Azərbaycan İnterneti

Azərbaycan İnternet resursları

Western University Azərbaycan № 8005

**Yenidən işlənmiş və əlavələr olunmuş 3-cü nəşr**

"Multimedia"
İnformasiya Sistemləri və Texnologiyaları
Mərkəzi

BAKI – 2008

**Müəllif:** Gündüz Osman Mehdi oğlu

*Azərbaycan İnternet Forumunun prezidenti, "Multimedia" İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzinin direktoru*

**Redaktor:** Cahangir Məmmədli

*BDU-nun "Mətbuat tarixi kafedrası"nın müdiri, dosent*

**İnternet. Azərbaycan İnternet resursları.**

Bu kitab İnternetdən azərbaycandilli istifadəçilərin daha səmərəli və effektiv işinə yardım məqsədilə yazılıb.

Kitab üç fəsildən ibarətdir.

*"İnternetə ümumi baxış"* adlanan birinci fəsil kompüter haqqında az-çox biliyə malik insanlara İnternetdən istifadə qaydalarını öyrədir. İnternet xidmətləri haqqında, e-poçt haqqında bilmək istədiklərinizi bu fəsildən əldə edəcəksiniz.

*"Azərbaycan İnterneti"* adlanan ikinci fəsil İnternetin ölkəmizə gəlişi, formalaşması, inkişafı və cari vəziyyəti haqqındadır. Bu fəsildə siz Azərbaycanın İnternet infrastrukturu haqqında maraqlı məlumatlar əldə edə bilərsiniz.

*"Azərbaycan İnternet resursları"* adlanan üçüncü fəsil azərbaycandilli İnternet resurslarının kataloqundan ibarətdir. Kataloq mövzular üzrə bölünüb (Azərbaycan haqqında, dövlət qurumları, cəmiyyət, xəbərlər, biznes, diaspor, elm, təhsil və s.). Kitabın bu nəşrində Azərbaycanda və xarici serverlərdə yerləşən 3000-dək milli web-resurs haqqında qısa icmal və ünvan daxil edilib. Azərbaycan İnterneti haqqında hər şeyi buradan əldə edə bilərsiniz. Kataloq müxtəlif mövzular ətrafında 30 bölmə və 110 altbölmə üzrə sistemləşdirilib. Kataloqa, əsasən, Azərbaycan dilində informasiya ilə zəngin olan resurslar daxil edilib.

Bu kitabın bütün haqları "Multimedia" İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzinə aiddir. "Multimedia" Mərkəzinin yazılı formada razılığı olmadan kitabın və ya onun hər hansı hissəsinin istənilən üsul və vasitə (elektron, mexaniki və s.) ilə üzü köçürülə və çoxaldıla bilməz.

Bu kitabdakı məlumatlar kifayət qədər etibarlı hesab edilə biləcək mənbələrdən əldə olunub. Bununla belə, texniki qüsurların mümkün ola biləcəyini, İnternetin hər gün dəyişən dinamik bir infrastruktur olduğunu düşünərək müəllif kitabdakı məlumatların mütləq və tam həqiqət olduğuna təminat vermir və istifadə ilə bağlı yaranan mübahisələrə görə məsuliyyət daşımır.

Bu kitabda istifadə olunan bütün ticarət nişanları öz qanuni sahiblərinə məxsusdur.

Naşir: "Multimedia" Mərkəzi. AZ 1001, Bakı, M.Əfəndiyev küçəsi, 5.
Tel. 492-44-44, www.cit.az , www.aif.az , E-mail: osman@cit.az

G.08. Osman Gündüz

İnternet. Azərbaycan İnternet resursları. Bakı, 2008. 336 səhifə.

**ISBN 9952-8043-3-4**

**© "Multimedia" Mərkəzi 2005, 2006, 2008**

## Minnətdarlıq

Ölkədə İnternetlə bağlı Azərbaycan dilində ilk dəfə olaraq populyar formada 2004-cü ildən etibarən yazılmağa başlanan kitabın hər bir nəşrinin redaktorluğunu öz üzərinə götürən, kitabın ərsəyə gəlməsində xeyli əmək sərf edən BDU-nun "Mətbuat tarixi kafedrası"nın müdiri dosent Cahangir Məmmədliyə təşəkkürümü bildirirəm. Kitabın əvvəlki nəşrlərinin hazırlanmasında göstərdikləri köməyə görə Emin Əliyevə, Rauf Əliyevə və "İnternet News" qəzetinin redaktoru Ruslan Novruzova təşəkkürümü bildirirəm.

Azərbaycan İnternetinin milli özəlliklərinin inkişafında müstəsna xidmətləri olan Emin Hüseynova və Rüstəm Əliyevə informasiya dəstəyinə, xüsusilə "Mozilla Firefox", informasiya təhlükəsizliyi, İnternetdə sosial layihələr və "Wikipedia" ilə bağlı yazıların hazırlanmasında göstərdikləri köməyə görə dərin minnətdarlığımı bildirirəm.

Dəyərli məsləhətlərinə və köməyə görə Azərbaycan İnternet Forumunun üzvlərinə, "Kitab Klubu"nun təsisçisi Rafiq Məmmədliyə minnətdarlığımı bildirirəm.

Kitabın çapına göstərdikləri köməyə görə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə, "Hewlett Packard" şirkətinin Azərbaycan nümayəndəliyinə, "Azeurotel" və CATEL şirkətlərinin rəhbərlərinə təşəkkürümü bildirirəm.

## Müəllif haqqında

**Gündüz Osman Mehdi oğlu**



1961-ci ildə Balakən rayonunda anadan olub. 1983-cü ildə riyaziyyatçı ixtisası üzrə BDU-nun mexanika-riyaziyyat fakültəsini bitirib.

Ölkədə informasiya texnologiyaları (İT) sahəsində ilk qeyri-hökumət təşkilatının təsisçisi kimi uzun müddətdir ki, informasiya texnologiyaları sahəsində, ölkənin milli İnternet infrastrukturu haqqında araşdırmalarla məşğuldur. Müəllif bu sahədəki uğurlar və problemlərlə bağlı davamlı olaraq mediada yazılarla çıxış edir. Azərbaycan İnternetinin populyarlaşması və bir infrastruktur kimi formalaşması istiqamətində sistemli şəkildə iş aparmaqdadır.

"Multimedia" İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz Azərbaycan İnternetinin inkişafı, tənzimlənməsi və özünütənzimləməsi ilə bağlı müxtəlif beynəlxalq tədbirlərin və layihələrin iştirakçısıdır.

Ölkədə ilk milli multimedia məhsulu olan "Azərbaycan panoramı" informasiya sisteminin (1997-98) müəllifi və hazırlanması ilə bağlı layihənin rəhbəri olub.

Təhsildə İT-in tətbiqinə əsaslanan "AzTest" interaktiv tədris vəsaitinin və "AzTest" online sisteminin (2002), "Bələdiyyə" İnformasiya Sisteminin (2003), "AzLaws – Azərbaycan Respublikasının qanunvericilik bazası" İnformasiya Sisteminin (1999), "AzTarix"– _6 multimedia dərs vəsaitinin (2004), AzNGO informasiya sisteminin (2005) müəllifidir və onların hazırlanması ilə bağlı layihələrə rəhbərlik edib.

"Kompüter. İnformasiya texnologiyalarının əsasları" kitabının (2006) həmmüəllifi və "Mobil telefon və kompüter" kitabının (2007) müəllifidir.

Müəlliflə osman@cit.az ünvanı ilə əlaqə saxlaya bilərsiniz.



## MÜNDƏRİCAT

Giriş ........ 11
Bu kitabda nələr var? ........ 12
Məlumat toplusundan necə istifadə etməli? ........ 14

**I fəsil. İnternet haqqında ümumi məlumat**
İnternetin tarixi ........ 19
İnternetin idarə edilməsi ........ 21
İnternet nədir? ........ 22
Ünvanlar və domenlər ........ 23
Görəsən İnternetdə kompüterlərə ünvanı kim verir? ........ 24
İnternetin hazırkı durumu ........ 30
İnternetə bağlanmaq üçün nə lazımdır? ........ 32
Provayderin seçilməsi. İnternetə necə bağlanmalı? ........ 33
Provayderlərin əsas keyfiyyət parametrləri ........ 35
İnternet bağlantılarının növləri ........ 36
Dial-Up bağlantı ........ 37
Birbaşa xətt (ayrılmış xətt) vasitəsilə bağlantı ........ 37
Sürətli və genişzolaqlı qoşulmalar ........ 37
Simsiz (naqilsiz) İnternet ........ 38
Mobil İnternet ........ 39
Peyk İnterneti ........ 44
Yüksək gərginlikli İnternet ........ 45
İnternetin imkanları. Web-səhifələr. Link (Keçid) ........ 46
Web-saytlar. Web-sayt nədir? ........ 47
Brauzerlər (Səyyahlar). Internet Explorer ........ 48
"Mozilla Firefox" ilə tanışlıq ........ 53
Proqramın qurulması və quraşdırılması ........ 54
"Mozilla Firefox" qurucusu ........ 54
Vərəqlər (Tabs) funksiyası ........ 58
Əsas imkanlar, əmrlər və "hoppanan" pəncərələr ........ 60
Maus ........ 61

Əmrlər ....61
"Mozilla Firefox" genişlənmələri ....63
Elektron poçt və ya E-mail ....66
Elektron poçt proqramı ilə işləmək qaydaları ....66
Outlook Express ....68
Download (Yükləmə) ....74
FTP-serverlər ....76
Web-saytların yaradılması və oxunuşunda şrift problemi ....76
İnternetdə informasiya axtarışı ....78
Lazımi informasiyanı İnternetdə necə tapmalı? ....79
WikipediA – indi də azərbaycanca ....83
Mən necə yardım edə bilərəm ....85
Məqalələrin yaradılması ....85
Biliklərimizi paylaşaraq... ....89
İnternetdə şəxsin axtarılması ....89
İnternetdə şəkil axtarışı ....90
İnternet resursu fiziki olaraq harada yerləşir ....90
PING və TRACERT komandaları ....91
Səmərəli axtarışla bağlı bir neçə məsləhət ....93
Türkiyənin arama motorları ....94
Rusiyanın axtarış sistemləri ....94
Uşaqlar üçün axtarış sistemi ....94
Elektron kommersiya üzrə axtarış sistemi ....94
İnternet statistikası ....95
Çat. Audio və videokonfranslar ....95
IP-telefon ....97
Spam (Tullantı) ....98
İnformasiya təhlükəsizliyi ....99
Virus nədir? ....99
Uşaqların təhlükəsizliyi ....103
Bunları yadda saxlayın ....104
İnternetin gələcəyi ....106

**II fəsil. Azərbaycan İnterneti**
Azərbaycan İnternetinin tarixi ....109



Azərbaycan İnternetinin ilkin inkişaf dövrü.
Azərbaycanda "İnternet məhkəməsi" ....110
Uğurlar. Dövlət dəstəyi ....111
Azərbaycan İnternetinin statistikası ....113
Provayderlər ....119
Bölgələrdə İnternet ....123
Domen.az ....125
Milli kontent (Məzmun) ....129
Milli kontent və şrift problemi ....130
Milli web-saytların yaradılması ....132
Azərbaycanda hostinq xidmətləri ....135
Azərbaycan dilində informasiya axtarışı ....137
Azərbaycan domen adlarına uyğun axtarış. Transliterasiya ....138
Tənzimləmə və özünütənzimləmə. İnternetin iqtisadiyyatı ....139
Azərbaycan İnternetinin problemləri ....144
Perspektivlər ....148

**III fəsil. Azərbaycan İnternet resursları**
Azərbaycan haqqında. Diaspor ....154
Güney Azərbaycan ....157
Qarabağ. İşğal olunmuş ərazilər. Azərbaycan soyqırımları ....157

**Şəhərlər və rayonlar** ....160

**Cəmiyyət və siyasət. Dövlət**
Dövlət qurumları. Nazirliklər. Məhkəmələr ....165
Tarixi şəxsiyyətlər ....171
Siyasi partiyalar ....171
Seçkilər ....172
İctimai təşkilatlar ....172
Antiterror. Narkomaniya. İnsan alveri. Qloballaşma ....178
Hüquq təşkilatları ....178
Normativ-hüquqi aktlar. Qanunlar ....179
Bələdiyyələr ....180
Proqram və layihələr. Araşdırmalar. Tədqiqatlar ....181

**İqtisadiyyat, maliyyə və bank. Vergilər**
Biznes. İqtisadiyyat. .185
Banklar. Holdinqlər. Sığorta. Valyuta məzənnələri .192
Vergilər. Birjalar, digər maliyyə qurumları .197
Marketinq, reklam .197
Sərgi .197
Mühasibat və audit .199

**İstehsal və ticarət**
İstehlak malları, məişət və ofis texnikası. Mebel .201
Ərzaq malları və ictimai iaşə .202
Tikinti və daşınmaz əmlak .204
Sənaye avadanlığı .208
Elektron ticarət .209
Şirkətlər .210
Mağazalar .214

**Nəqliyyat. Hava yolları. Avtomobillər**
Nəqliyyat. Hava yolları. Avtomobillər .217
Su nəqliyyatı .219
Yükdaşımalar və logistika .219

**Energetika və enerji resursları. Neft** .224

**Reklam. İşədüzəltə. Müxtəlif xidmətlər. Poçt xidmətləri**
Reklam .227
İşədüzəltmə. Müxtəlif xidmətlər .228
Poçt xidmətləri .230

**Elm və texnika**
İdarəetmə qurumları, elmi mərkəzlər və kitabxanalar .230
Humanitar və sosial elmlər. Azərbaycan dili .231
Riyaziyyat. İnformatika. Ekologiya .231

**Təhsil**
Təhsil qurumları. Təhsil üzrə məlumat sistemləri .235
Dövlət ali təhsil müəssisələri .236
Özəl ali təhsil müəssisələri .238



Liseylər və gimnaziyalar. Kurslar .239
Orta və məktəbəqədər təhsil müəssisələri .241
Təhsil layihələri .241
Tədris materialları. Referatlar. Testlər. Distant (məsafədən) təhsil .243

**Kompüterlər. İnformasiya texnologiyaları**
Kompüter avadanlığı .245
Proqram təminatı .248
Yerli firmalar və şirkətlər .250

**İnternet. Telekommunikasiya. Mobil operatorlar**
Azərbaycan İnterneti. İnternet qurumları .252
Provayderlər. Elektron poçt xidməti. Hostinq .253
Dizayn. Web-studiyalar. İnternetdə reklam .258
Axtarış sistemləri. Kataloqlar .260
Mobil operatorlar. Mobil telefonlar. Mobil xidmətlər .261

**Səhiyyə. Sağlamlıq**
Səhiyyə qurumları. Məlumat sistemləri .265
Tibb avadanlıqları. Dərman preparatları .267
Tibbi xidmət .268

**Ədəbiyyat. Mədəniyyət. İncəsənət. Din**
Kitabxanalar .273
Ədəbiyyat .274
İncəsənət .275
Muzeylər. Mədəniyyət sarayları .277
Musiqi .278
Rəssamlıq .282
Teatr və kino. Foto .283
Kitablar. Lüğətlər. Ensiklopediyalar .284
Din. Dini qurumlar .285

**Kütləvi informasiya vasitələri. Nəşriyyatlar**
Jurnalist qurumları .291
Qəzetlər və jurnallar. Elektron xülasələr .292

Mətbuat yayımı .301
Televiziya və radio. TV proqramları .301
İnformasiya agentlikləri .303
Nəşriyyatlar .304

**İdman. İstirahət. Əyləncə. Turizm**

Əyləncə portalları .307
İçkilər. Restoran və barlar .311
Uşaqlar .312
İnternetdə yazışma. Çat. İnternet-kafelər .312
Kulinariya .313
Qadınlar. Gözəllik salonları və moda .314
Heyvanlar aləmi. Təbiət .315
Yumor .315
Səyahət və turizm. Hotellər. Turizm firmaları .315
Kurortlar .317
İdman .317
Sorğu xidmətləri .319
Oyunlar .319
Fərdi səhifələr .320
Bloqlar .323

**Beynəlxalq təşkilatlar**

Fondlar. Donor təşkilatları. Beynəlxalq qurumlar .325
Səfirliklər .327
Xaricdəki Azərbaycan səfirlikləri .328

**Beynəlxalq resurslar**

Türkiyənin İnternet resursları .331
Amerika Birləşmiş Ştatlarının İnternet resursları .331
Avropa qurumları .331
Rusiya Federasiyasının İnternet resursları .332



## Giriş

İnternet haqqında indiyədək bir çox elmi, populyar ədəbiyyat yaranmışdır. Hər gün mediada, televiziyada İnternetlə bağlı çeşidli xəbərlərə rast gəlirik. İnternet bütün insanları dini, irqi və dil fərqi qoymadan bir araya gətirməkdədir.

İnternet, sözün əsl mənasında, nəhəng bir informasiya okeanına çevrilib.

Məhz bu kitabın yazılmasında əsas məqsəd də hər bir soydaşımızın bu informasiya okeanından faydalanmasına yardım etmək, milli İnternet resursları haqqında, bütövlükdə virtual Azərbaycan haqqında geniş məlumat verməkdir.

### Kitabın yeni nəşri haqqında

2005-ci ilin yanvarında kitabın ilk nəşri işıq üzü gördü. Bu, ölkədə ilk dəfə olaraq Azərbaycan İnternetinə həsr olunan və Azərbaycan dilində hazırlanan bir məlumat toplusu idi. Milli saytlar kataloqunun həmin buraxılışına 1000 İnternet resursu daxil edilmişdi.

Milli İnternet istifadəçilərinin bu nəşrə hədsiz marağı kitabın xeyli uğurlu alındığını göstərdi. Çap olunandan dərhal sonra əksər istifadəçilərin stolüstü kitabına çevrildi.

2006-cı ilin əvvəlində kitabın ikinci nəşri çap olunub. Bu nəşrdə Azərbaycan İnternetində baş verən dəyişikliklərlə bərabər 2000 milli İnternet resursu da kitaba daxil edilmişdi.

Ötən 2 il ərzində "AzNet"-də xeyli kəmiyyət və keyfiyyət dəyişikliyi olmuş, xeyli sayda yeni milli resurs yaranmışdır.

Bütün bunlar, həmçinin ölkə İnternetinin durmadan inkişaf etməsi kitabın yeni nəşrinin hazırlanmasını zəruri etdi. Beləliklə, "İnternet. Azərbaycan İnternet resursları" kitabının növbəti – üçüncü nəşrini hazırlamaq qərarına gəldik.

"İnternet. Azərbaycan İnternet resursları" kitabının yeni nəşrində bütün fəsillər üzrə müəyyən dəyişikliklər və əlavələr olunmuşdur. "İnternet" bölməsinə bütövlükdə Qlobal Şəbəkədə bəzi yeniliklər, yeni texnologiyalar haqqında bilgilər daxil edilmişdir.

"Azərbaycan İnterneti" fəslinə son bir ildə ölkədə İnternet sahəsində baş verən yeniliklər haqqında, "AzNet"in inkişaf vəziyyəti haqqında, bu sahədə uğurlar və problemlər haqqında məlumatlar əlavə olunmuşdur.

Kitabın yeni nəşrində ən ciddi dəyişiklik "Azərbaycan İnternet resursları" fəslində edilmişdir. Kitabın ötən buraxılışına daxil edilən bütün İnternet resurslarının bir-bir yenidən monitorinqi aparılmış, müxtəlif zaman kəsiyində saytların aktiv olub-olmadığı yoxlanılmışdır. Bu monitorinqdən sonra aktiv olmadığına görə 300-dək sayt kataloqdan çıxarılmışdır.

Eyni zamanda, 1200-dən çox yeni sayt kitabın bu nəşrinə əlavə olunmuşdur.

Beləliklə, **aktivliyi yoxlanıldıqdan, sistemləşdirildikdən sonra "İnternet. Azərbaycan İnternet resursları" kitabının yeni nəşrinə təxminən 3000 sayt haqqında məlumat daxil edilmişdir.**

## Bu kitabda nələr var?

İnternet haqqında dünyanın bir çox aparıcı dillərində xeyli ədəbiyyat mövcud olsa da, Azərbaycan dilində ədəbiyyata rast gəlmək hələlik mümkün deyil. Son dövrlərdə Azərbaycan İnternet istifadəçilərinin və milli informasiya resurslarının sayının nəzərəçarpacaq dərəcədə artması bu resurslar haqqında müəyyən sistemləşdirilmiş bilgilərin əldə edilməsi zərurətini yaradır.

Kitabın çapa hazırlanmasından xeyli öncə İnternet resursları haqqında kataloqların yaradılması sahəsində beynəlxalq təcrübəni öyrəndik. ABŞ-da 1994-cü ildən bəri buraxılan *"Harley Hahn's. Internet & Web Yellow Pages"* məlumat kitabı, Avropa ölkələrində, o cümlədən Rusiyada 1996-cı ildən buraxılmağa başlanan "Желтые страницы Интернета" ("İnternet – sarı səhifələr") kitablarının uğur və qüsurlarını diqqətlə araşdırmağa çalışmışıq.

Təbii ki, İnternet kimi nəhəng bir infrastruktur haqqında bir kitabda geniş informasiya vermək mümkün deyil. Hər halda bu kitabda Azərbaycan İnterneti haqqında doğma dilimizdə ilk dəfə olaraq imkan daxilində xeyli bilgi verməyə səy göstərmişik.

Kitab üç hissədən ibarətdir:

*"İnternet haqqında ümumi məlumat"*, *"Azərbaycan İnterneti"* və *"Azərbaycan İnternet resursları"*.

Birinci hissə, əsasən, İnternetlə heç bir tanışlığı olmayan, həmçinin İnternetə girişi olan, lakin istifadə etmək təcrübəsi az olan adamlar üçün nəzərdə tutulub. Bir sözlə, İnternet haqqında öz bilgisini yetərli hesab etməyənlər 1-ci hissədən xeyli səmərəli informasiya əldə edə bilərlər.



İkinci hissə Azərbaycanda İnternetin tarixi, formalaşması və indiki durumuna həsr olunub. Azərbaycanın İnternet infrastrukturu haqqında, milli provayderlər haqqında, Azərbaycan İnternetinin problemləri haqqında bilgilər bu fəsildə özünə yer alıb.

Üçüncü – ən əsas hissə isə uzun illərin gərgin əməyinin nəticəsi olan Azərbaycanın İnternet resurslarının ünvan və məlumat kataloqundan ibarətdir.

Bu məlumat toplusunun yeni versiyası hazırlanarkən 3000-dək milli resurs seçilmiş, onların aktivlik səviyyəsi yoxlanılmış və yalnız bundan sonra kitaba daxil edilmişdir. İnformasiya bolluğu təmin edilmiş, əhatəli, bir sözlə, daha vacib, maraqlı və dayanıqlı saytların seçilməsinə cəhd göstərilmişdir.

Kataloqa yalnız Azərbaycan serverlərində deyil, xarici serverlərdə yerləşən və Azərbaycanla bağlı olan saytlar da daxil edilmişdir.

Kataloqda kifayət qədər əhəmiyyətli olan xeyli sayda beynəlxalq İnternet resursu haqqında da məlumat əldə etmək olar.

Burada məqsəd Azərbaycan İnterneti haqqında, Azərbaycan İnternet saytları haqqında məlumatların geniş oxucu dairəsinə çatdırılmasından ibarətdir.

Kitabın üstün cəhətlərindən biri də odur ki, faydalana bilmək üçün heç də kompüter mütəxəssisi olmağa ehtiyac yoxdur.

Kompüteri adi səviyyədə bilənlər, müəllim, şagird və valideyn, tələbə və elmi işçi, dövlət qulluqçusu və ictimai sektor nümayəndəsi və başqaları bu kitabdan faydalana bilərlər.

Məlumdur ki, İnternetdən konkret nəyi isə axtarıb tapmaq bir o qədər də asan məsələ deyil. Təəssüf ki, axtarış sistemləri mükəmməl olmadığından çox vaxt axtarılan informasiyanı dərhal əldə etmək olmur. Bəs onda lazımi məlumatı nəhəng İnternet okeanında necə tapmalı? İnternetdən yeni istifadə edənlər üçün bu problem özünü daha qabarıq göstərir. Düşünürük ki, məhz bu problemin aradan qaldırılmasında "İnternet. Azərbaycan İnternet resursları" kitabı xeyli köməklik göstərəcək.

Kitabın köməyi ilə siz həm Azərbaycan İnterneti haqqında ümumi məlumat, həm də sizə vacib olan İnternet saytlarının ünvanını əldə edə biləcəksiniz.

Bu kitabda verilən informasiyaların daha anlaşıqlı olması, daha tez diqqəti cəlb etməsi üçün müəyyən işarələrdən istifadə edilmişdir:

Faydalı linklərin (keçidlərin) olduğunu bildirir.

Məsləhət və tövsiyə xarakterli bilgilərə diqqəti cəlb edir.

Çoxişlənən terminlərin açılışı və bəzi vacib qeydlər fonda verilmişdir.

Kitabın kataloq hissəsi uzun illər boyu müəllif tərəfindən toplanan İnternet ünvanlarının yenidən bir-bir baxılması, aktivliyinin yoxlanılması, ümumiyyətlə azərbaycandilli resursların monitorinqi əsasında tərtib edilib.

Bu kitab bir İnternet bələdçisidir. Bələdçi ilə olsan, İnternet dünyasında azmazsan.

## Məlumat toplusundan necə istifadə etməli?

Bu məlumat toplusuna ötəri xarakterli məlumatlar olan, yalnız tanışlıq xarakteri daşıyan saytlar daxil edilməyib. Kataloqa, əsasən, azərbaycandilli saytlar salınıb. İngilis və ya rus dillərində olan milli resurslardan ancaq maraqlı və vacib hesab edilənlər kataloqa daxil edilib. Yəni yalnız xarici istifadəçilər üçün nəzərdə tutulan resurslar (rus və ingilis dillərində) kitabın bu nəşrinə daxil edilməyib. Eyni zamanda, bu kataloqun hazırlanması məqsədilə AzNet-də monitorinq aparılarkən yalnız resursların sayı deyil, istifadəçilərin maraqları da nəzərə alınıb.

Milli saytlar kataloqundan istifadəni asanlaşdırmaq üçün mövzular üzrə (müxtəlif sahələr üzrə) bölmələr müəyyənləşdirilib. Hər bir bölmə əlavə altbölmələrə bölünüb. Bütövlükdə kataloq müxtəlif mövzular ətrafında 30 bölmə və 110 altbölmə üzrə sistemləşdirilib.

Ümumiyyətlə, hansısa resursun axtarılıb tapılması üçün maksimum dəqiq struktur qurulmasına cəhd göstərilib.



Kataloqa daxil edilən əksər sayt haqqında qısa icmal və saytın başlığı (adı) verilib. İcmal saytın məzmunu haqqında qısa yarımbaşlıqlarla təqdim edilib.

Bir sıra hallarda saytları əlifba sırası ilə düzmək mümkün olmadığından müəyyən məntiqi ardıcıllıqdan da istifadə olunub.

Hər bir saytın ünvanı **http://domen/kataloq/fayl** kimi verilib.

Mümkündür ki, İnternetdə nə vaxtsa rast gəldiyiniz bir səhifəni sonralar bir də görməyəsiniz, yaxud da hansısa səhifə və server ümumiyyətlə açılmasın. Bu halda ruhdan düşməməyi, təəssüflənməməyi, xüsusən resurs sahibinin arxasınca gileylənməməyi tövsiyə edirik. Hansısa konkret səhifəni tapa bilmədikdə birbaşa serverə (başlanğıc səhifəyə) müraciət etməyi məsləhət görürük.

Ola bilər ki, başlanğıc səhifədə axtardığınız informasiya ilə bağlı yeni bir mövzu əlavə edilib.

Saytı axtararkən DNS sistemi, ümumiyyətlə axtardığınız ad altında belə bir serverin olmadığı məlumatını verirsə, demək, resurs ya server sahibi tərəfindən artıq şəbəkədən çıxarılıb, yaxud hostinq provayderə icarə haqqını ödəmədiyindən serverə giriş qapadılıb, ya da domen adı (ünvan) üçün müvafiq illik qeydiyyat haqqı ödənilməyib. Axırıncı halda həmin domen ad avtomatik olaraq sərbəstləşir və kim birinci onu qeydiyyata alırsa, onun sərəncamına keçir. Artıq həmin domen altında başqa sayt – onu qeydə aldırana məxsus bir informasiya resursu fəaliyyət göstərir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ölkəmizdə bir sıra sayt sahibləri bu cür diqqətsizlik etdiklərindən çevik İnternet həvəskarları əvvəllər digər şəxsə məxsus domen ünvanları öz adlarına qeydə aldırır və sayta şantaj xarakterli informasiyalar yerləşdirərək əvvəlki sahibindən pul qoparmaq fikrinə düşürlər.

Bir sıra hallarda isə serverə giriş serverin yerləşdiyi ölkənin məhkəmə orqanlarının qərarı ilə məhdudlaşdırılır.

Beləliklə, mümkündür ki, hansısa sayt açılmasın və ya ümumiyyətlə İnternetdən yoxa çıxsın. Ancaq onu da qeyd etmək lazımdır ki, hər dəqiqə yüzlərlə yeni sayt yaradılır və İnternetdə yerləşdirilir. Odur ki, siz İnternetdə bu kataloqa daxil olmayan çoxlu sayda digər İnternet resurslarına da rast gələ bilərsiniz. Bu cür yeni resursların ünvanlarını qeyd etmək üçün kitabda kataloqun altbölmələrinin sonunda xüsusi yer ayrılıb.

**Azərbaycan İnternet resurslarından ibarət kataloqun müntəzəm olaraq yeniləşdirilməsi və kitabın yenidən nəşr edilməsi nə-**

**zərdə tutulur. Həmçinin "Azərbaycan İnterneti" və "Azərbaycan İnternet resursları" hissələrini ingilis dilində ayrıca kitab şəklində buraxmaq nəzərdə tutulub. Eyni zamanda bu kitabların elektron formada (CD formasında) buraxılması da planlaşdırılır.**

Adətən İnternetə ilk dəfə daxil olanlar ora-bura baş vurduqdan sonra bir-iki maraqlı web-səhifə tapırlar, sonra isə yalnız bu səhifələrə baxmaqla kifayətlənirlər. Bu kitab isə belələrinə Bütöv Azərbaycan İnternetini kəşf etməyə imkan verəcək.

Əgər bu kitabı əldə etmisinizsə, demək sizin ya İnternetiniz var, ya da yaxın zamanlarda İnternetdən istifadəyə hazırlaşırsınız. Əminəm ki, seçiminizdə peşman olmayacaqsınız.

Bütün dünyanın kompüter və İnternet istifadəçiləri artıq yeni bir "dünya" yaradıblar. İnternetdə bu "Cyberspase" (kiberfəza) adlanır.

**Lüğət:** *İnternet və kompüter istifadəçilərinin kompüter şəbəkələri ətrafında formalaşdırdıqları mühit **kiberfəza** adlanır.*

Əgər kiberfəzanın yollarından xəbərsizsinizsə, bu kitab sizi İnternet vasitəsilə lazımi ünvanlara çatdıra biləcək. Yox, əgər assınızsa, onda düşünürəm ki, qeyri-asların xeyli əziyyətlə topladıqları bir resursdan siz hansısa yeni, maraqlı bir web-səhifə tapa biləcəksiniz.

Bu kitab Azərbaycan İnternetinin, milli İnternet resurslarının ilk ensiklopedik nəşri olduğundan, şübhəsiz, qüsurlardan da xali deyil. Bu haqda fikir və təkliflərinizi osman@cit.az ünvanına göndərməyi xahiş edirik.

Western University
Azərbaycan
№ 8005

# I FƏSİL

# İnternet haqqında ümumi məlumat



**Qeyd:** *Kim artıq hər gün bir neçə saat İnternetdən istifadə edirsə, bu səhifələri oxumaya bilər. Bu informasiya İnternetlə tanışlığı olmayanlar üçündür.*

Gündəlik həyatımda rastlaşdığım xeyli sayda insanla ünsiyyət zamanı anladım ki, onların az bir qisminin İnternet haqqında, o cümlədən Azərbaycan İnterneti haqqında təsəvvürü var. Yenicə İnternet bağlantısı əldə edən hansısa bir məktəbin və ya qurumun nümayəndəsi sual verir: bundan sonra nə etməli? Eyni zamanda, kompüter texnologiyalarından bir qədər uzaq olan müxtəlif peşə sahiblərinin də İnternetlə tanışlığı olduqca zəifdir.

Təbiidir ki, İnternetə daxil olmaq üçün lazım olan vasitələr xeyli vəsait tələb edir. Ancaq nəzərə almaq lazımdır ki, artıq ali və ümumitəhsil ocaqlarının əksəriyyətində kompüter var, hətta ölkənin bölgələrində xeyli sayda İnternet mərkəzləri yaradılıb. Dövlət vəsaiti hesabına, həmçinin beynəlxalq qurumların qrantları hesabına yaranan bu mərkəzlər İnternetə pulsuz, sərbəst girişi təmin edir.

İnternetə daxil olmazdan öncə onun xarakteri və tarixi haqda, onunla işləmək qaydaları barədə bilgi əldə etmək çox vacibdir.

## İnternetin tarixi

2 sentyabr 1969-cu il. ABŞ-ın hərbi-sənaye (Pentaqon) qurumunun xətti ilə ali məktəblər tərəfindən bir layihə həyata keçirilirdi. Məqsəd çoxlu sayda kompüterləri birləşdirən bir kabel vasitəsilə eyni vaxtda informasiya mübadiləsi aparmağın mümkünlüyünü təmin etmək idi. "Soyuq müharibə" dövrü idi və hökuməti düşündürürən o idi ki, əgər müharibə başladığı təqdirdə dayanıqlı rabitə sistemini necə qurmaq olar. Beləliklə, ilk öncə Kaliforniya universitetinin tələbələri Stiven Kroker və Vinton Serf 4-5 metr uzunluğunda kabellə kompüterləri birləşdirdilər. İlk dəfə olaraq kompüterlər arasında rəqəmli məlumat ötürülməsi baş verdi. Layihə olduqca uğurla həyata keçirildi, əvvəlcə dörd Universitetin birləşməsindən ARPANET adlı bir kompüter şəbəkəsi əmələ gəldi və qısa bir müddətdə bütün Amerika ərazisində kompüterlər bu şəbəkəyə qoşuldu.

**Qeyd:** *Beynəlxalq ədəbiyyatı araşdırdıqda bir çox müəlliflər tərəfindən İnternetin yaradılması ilə bağlı müxtəlif tarixlərin qeyd olunduğunu müəyyən etmək olar. Əksər mənbələrdə yuxarıda qeyd olunan hərbi qurum tərəfindən dəstəklənən layihənin, əslində, 1962-ci ildən həyata keçirilməyə başlandığı bildirilir. Pentaqonun Tədqiqat Layihələri Agentliyi (Advanced Research Projects Agency of the U.S. Department of Defense, ARPA) tərəfindən reallaşdırılan bu layihə ARPANET, sonra isə İnternet adlanmağa başladı.*

1972-ci ildə ARPANET vasitəsilə elektron məktub göndərilməsinə imkan verən proqram yaradıldı. İlk dəfə olaraq @ işarəsi elektron poçt ünvanlarında işlədilməyə başlandı və 1980-ci ildə bu işarə beynəlxalq standart kimi təsdiqləndi.

1973/74-cü illərdə TCP/IP protokolu meydana çıxdı. TCP/IP protokollarını ARPANET-in əsas qurucularından olan Robert Ken və kompüter mütəxəssisi Vintor Serf tərəfindən təklif olunub (2005-ci ildə onların hər ikisi bu ixtiralarına görə ABŞ Prezidenti tərəfindən Azadlıq Medalı ilə təltif edilib). TCP/IP protokolu iki rabitə protokolundan ibarətdir: Transmission Control Protocol – Ötürülməyə Nəzarət Protokolu – verilənlərin ötürülməsinə nəzarət edən protokol və Internet Protokol – müxtəlif şəbəkələrdə qurğular arasında informasiyanın ötürülməsi zamanı şəbəkədə paketlərin (informasiyanın) marşrutlaşdırılmasını həyata keçirən protokol.

1980-ci illərdə DNS (Domain Name System – domen adlar sistemi) yaradıldı.

1985-ci ildə ABŞ Milli Elm Fonduna məxsus NSFNET (National Science Foundation Network – Milli Elm Fondu Şəbəkəsi) yaradıldı və bu şəbəkə İnternetdə ilk **Backbone** (onurğa – magistral kanal) rolunu oynadı. 1995-ci ildə bu şəbəkə bir neçə hissəyə ayrıldı. Hazırda Qlobal Şəbəkədə **backbone** rolunu oynayan xeyli sayda şəbəkə mövcuddur: UUNET (MCI/WORLDcom), AT&T və s.

İnternet inkişaf etdikcə belə bir problem ortaya çıxdı: bu şəbəkə vasitəsilə kompüterlərdə olan çoxlu sayda sənədlərdən hamı eyni vaxtda necə istifadə edə bilsinlər?

Məhz bu problemin həlli 1989-90-cı illərdə WWW (World Wide Web – Ümumdünya Hörümçək Toru) sisteminin yaranmasına səbəb



oldu. Belə ki, ingilis alimi Tim Berners Li hipermətnli sənədlər texnologiyasını yaratdı. Qeyd etmək yerinə düşər ki, ser Tim Berners 2004-cü ildə 15 il öncəki kəşfinə görə Beynəlxalq Fond tərəfindən 1 milyon avro məbləğində mükafatlandırılıb.

İnternetin qloballaşması 1988/89-cu illərə təsadüf edir. Bu illərdə Kanada, Fransa, İsveç, Almaniya, İsrail, Yaponiya və İngiltərə, 1992-ci ildə isə Estoniya və Latviya NSFNET vasitəsilə İnternetə qoşuldular.

1990-cı ilin sentyabrında keçmiş SSRİ məkanına daxil olan ölkələr üçün *.su* domeni fəaliyyətə başladı. Həmin ildən elektron poçt mübadiləsini həyata keçirməyə başlayan Rusiya 1993/94-cü illərdən RELKOM şəbəkəsi vasitəsilə rəsmi olaraq İnternetə qoşuldu və 1994-cü ilin aprelində *.ru* domenini qeydə aldırdı.

1991-ci ildə elektron poçt xidmətlərindən istifadə etməyə başlayan Azərbaycanda ilk İnternet bağlantısı 1995-ci ildə həyata keçirilib (Bax: 2-ci fəsil).

1993-cü ildə ABŞ administrasiyası ilk dəfə olaraq öz rəsmi websaytını (www.whitehouse.gov) yaratdı, prezident B.Klinton isə rəsmi elektron poçt ünvanı qəbul etdi.

1994-cü ildə ilk dəfə olaraq İnternetdən elektron kommersiya məqsədilə istifadəyə başlanıldı.

Beləliklə, öncə elm və təhsil qurumlarını birləşdirən ARPANET sadə kompüter şəbəkəsi qısa bir müddətdə böyük populyarlıq qazandı. Məhz bu şəbəkə indiki İnternetin əsası oldu. İlk vaxtlar bu şəbəkədən ancaq mətn formasında olan informasiyanın elektron poçt vasitəsilə ötürülməsi üçün istifadə edilirdi. Hazırda isə İnternetlə qrafik və multimedia faylları əldə etmək, eyni vaxtda yazışmaq və danışmaq, eyni zamanda oyunlar və əyləncələrlə məşğul olmaq, ucuz telefon bağlantısı yaratmaq, musiqi və video əldə etmək mümkündür. Bütün bunlardan istifadə etmək üçün olduqca sadə bir informasiya vasitəsi olan İnternet haqqında müəyyən bilgi əldə etmək zəruridir.

## İnternetin idarə edilməsi

İnternetdə vahid bir idarəetmə mərkəzi yoxdur. İnternet inzibati olaraq heç bir qurum tərəfindən idarə olunmur. Bununla belə, İnternetin arxitekturasıyla, texniki və texnoloji standartları ilə, ünvan və domenlərin paylanması və bununla bağlı mübahisələrlə məşğul olan bir sıra ictimai, qeyri-kommersiya qurumları mövcuddur.

IAB (Internet Activities Board – İnternet Fəaliyyət Şurası), əsasən, İnternetdə strateji tədqiqat və struktur siyasətini müəyyənləşdirir.

Domenlərin (ünvanların) qeydiyyatı sahəsində ICANN (Internet Corporation for Assigned Names and Numbers) (www.icann.org) İnternetin tənzimlənməsi sahəsində daha çox çəkiyə malik üstqurumlardandır.

## İnternet nədir?

İnternetin məzmunu, iş prinsipləri haqqında təsəvvürə malik olmaq üçün adi kompüter şəbəkəsinin mahiyyətini bilmək vacibdir.

Kompüter şəbəkəsi nədir? Ən sadə kompüter şəbəkəsi informasiya ötürməyə imkan yaradan xüsusi kabel vasitəsilə 2 kompüterin birləşməsindən ibarətdir. Təbii ki, böyük şəbəkələrdə minlərlə kompüter ola bilər. Bir təşkilat daxilində olan şəbəkə – lokal şəbəkə (LAN – Lokal Area Network), dünya üzrə səpələnmiş lokal şəbəkələri, üstəgəl fərdi kompüterləri birləşdirən şəbəkə Qlobal Şəbəkə (WAN – Wide Area Network) adlanır.



İnterneti məhz bütün dünya üzrə kompüter şəbəkələrinin birləşməsi kimi təsəvvür etmək lazımdır. Yəni İnternet, əslində, şəbəkələr şəbəkəsidir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, *İnternet* sözü xüsusi isim olduğundan böyük hərflə yazılmalıdır, kiçik hərflə yazılan *internet* sözü bir və ya bir neçə şəbəkəni bir-birinə bağlayan kompüter şəbəkəsi (internetwork) anlamını verir.

İnternetdə məlumat mübadiləsi zamanı müəyyən normalara, qaydalara əməl olunur. Adətən İnternetdə bu qaydaları qısaca TCP/IP protokol adlandırırlar. Yuxarıda artıq bu haqda qısa məlumat verilib.

**Lüğət:** ***Protokol** – iki kompüter arasında informasiya mübadiləsi məqsədilə qəbul edilən qaydadır.*



Sadə dildə desək, protokol – kompüterlərin bir-biri ilə ünsiyyət dilidir. Bu mənada TCP protokolu informasiyanı son mənzilə itkisiz, IP protokolu məlumatın konkret lazımi ünvana çatdırılmaq funksiyasını yerinə yetirir. IP protokolu müxtəlif şəbəkələrdə qurğular arasında informasiyanın ötürülməsi zamanı şəbəkədə paketlərin marşrutlaşdırılmasını həyata keçirir. Marşrutlaşdırma (routing) – paketlərin (informasiyanın) ötürülməsi üçün yolun seçilməsi prosesidir. Marşrutlaşdırma üçün marşrutizator (router) adlanan qurğudan istifadə edilir.



**Marşrutizator (router)**

**Lüğət:** ***Marşrutizator (router)** – paketləri (informasiyanı) bir fiziki şəbəkədən digərinə istiqamətləndirən qurğudur. Anlaşıqlı desək, router-şəbəkələr arasında bütöv informasiya trafikini düzənləyən bir cihazdır.*

Marşrutizator nəinki şəbəkədəki kompüterlərin ünvanlarını bilir, eyni zamanda şəbəkədə olan bütün digər marşrutizatorların da ünvanlarını bilir. Odur ki, marşrutizator paketləri həmişə ən effektli yolla istiqamətləndirir. Onları həm də şlüzlər (gateways) adlandırırlar.

## Ünvanlar və domenlər

İnternetdə hər kompüterin bir ünvanı var və bu, IP-ünvan adlanır. Adətən ünvan bir-biri ilə nöqtələr vasitəsilə ayrılan dörd rəqəmdən ibarət olur. Məs.: 212.240.8.66. Bir evin ünvanı onun şəhərdə harada yerləşdiyini müəyyən etdiyi kimi, IP-ünvan da şəbəkədə qovşaqların (kompüterlərin) harada yerləşdiyini müəyyənləşdirir. Adi ünvan kimi, IP-ünvan da unikal və vahid bir formaya malik olmalıdır. İnternetə Dial-Up qoşulma (müvəqqəti qoşulma) zamanı IP-ünvan provayder tərəfindən istifadəçiyə müvəqqəti olaraq (bağlantı müddətində) verilir. İstifadəçinin İnternetdən istifadə etmədiyi müddətdə bu ünvan başqa bir istifadəçiyə təhkim edilə bilər. Bu cür ünvanlar yalnız sizin İnternetdə olduğunuz müddətdə unikaldır. Beləliklə, belə qənaətə gəlmək olar ki, əslində,

hər bir provayder müştərilərinin sayı qədər deyil, modem nömrələrinin sayı qədər IP-ünvana malik ola bilər.

## Görəsən İnternetdə kompüterlərə ünvanı kim verir?

İlkin dövrlərdə şəbəkə sahibləri bir-birləri ilə razılaşaraq özləri hər kompüterə ünvan verirdilər. Lakin adi istifadəçi üçün bu cür mürəkkəb ünvandan istifadə etmək xeyli problem yaradırdı. Onu yadda saxlamaq da xeyli çətin idi. Şəbəkədəki kompüterlərin sayı artdıqda fiziki cəhətdən bu ünvanları vermək mümkün olmadığından (təsəvvür edin ki, eyni vaxtda İnternetə çoxlu sayda adam daxil olur) ünvanları mətn formasında və avtomatik verən bir sistem hazırladılar. Bu sistem domen adlar sistemi, qısaca olaraq DNS adlanır.

Bu sistem yarandıqdan sonra artıq kompüterlərin ünvanlarını yuxarıda qeyd olunan rəqəm formasında deyil, xüsusi adlarla da (mətn formasında) adlandırmağa başladılar. Buna isə domen deyilir.

**Lüğət:** *Domen – İnternetdə konkret bir kompüterin mətn formasında ünvanı (adı)*




**Domen adların strukturu**

DNS sistemi isə hər bir domen adı müvafiq IP-ünvana çevirir. Məs.: 212.110.236.9 IP-ünvanı olan kompüterlə əlaqə qurmaq elə www.cit.az adı olan serverlə əlaqə qurmaq kimi anlaşılır. Adlar və



ona uyğun ünvanlar qabaqcadan DNS proqramlarının yaddaşında olduğundan bu proses bir anda baş verir.

Öz kompüterinizin IP-ünvanı necə öyrənməli?

Əgər Siz Win95/98-dən istifadə edirsinizsə, **Start** düyməsini basmaqla **Run** bəndini seçərək və ekrana çıxan pəncərədə **winipcfg** komandasını daxil edərək IP-ünvanınızı əldə edə bilərsiniz.







Əgər Siz WinNT/2000/XP-dən istifadə edirsinizsə, öncə **Start** düyməsini basıb **Run** bəndini seçir, ekrana çıxan pəncərəyə **command** əmrini daxil edirsiniz. Sonra isə ekrana çıxan qara pəncərədə **ipconfig** komandasını daxil etməklə öz IP-ünvanınızı əldə edə bilərsiniz.






Domen adlar sistemi iyerarxik (pilləli) quruluşa malikdir. İyerarxiyanın (pillənin) ən yuxarısında **əsas domen** ("." simvolu ilə işarələnir) yerləşir. Sonra isə **birinci dərəcəli** domenlər gəlir. Birinci səviyyəli domenlərdən daha çox məşhur olanları aşağıdakılardır.

.com – kommersiya təşkilatları;
.edu – təhsil müəssisələri;
.gov – hakimiyyət qurumları;
.mil – hərbi qurumlar;
.net – müxtəlif şəbəkə agentlikləri və ya provayderlər;
.int – beynəlxalq təşkilatlar;
.org – qeyri-kommersiya təşkilatları;
.info – hansısa bir məhdudiyyət qoyulmayıb;
.biz – biznes qurumları;
.name – fiziki şəxslər və fərdi layihələr;
.museum – muzeylər və mədəniyyət qurumları;
.mobi – mobil texnologiyalar üçün

Ötən ildən *.jobs* domeninin də qeydiyyatına başlanıb.

Bu domenlər adətən **beynəlxalq domenlər** adlanır.

Eyni zamanda İnternetdə birinci səviyyəli milli domenlərdən də istifadə edilir. İnternet şəbəkəsinin üzvü olan ölkələrə məxsus bu domenlər həmin ölkəni bildirmək üçün istifadə edilən iki simvoldan ibarət olur.

.az – Azərbaycan;
.tr – Türkiyə;
.uk – Böyük Britaniya;
.ru – Rusiya;
.ge – Gürcüstan və s.



2005-ci ildə daha iki yeni domen adlar zonası yaradılıb. Bu ildən etibarən Avropa Birliyinə daxil olan ölkələr artıq **.eu** domen zonasında domen adlarını qeydiyyatdan keçirə bilərlər.

Həmçinin Asiya ölkələri üçün nəzərdə tutulan **.asia** domen adının qeydiyyatına icazə verilib. 2008-ci ilin ortalarından etibarən **.tel** domeninin də qeydiyyatının başlanacağı gözlənilir.

2008-ci ildə *.asia* və *.eu* domenlərindən sonra artıq Latın Amerikası ölkələri və **Türkdilli** ölkələr üçün nəzərdə tutulan müvafiq domenlərin qeydiyyatı ilə bağlı ICANN-a müraciət edilməsi nəzərdə tutulub.

Qlobal Şəbəkənin üzvü olan bütün ölkələrə məxsus birinci səviyyəli domenlərin siyahısı ilə www.iana.org/cctld/cctld-whois.htm səhifəsində tanış ola bilərsiniz.

Birinci səviyyəli domenlərin, o cümlədən hər bir ölkəyə məxsus birinci səviyyəli domenlərin idarə edilməsi ilə ICANN-ın tapşırığı ilə xüsusi təşkilatlar məşğul olur. Bu təşkilatlar qeyri-kommersiya istiqamətli olur, İnternet ictimaiyyətinin maraqlarından çıxış edir. Domenlərin qeydiyyatı üçün bu qurumlara müəyyən haqq ödənilir. Bu qurumlar da ICANN-a üzvlük haqqı ödəyirlər. Hazırda ünvanların verilməsi ilə çoxlu sayda təşkilatlar məşğul olur. Hər bir qurum yalnız öz çərçivəsində qeydiyyat prosesinə cavab verir.

2005-ci ildə ICANN tərəfindən müxtəlif dillərdə domen adların qeydiyyatına imkan verən sistemin yaradılması üzrə müzakirələr başlanıb. Bu məqsədlə 18 ölkənin nümayəndələrinin daxil oldugu xüsusi Məsləhət Şurası da yaradılıb.

**Qeyd:** *Zaman-zaman ICANN birinci səviyyəli domenlərin sayını artırmaqdadır. Son bir ildə daha bir neçə – .post, .travel, .eu, .asia , .mobi və s. birinci səviyyəli domenlərin fəaliyyətinə icazə verilib. Mövcud qaydalara görə, istənilən şirkət 50 min dollar ödəməklə hansısa yeni birinci səviyyəli domenin qeydiyyatı məsələsini ICANN-da müzakirəyə çıxara bilər. Bu zaman həmin qurumun bu domenin qeydiyyatı üçün zəruri keyfiyyətlərə malik olması və domenin özünün vacibliyi əsas kimi qəbul edilir.*

Çoxdilli domen adlar sisteminin yaradılmasında qarşıya çıxan əsas problem müxtəlif dillərdəki bəzi simvolların eyni olmasıdır (təkrarlanmasıdır).

Bu il ICANN tərəfindən milli dillərdə domen adların qeydiyyatı qaydalarının təsdiqlənməsi nəzərdə tutulur.

Azərbaycanda domen *.az*-ın qeydiyyatı ilə bağlı səlahiyyət uzun müddət "AzCom" şirkətinə məxsus olub. 2008-ci ilin əvvəllərindən etibarən milli domenin qeydiyyat səlahiyyəti İntrans şirkətinə keçib. Bu kitab yazılan ərəfədə domen .az-ın qeydiyyatının mövcud qanunvericiliyə və beynəlxalq normalara uyğun olaraq legitimləşdirilməsi istiqamətində işlər davam etdirilirdi. (Bax: 2-ci fəsil. Domen *az*.).

Birinci səviyyəli domenlərdən sonra daha aşağı səviyyəli domenlər gəlir.

İkinci səviyyəli domenləri adətən şəhər, əyalət adları, böyük firmalar və təşkilatlaın adları, onlarla bağlı layihələrin adları təşkil edir və domen bu formada olur: *www.myname.az* və ya *www.myname.info*. Bu cür domenlərin qeydiyyatı, bir qayda olaraq, pulludur. www.myname.com (org) kimi ikinci səviyyəli beynəlxalq domenlərin illik qeydiyyatı hazırda təxminən 5-15 $, son dövrlər fəaliyyətə başlayan www.myname.info, www.myname.biz formalı ikinci səviyyəli domenlərin qeydiyyatı bir qədər bahadır, hazırda təxminən 20-30 $ ətrafındadır. İkinci səviyyəli *.az* domeninin illik qeydiyyat haqqı indi 20 AZN-dır.

Hər gün minlərlə insan və ya təşkilat İnternetdə domenlərin qeydiyyatı, alqı-satqısı ilə məşğul olur. Bir qisim isə domenin əldə edilməsi üçün məhkəmə çəkişmələri və dəgər sövdələşmələrlə məşğuldur. Təkcə 2007-ci ildə 33 milyon domen adın qeydiyyatdan keçdiyi bildirilir.

Kim domeni birinci qeydə aldırsa, bu ad üçün bütün hüquqlar ona məxsus olur. Müstəsna hallarda bu hüquqların onun əlindən alınması ilə bağlı ICANN-ın müəyyən qaydaları mövcuddur. Xüsusən domenin alqı-satqı predmetinə çevrilməsi ICANN-ın prinsiplərinə ziddir.

Üçüncü səviyyəli domenlər adətən kiçik və orta səviyyəli firma, müəssisə, məktəb adlarından, onlarla bağlı müəyyən layihə adlarından ibarətdir və domen bu formada olur: *www.you_domain.myname.az* və ya *www.you_domain.com.az*. Üçüncü səviyyəli domenlərin qeydiyyatı bir çox halda pulsuz olur. Bununla belə, bu domenlərin dəstəklənməsi üçün provayderlərə müəyyən haqq ödəmək lazım gəlir. Pulsuz domenlərin müəyyən problemləri də var. Əgər hansısa *myname.az* serverinin sahibindən pulsuz hostinq və buna uyğun *www.sizin_adınız.myname.az* domeni almısınızsa, müəyyən səbəblərdən resursunuzu başqa yerə köçürməli olsanız, bu domen adı özünüzlə apara bilmə-



yəcəksiniz. Deməli, yeni bir domen ünvan almalı və bu ad altında resursunuzu yenidən tanıtmaq üçün xeyli çalışmalısınız.

! Əgər resursunuzu ciddi bir layihə hesab edirsinizsə, onun üçün keyfiyyətli hostinq və normal bir domen adın alınması tövsiyə olunur.

Beləliklə aydın oldu ki, DNS serveri domen adları IP-ünvanlara çevirən avtomatlaşdırılmış informasiya sistemi – proqramdır. Bu serverlər müxtəlif kompüterlərdə yerləşir. Ayrılıqda heç bir DNS serveri İnternetə qoşulmuş bütün kompüterlər haqqında məlumata malik ola bilməz. DNS serverləri bir-biri ilə əlaqə yaradaraq hansı domen adın hansı ünvana müvafiq olduğunu müəyən edir. Hər bir birinci səviyyəli domen zonasının əsas və 2-ci səviyyəli DNS serverləri olur. DNS sisteminin normal fəaliyyətinin təmin edilməsi və dayanıqlığı məqsədilə onda olan informasiya ehtiyat variant kimi tamamilə başqa bir DNS serverinə köçürülür. Bu DNS 2-ci (Secondary Name Server) server adlanır. Bu server əsas DNS-dən (Primary Name Server) fərqli olan bir kanalla İnternetə bağlanmalıdır.



**DNS tərəfindən IP-ünvanın verilməsi**

Telefon nömrəsindən fərqli olaraq, İnternetdə adlar (ünvanlar) coğrafi (və ya fiziki) olaraq bir yerə bağlanmayıb. Eyni sahədə olan iki kompüter şəbəkəsindəki kompüterlərin tamam başqa ünvanları ola bilər.

Beləliklə, bir daha aydın oldu ki, İnterneti bir-biri ilə müəyyən qaydalarla qarşılıqlı əlaqədə olan, kompüterlərin xüsusi adlanma sisteminə malik qlobal kompüter şəbəkəsi kimi təsəvvür etmək olar. Kompüteriniz haradan İnternetə qoşulmasından asılı olmayaraq, onda siz dərhal İnternetə qoşulan digər kompüterlə əlaqə yarada bilərsiniz və beləliklə də (daha doğrusu, kompüteriniz) İnternetin bir hissəsinə çevrilirsiniz.

Telefonla kiminləsə danışarkən səs siqnallarının telefon xətləri vasitəsilə necə ötürülməsi, təbii ki, sizə gərəkli deyil. Danışmaq is-

tədiyiniz şəxsin telefon nömrəsinin telefon aparatında necə yığıldığını bilmək sizin üçün kifayət edir. Eynilə İnternetdə işləmək üçün onun texniki və texnoloji xüsusiyyətlərini bilmək də sizin üçün vacib deyil. Məktublaşmaq istədiyiniz istifadəçinin elektron poçtunu və İnternet xidmətlərdən istifadə qaydalarını bilməyiniz kifayətdir.

## İnternetin hazırkı durumu

Hazırda İnternet çox sürətlə inkişaf edir. İnkişaf etmiş ölkələrdə insan həyatının bütün sahələri getdikcə daha sürətlə İnternet üzərinə keçirilməkdədir. İnsanlar hər gün İnternetdən informasiya mübadiləsi, informasiya axtarışı, tədqiqat, təhsil və səhiyyə məqsədilə, alış-veriş və məsləhət, səyahət və istirahət üçün istifadə etməkdədirlər. Qlobal İnternet şəbəkəsinə qoşulan ölkələrdə ən adi istehsal və xidmət sahələrinin də İnternetə inteqrasiyası baş verir. Unitaz istehsalçısı olan şirkət xəstəxanada monitor arxasında əyləşmiş həkimin öz evində həmin unitazdan istifadə edənin analizlərinin cavabını İnternet vasitəsilə ala bilməsi üzərində gecə-gündüz baş sındırır. Məişət texnikası buraxanlar da İnternetdən istifadə etməklə uzaq məsafədən bu cihazların idarə edilməsini asanlaşdırmaq üzərində gərgin iş aparırlar. Bir sözlə, İnternet bir çox ölkələrdə artıq gündəlik həyat normasına çevrilib.

Dünya üzrə İnternetin statistikası və bu sahədə araşdırmalarla ABŞ Mərkəzi Kəşfiyyat İdarəsindən başlamış yüzlərlə qurumlar məşğul olmaqdadır. Bu cür qurumların məlumatına görə, hazırda İnternet demoqrafik sıçrayış dövrünü yaşayır.

2007-ci ilin sonunda dünyada 1.2 milyarddan (əhalinin təxminən 18 %-i) çox insanın İnternetdən istifadə etdiyi bildirilirdi. Bunun təxminən 0.5 milyardı cəmi inkişaf etmiş 8 ölkənin payına düşür. 2012-ci ilə Yer kürəsi əhalisinin təxminən 25-30%-nin İnternetdən istifadə edəcəyi proqnozlaşdırılır. Əhalinin hər 100 nəfərinə düşən İnternet istifadəçilərinin sayına görə (əhalinin təxminən 60-80 %-i) Skandinaviya ölkələri, Cənubi Koreya, ABŞ və Kanada öndə gedirlər. Avropada, son statistik məlumatlara görə, hər iki ailədən birində İnternet var. Bir sıra ölkələrdəki İnternet istifadəçilərinin sayını veririk:



| | |
|---|---|
| Çin | 228 mln. (əhalinin təxminən 20 %-i) |
| ABS | 217 mln. (əhalinin təxminən 70 %-i) |
| Cənubi Koreya | 36 mln. (73 %) |
| Yaponiya | 90 mln. (70 %) |
| Almaniya | 50 mln. (63 %) |
| Rusiya | 30 mln. (əhalisinin 21 %-i) |
| Norveç | 3,2 mln. (əhalisinin 70 %-i) |
| Ukrayna | 8 mln. (əhalinin 19 %-i) |
| Estoniya | 680 min (əhalisinin 50 %-i) |
| Azərbaycan | 1 mln. (əhalisinin 12,5 %-i) |

Qeyri-rəsmi beynəlxalq standartlara görə, əhalisinin ən azı 15 %-nin İnternet istifadəçisi olması həmin ölkənin bu şəbəkənin tamhüquqlu üzvü olaraq müəyyən inkişaf səviyyəsinə gəlib çatması kimi qəbul edilir. Statistikaya görə, Qlobal Şəbəkədə milli domenlər də daxil olmaqla, 130 milyon domenin (milli domenlərin xüsusi çəkisi təxminən 45 milyondur), 150-160 milyon saytın qeydiyyatdan keçirildiyi, onlardan hazırda 70 milyon saytın aktiv fəaliyyət göstərdiyi bildirilir. Bir ayda təxminən 1 milyon saytın yaradıldığı qeyd olunur. **MySpace, Blogger.com, Fasebook, YouTube, MSN, Google** və **Flickr** kimi sosialyönümlü resursların populyarlığı sürətlə artmaqdadır. 25 milyonadək bloq cəmi 3 sosial resursda: *MySpace, Mikrosoft Live Space* və *Blogger.com*-da yerləşir.

ICANN yenə də İnternetin baş qurumu hesab edilir.

Artıq bir sıra ölkələr və beynəlxalq qurumlar (BMT, Beynəlxalq Telekommunikasiya İttifaqı və s.) İnternetin tənzimlənməsi ilə bağlı məsələnin BMT-nin nəzarəti altına keçməsini istəyirlər.

2005-ci ildə Tunisdə keçirilən, bu sətirlərin müəllifinin də iştirak etdiyi Ümumdünya informasiya cəmiyyətinin qurulması üzrə sammitdə bu məsələ də müzakirə edilmiş, lakin konkret qərar qəbul etmək mümkün olmamışdı. Sammitdə bu istiqamətdə müzakirələrin davam etdirilməsi məqsədilə İctimai Forumun yaradılması qərara alınmışdı. Hazırda bu istiqamətdə müzakirələr davam edir.

ABŞ və bəzi Avropa ölkələrindəki institutlar, İnternet sahəsində çalışan müxtəlif ictimai qurumlar isə bir sıra qeyri-demokratik inkişaf yönlü hökumətlərin İnternetə hədsiz müdaxiləsindən ehtiyatlanaraq İnternetə nəzarətin BMT-nin təsiri altına keçməsinin əleyhinədirlər.

**İnternetə bağlanmaq üçün nə lazımdır?**

Öncə sizin kompüteriniz olmalıdır. Başlanğıc üçün "Pentium 4" ardınca qaçmağa ehtiyac yoxdur. Elə ən zəif kompüterlə də İnternetdə işləmək mümkündür.



Xarici modem

Kompüterlə telefon xətti arasında birbaşa əlaqə yaratmaq mümkün deyil. Çünki kompüter yalnız rəqəmsal informasiya ilə işləyir, telefon xətti isə analoq siqnallar ötürə bilir. Deməli, informasiyanı telefon xəttindən qəbul edib rəqəmsal formaya salan qurğuya ehtiyac duyulur. Bu qurğu modem adlanır. Modemin əsas xarakteristikası informasiyanı ötürmə sürətidir. Bir saniyə ərzində ötürülən informasiyanın miqdarı bitlərlə (bit/san və ya BPS – Bit/s Per Second) ölçülür. Birbaşa kompüterin korpusunda yerləşən və kompüterin ümumi elektrik mənbəyindən istifadə edən modem daxili modem adlanır. Əgər kompüterinizdə daxili modem yoxdursa, onda 33-56 Kbit/s sürətli xarici modem əldə etməlisiniz ki, telefon xəttinə bağlana biləsiniz. Xarici modem kompüterə portlar vasitəsilə (ardıcıl və ya paralel, yaxud da USB-portlara) qoşulan, elektrik mənbəyi müstəqil olan ayrıca qurğudur. Xarici və daxili modemlərin bir elə kəskin fərqləri yoxdur. Hər birinin müsbət və mənfi cəhətləri var. Xarici modemlər bir qədər bahadır.



Daxili modem



Telefon xətləri müxtəlif xüsusiyyətlərə malik olduğundan modem almazdan öncə seçdiyiniz provayderlə bu haqda məsləhətləşməniz faydalı olardı.

Əgər sizin İnternetə qoşulmaq üçün birbaşa xəttiniz yoxdursa, onda adi ev və ya ofis telefonundan istifadə etməlisiniz. Əgər audio və videokonfranslarda iştirak etmək, kiminləsə səs vasitəsilə əlaqə qurmaq istəyirsinizsə, onda səs qurğusu və web-kameranız da olmalıdır.

**Provayderin seçilməsi. İnternetə necə bağlanmalı?**

Bütün bunlardan sonra İnternet xidməti təklif edən şirkətlə – provayderlə (İnternet Service Provider) əlaqə qurmalısınız. Bu haqda məlumatı kompüteri əldə etdiyiniz mağazalardan, dostlarınızdan, sorğu kitablarından, mətbuatdan, həmçinin elə bu kitabdan əldə edə bilərsiniz.

İnternetə bağlantı növlərinə uyğun olaraq haqqını qabaqcadan ödəməklə provayderlə müqavilə bağlayırsınız. Sizi maraqlandıran bütün suallara, xüsusən İnternetə bağlanmaq üçün kompüterinizin necə sazlanması ilə bağlı suallara burada cavab ala bilərsiniz. İnternetə daxil olmaq üçün gərəkli olan parolu (şifrəni) və loqini, elektron poçt ünvanınızı, həmçinin provayderin modem nömrəsini buradan əldə edirsiniz. Parolu ya özünüz seçirsiniz, ya da müvəqqəti olaraq müqavilədə qeyd olunan parolu qəbul edirsiniz. İnternet bağlantısı qurmaq üçün provayderin müqavilədə qeyd olunan modem nömrəsinə zəng vurmaq gərəkdir. Rabitə xəttinizin xüsusiyyətlərinə uyğun olaraq modem vasitəsilə telefon nömrəsinin tonla və ya impuls rejimində yığılmasına diqqət yetirin. Müqavilə əsasında ilk dəfə İnternetə daxil olduğunuz zaman həmin provayderin web saytında **Paroldəyişmə** bölməsinə daxil olaraq parolunuzu dəyişməyiniz tövsiyə olunur.

İnternet kartı vasitəsilə İnternetə daxil olmaq üçün kartda qeyd olunan parol və login əsasında provayderin modem nömrəsinə zəng etməklə İnternet bağlantısı qurulur. Sonra həmin provayderin web-saytına daxil olaraq orada qabaqcadan yerləşdirilən xüsusi forma doldurulur. Bu zaman siz artıq yeni (özünüz seçdiyiniz) parol və loqini, özünüz haqqında digər məlumatları, İnternet kartındakı xüsusi yapışqanla gizlədilən kodu bu formanın müvafiq yerlərinə qeyd edirsiniz. Bu mərhələdən sonra, əgər qaydaya düzgün əməl etmisi-

nizsə, avtomatik olaraq qeydiyyatdan keçirsiniz. Bundan sonra İnternetə daxil olmaq üçün artıq yeni qeyd etdiyiniz parol və loqgindən istifadə edirsiniz.

**Qeyd:** *Web-saytdakı formanı doldurarkən əgər pasport göstəricilərinizin də qeyd olunması tələb olunursa, bunu etmək məsləhət görülmür.*

Hazırda Azərbaycanda 30-dək provayder fəaliyyət göstərir. Birbaşa magistral (backbone) kanala çıxışı olan provayderlərə birinci (yüksək) səviyyəli provayderlər deyirlər. Ona qoşulan digər provayderlərə isə ikinci səviyyəli provayderlər deyirlər.

**Lüğət:** *İnternet trafikinin keçdiyi əsas magistral kanallar* ***backbone (bel sümüyü)*** *adlanır. Bu termin İnternetdə çox işlənən terminlərdəndir. Türkiyə İnternetində bu termin* ***omurga*** *kimi işlədilir. Təxminən bizdə işlədilən, terminin daşıdığı mahiyyətə daha yaxın olan onurğa sözünə oxşardır. Fikrimcə, backbone əvəzinə Azərbaycan dilində də onurğa işlətmək daha məqsədəuyğun olardı.*




**İnternet: backbone (onurğa) və informasiya mübadiləsi mərkəzi**



**Lüğət:** ***Trafik*** *(traffic – yol hərəkəti) sözü İnternetdə müxtəlif mənalarda işlədilir. Böyük əksəriyyət rabitə kanalları ilə ötürülən informasiyanın həcmini, həmçinin şəbəkə vasitəsilə bir kompüterdən digərinə ötürülən informasiyanın həcmini* ***trafik*** *adlandırır. Hansısa saytlara edilən müraciətlərin toplam həcmi də İnternet statistikasında* ***trafik*** *adlanır.*

Xidmətin keyfiyyəti üçün provayderin birinci səviyyəli olması heç də zəruri şərt deyil. Azərbaycanda fiberoptik və peyk vasitəsilə magistral İnternet kanallarına bağlanan cəmi bir neçə birinci səviyyəli provayder var.

Siz müxtəlif provayderlərin İnternet kartlarını almaqla da İnternetə qoşula bilərsiniz. Bütün hallarda siz saathesabı müəyyən məbləğ ödəyəcəksiniz. Hazırda (aprel, 2008) İnternetin 1 saatının qiyməti təxminən 10-30 qəp., limitsiz (Unlimited) 1 aylıq DialUp İnternet xidməti isə təxminən 30 manatdır.

**Provayderlərin əsas keyfiyyət parametrləri**

Qlobal Şəbəkəyə bağlantı sürəti;
Dayanıqlı və keyfiyyətli servis;
Modem nömrələrinin sayı (Modem Pool);
Sərfəli qiymət siyasəti;
Əlavə xidmətlər və s.

Bu parametrlərin hər biri ciddi əhəmiyyət kəsb edir. Məsələn, tutaq ki, provayderin müştərilərinin sayı 2000-dən çoxdur. Əgər provayderin modem nömrələrinin sayı ümumi müştərilərinin sayından xeyli azdırsa, deyək ki, cəmi 50 nömrədirsə, provayderin minlərlə müştərisi olsa belə, onlardan eyni anda İnternetdə işləyənlərin sayı 50-dən çox ola bilməz. Çünki siz məhz provayderin bu nömrələri vasitəsilə İnternetə bağlanırsınız. Əgər nömrə (xətt) artıq tutulubsa, yəni kimsə provayderin bu xətti (nömrəsi) üzərindən sizdən qabaq İnternetə daxil olubsa, gərək gözləyəsiniz. Bu halda provayderin modem nömrəsinə etdiyiniz zəngə "məşğuldur" cavabı veriləcək. Ümumi qəbul olunmuş normalara görə hər 5-10 müştəriyə bir modem nömrəsi ayrılmalıdır.

**Qeyd:** *Provayderlərin modem nömrəsi ilə onun ofisinin telefon nömrələri tamamilə başqa anlayışlardır. Ofis nömrəsindən fərqli olaraq, modem nömrələrinə edilmiş zənglərə xüsusi proqram təminatı yüklənmiş kompüter "cavab" verir və nömrələrdən (və ya onlara uyğun telefon xətlərindən) hansı boşdursa onun vasitəsilə sizi İnternetə bağlayır. Bir sıra provayderlər modem nömrəsi kimi üçrəqəmli telefon nömrələrindən istifadə edirlər.*

Əgər provayderin İnternetə bağlantı kanallarının sürəti zəifdirsə, təbii ki, onun kanalı həmişə dolu olacaq. Bu halda isə İnternetdən nəyisə əldə etmək, hansısa səhifəyə baxmaq üçün xeyli gözləmək lazım gəlir.

! Ölkədəki provayderlər haqqında geniş məlumatla (həmçinin onların ofis telefon nömrələri ilə) kitabın 2-ci və 3-cü fəslində tanış ola bilərsiniz.

Provayderi hər an dəyişmək imkanınız var. Əgər provayderin xidməti sizi qane etmirsə, saathesabı ödəmə prosesini dayandırın və başqa bir provayderə müraciət edin. İmkanınız varsa, eyni vaxtda bir neçə provayderin xidmətindən istifadə edin. Bu, daha yaxşı müqayisə aparmağa, müntəzəm İnternet bağlantısı olmasına təminat verir.

Provayder İnternetə qoşulma ilə bağlı sizə lazımi məlumat verməli, bağlantı üçün lazım olan telefon nömrəsini bildirməli, nəhayət sizə parol və login təqdim etməlidir. Əgər İnternetə qoşulmaqda çətinlik çəkirsinizsə, onda əlavə ödənişlə (təxminən 20 manat) provayder bu prosesi sizin kompüterinizdə yerinə yetirə bilər (modemin quraşdırılması, proqram təminatı, E-mail serverlərinin tənzimlənməsi və s.).

Parolu unutmusunuzsa, öz logininizi provayderə bildirməklə yeni parol əldə edə bilərsiniz.

## İnternet bağlantılarının növləri

İnternetə müxtəlif üsullarla bağlanmaq olar. Bunların bəziləri haqqında məlumat veririk.



**Dial-Up bağlantı**

Bu, Azərbaycanda ən geniş yayılan İnternet bağlantısı formasıdır. Bu İnternet bağlantısı provayderin modem nömrəsinə adi telefon zəngi ilə həyata keçirilir. Telefon xətlərinin keyfiyyətindən, provayderin imkanlarından asılı olaraq sürət maksimum 56 Kbit/s ola bilər. Bundan yuxarı sürət üçün aşağıda qeyd olunan digər üsullardan biri ilə İnternetə bağlanmalısınız.

Xətlərdəki nasazlıqlar tez-tez bağlantının kəsilməsinə (Disconnection) səbəb olur. Bu halda yenidən provayderin modem nömrəsinə (nömrələrinə) zəng etmək lazımdır.

**Birbaşa xətt (ayrılmış xətt) vasitəsilə bağlantı**

Bu üsulla bağlantı istifadəçi və provayder arasında birbaşa çəkilmiş xətt (fiziki və virtual) vasitəsilə həyata keçirilir. Əsas üstünlüyü ondan ibarətdir ki, ümumi telefon şəbəkəsinə daxil olmayan bu xətt vasitəsilə sürət kifayət qədər yüksək olur. Bu cür xətlər üçün İnternet bağlantısına görə ödənişdən əlavə, müvafiq rabitə operatoruna və ya provayderə xəttin çəkilişi və aylıq icarə haqqı da ödəmək lazım gəlir.




**İnternet bağlantısının üsulları**

**Sürətli və genişzolaqlı qoşulmalar**

Provayderlərin yüksək texniki keyfiyyətləri daha sürətli qoşulmalara imkan verir. ISDN (Integrated Services Digital Network – İnteqrasiya Olunmuş Xidmətlərin Rəqəmli Şəbəkəsi) və xDSL (Digital Subscriber Line – Rəqəmli Abunəçi Xətti) adlanan texnologiyalar vasitəsilə qoşulma zamanı müvafiq olaraq 64, 128 Kbit/s və 8 Mbit/s-ə qədər sürət əldə etmək mümkündür. **x** işarəsindən DSL




Genişzolaqlı İnternet bağlantısı

texnologiyalarının müxtəlif növlərini göstərmək üçün istifadə edilir. ADSL (Asimmetric DSL) texnologiyası ilə qoşulma zamanı İnternetdə olmağınıza baxmayaraq, telefonunuzdan da sərbəst istifadə edə bilərsiniz. Xüsusi modemlərlə təchiz olunmuş istifadəçi adi telefon xəttindən, birbaşa çəkilmiş xətdən, kabel TV xəttindən, simsiz (naqilsiz) bağlantıdan istifadə etməklə genişzolaqlı qoşulma yarada bilər. Bəzi telekommunikasiya operatorları adi telefon xəttindən istifadə ilə eyni anda bir neçə xidmət təklif edirlər: İnternet, Kabel TV, adi və IP-telefon rabitəsi, multimedia xidmətləri və s. Texniki olaraq bu, bir kanal daxilində müxtəlif tezliklərdə müxtəlif siqnalların ötürülməsini mümkün edən xüsusi texnologiya vasitəsilə həyata keçirilir. Ümumiyyətlə, yeni infrastruktur yaratmadan, uzun illər boyu oturuşmuş, adi telefon xətti ilə yüksək sürətli İnternet bağlantısının əldə edilməsi bu üsulla qoşulmanın əsas üstünlüyü hesab edilir.

Hazırda bütün inkişaf etmiş ölkələr əsasən genişzolaqlı qoşulma texnologiyalarının inkişafına diqqət yetirirlər və bütün investisiyalar məhz bu istiqamətə yönəldilir. Xarici statistikaya görə, provayderlərin gəlirinin 80 %-i genişzolaqlı qoşulma hesabına reallaşan müxtəlif xidmətlərdən, 20 %-i isə ənənəvi İnternet bağlantısı hesabına əmələ gəlir.

Bu cür qoşulmalar üçün aylıq ödənişlər nisbətən yüksəkdir. Eyni zamanda istifadəçi tərəfindən ödənilməli olan xüsusi modemlərin də qiyməti yüksəkdir.

**Simsiz (naqilsiz) İnternet**

Bir sıra provayderlər fiziki xətt quraşdırılmadan, müəyyən tezliklər spektrində siqnallar göndərməklə İnternet xidməti təklif edirlər. Kabel çəkilməsi mümkün olmayan yerlərdə bu texnologiyanın əvəzsiz rolu vardır. Bu xidməti göstərən provayderlərdən evdə



və ya iş yerinizdə quraşdırmaq üçün xüsusi qurğu əldə edirsiniz. Bu qurğunun köməyi ilə, harada olmağınızdan asılı olmayaraq, İnternet əlinizin altındadır. Simsiz texnologiyalardan istifadə etməklə də yüksək sürət əldə etmək olar. Bu zaman lazımi avadanlığı provayder özü təmin etdiyindən bağlantının sürətindən asılı olaraq qiymətlər də müəyyən qədər yüksək olur.

Ölkəmizdə bu xidmət "DataCel" ("Elcell"), "HotNet", "AzerSat", "Sinam", "AzStarNet", "Ultra" və s. provayderlər tərəfindən göstərilməkdədir.

**Mobil İnternet**

Mobil telefon vasitəsilə İnternetə daxil olmaq üçün GSM standartında iki əsas texnologiyadan istifadə olunur: CSD (Circuit Switched Data) və GPRS (General Packet Radio Service). CSD texnologiyası ilə məlumat ancaq səs ötürmək üçün nəzərdə tutulan GSM kanalı vasitəsilə ötürülür. Sürət 9.6 Kbit/s-dir. Təbii ki, hansısa WAP saytlarına baxmaqdan ötrü bu sürət kifayət etsə də, İnternetdə normal işləmək üçün yetərli hesab oluna bilməz. Eyni zamanda, bu texnologiya ilə İnternetdə işləyərkən telefonun digər imkanlarından istifadə mümkünsüz olur. Ödəmə isə vaxta görə aparılır. Eyni anda hansısa baza stansiyanın əhatəsində bu texnologiya ilə İnternetdən istifadə edənlərin sayı çox olarsa, hətta adi danışıq da qeyri-mümkün olar.



WAP-texnologiya

GPRS texnologiyası isə eyni anda bir neçə kanal vasitəsilə informasiya ötürməyə imkan verir. Yəni, həmin anda hansı kanallar boşdursa, informasiya da həmin kanallar vasitəsilə ötürülür. Sürət 170 Kbit/s-dək yüksələ bilər. Reallıqda isə sürət 14-28 Kbit/s olarsa, şükür edin. Kanallar çoxsaylı danışanların hesabına yüklənərsə, GPRS vasitəsilə İnternetin də sürəti aşağı düşəcək. Bu texnologiya əsasında İnternetdə işləyərkən telefonun başqa imkanlarından da istifadə etmək mümkündür. GPRS vasitəsilə informasiya, klassik İnternetdə olduğu kimi, paket formasında, boş olan kanallar

vasitəsilə ötürülür. Son nöqtədə isə paketlərin yığılması prosesi baş verir. Həmin an sanki informasiya ötürülən mobil telefonun da bir IP-ünvanı olur. Bu texnologiya ilə İnternetdə işləyərkən ödəmə vaxta görə deyil, daxil olan və ötürülən informasiyanın ölçüsünə görə müəyyənləşdirilir. Yəni İnternetdən nə qədər informasiya yükləyəcəksənsə, ona uyğun da haqq ödənilir. Ölkədə fəaliyyət göstərən mobil operatorların bəzi İnternet tarifləri aşağıda verilib. Telefon aparatı nə qədər müasirdirsə, İnternetdə daha sürətlə işləyə biləcəksiniz. Belə ki, müasir telefonlar daha çox kanal vasitəsilə informasiya ötürməyə imkan verir. Əgər telefonunuzun markasında və ya istifadə təlimatında GPRS Class 10 yazılıbsa, deməк, o, 10 kanal vasitəsilə məlumat ötürə bilər. Əgər Class 4 (3+1) qeyd olunubsa, demək, informasiya 3 kanal vasitəsilə ötürüləcək, 1 kanal vasitəsilə qəbul olunacaq. İnternetin sürəti yalnız Classın parametrlərindən deyil, həm də baza stansiyalarının gücündən asılıdır.

Əgər yanında kompüter və mobil telefon varsa, onda mobildən istifadə edərək rahat olmaq üçün elə kompüter vasitəsilə də İnternetdən istifadə edə bilərsiniz. Bu zaman mobil telefon İnternetə daxil olmaq üçün sanki modem rolunu oynayacaq. GPRS modemin quraşdırılması elə adi modemin kompüterə quraşdırılmasına bənzəyir. Bünün üçün mobil telefonu kompüterə birləşdirmək gərəkdir (mobil telefon və kompüterin inteqrasiyasının metodları haqqında yetərli bilgini "Osman Gündüz. Mobil telefon və kompüter. 2007" kitabından əldə edə bilərsiniz). Birləşmədən sonra İdarəetmə panelindən (Control Panel) "Telefon və modem" menyusunu seçərək göstərilənləri icra etmək lazımdır. Burada qeyd etmək yerinə düşər ki, GPRS modemi üçün də məxsusi drayver olmalıdır. Standart drayverlər çox zaman problemlər yaradır. Əksər mobil telefon istehsalçıları öz saytlarında uyğun drayverləri və proqram təminatını da yerləşdiriblər. Məsələn, "Nokia 6110i" üçün kabel qoşulma zamanı "Nokia 6610i Cable" drayverindən, infraqırmızı portla qoşulma zamanı "Nokia 6610i IrDA" drayverindən istifadə edilir.


Bluetooth

Beləliklə, qeyd olunan qoşulma variantlarından biri ilə mobil telefonla kompüteri birləşdirirsiniz. Bundan sonra adi Dial-Up



(Zəng edib qoşulma) bağlantısı ilə İnternetə daxil ola və mobil İnternetdən kompüter vasitəsilə istifadə edə bilərsiniz. Bir daha təkrar edirik ki, GPRS modemindəki parametrlərin tənzimlənməsi operatorlar tərəfindən gerçəkləşdirildiyindən müxtəlif operatorlar üçün bu parametrlər müxtəlifdir. Şəhərdən uzaq, infrastruktur olmayan yerlərdə, yanınızda noutbuk və mobil telefon olarkən qeyd edilən metodla İnternetdən istifadə daha sərfəlidir.

Diqqət yetirin, mobil telefon vasitəsilə GPRS üzərindən İnternetə daxil olaraq noutbukda işləyirsinizsə və heç bir informasiya yükləmirsinizsə, narahat olmağa dəyməz, siz heç bir xərc çəkmirsiniz. Çünki, yuxarıda qeyd etdiyimiz kimi, GPRS vasitəsilə ancaq yüklədiyiniz informasiyaya görə haqq tələb olunur.

Son dövrlərdə bu tip daha bir simsiz informasiya ötürməyə imkan verən texnologiya istifadəyə verilib. Bu, EDGE (Enhanced Data Rates for GSM Evolution) adlanır. GPRS-dən fərqli olaraq, burada sürəti daha 3-4 dəfə artıraraq 450 Kbit/s-dək çatdırmaq mümkündür. Nəzəri olaraq belə qəbul olunsa da, praktikada bu, 60-100 Kbit/s arasında olur. EDGE-nin əsas üstünlüyü məlumatların yüksək sürətlə ötürülməsini təmin etməklə İnternet və WAP şəbəkələri ilə sürətli və keyfiyyətli bağlantının qurulması, MMS-in göndərilmə və alınmasının tezləşdirilməsidir. Multimediadan istifadə də mümkündür.

**Qeyd:** *EDGE-dən bu texnologiyanı dəstəkləyən telefona sahib olan bütün "Azercell" abonentləri istifadə edə bilər. Bunun üçün GPRS və WAP parametrlərini telefonunuza yükləməlisiniz.*

3-cü nəsil mobil texnologiyaya keçmək istəyən operatorlar son dövrlərdə öncə EDGE texnologiyasının tətbiqinə üstünlük verirlər. Səbəb isə ondan ibarətdir ki, onun reallaşdırılması üçün çəkilən xərclər 3G-yə nisbətən xeyli azdır. Beləliklə, keyfiyyətli EDGE xidməti üçün həm operatorlar yeni texnologiyalar tətbiq etməlidirlər, həm də onu dəstəkləyən telefon aparatları olmalıdır. Artıq GPRS-i dəstəkləyən telefon aparatlarını ucuz qiymətə tapmaq mümkün olsa da, EDGE ilə bağlı bunu demək olmaz. CDMA texnologiyası əsasında daha yüksək sürətli İnternet əldə etmək mümkün olsa da, ölkəmizdə hələlik bu istiqamətdə müəyyən problemlər qalmaqdadır. GPRS və EDGE-ni bəzən 2.5-ci nəsil mobil texnologiyalar da adlandırırlar.

Ümumiyyətlə, GSM standartı əsasında yüksək keyfiyyətli İnternet əldə etmək mümkün deyil.

WAP (Wireless Application Protocol – simsiz keçid protokolu). Əgər İnternetdə işləmək sizin üçün elə də əhəmiyyət kəsb etmirsə, onda WAP-ı dəstəkləyən telefon aparatı kifayətdir. Qeyd edək ki, WAP-ın 2-ci versiyasını dəstəkləyən mobil telefon olsa, daha gözəl olardı. Internet Explorer kompüterdə hansı funksiyanı icra edirsə, WAP da mobil telefonda həmin funksiyanı yerinə yetirir. Əlbəttə, mobil telefonun ekranına yerləşməyən web-səhifələrlə işləməyin necə çətin və yorucu olduğunu anlayırıq. Adi web-saytların hazırlanması üçün istifadə olunan HTML dili mobil telefonda yaramır. Odur ki, İnternet və mobil texnologiyanı inteqrasiya etmək məqsədilə 1997-ci ildə "Ericsson", "Motorola", "Nokia" və "Unwired Planet" şirkəti birgə "WAP Forum" (www.wapforum.org) adlanan qurum yaradıblar və artıq 1998-ci ildə WAP 1.0 texnologiyasını hazırlayıblar. Hazırlanan **WAP brauzer** məxsusi olaraq mobil telefonda baxılması nəzərdə tutulan saytlarla işləməyə imkan verirdi. Bu cür resurslar isə xüsusi dil olan WML (Wireless Markup Language) vasitəsilə yaradılırdı. WAP, harada olmağınızdan asılı olmayaraq, mobil telefonda İnternet səhifələrinin açılması üçün ən asan və ucuz vasitədir.

Son dövrlərdə WAP texnologiyaları o dərəcədə inkişaf edib ki, artıq orada təkcə polifoniyalar, loqolar deyil, ciddi əhəmiyyət kəsb edən informasiyalar da tapmaq mümkündür (wap.yahoo.com, wap4.com, mobile.sports.com, wap.ft.com, wap.gelon.net, wap.joke.co.uk, wap.ludiwap.com). Ayrıca poçt xidməti göstərən WAP resursları da fəaliyyət göstərir (məs., *wap.box.az*). Təəssüf ki, WAP saytlarının sayı yetərli deyil. Hazırda Azərbaycan İnternetində az sayda olsa da, WAP saytları tapmaq mümkündür. Nə etmək olar, hələlik buna da qane olmaq lazım gəlir. Zaman keçdikcə mobil web texnologiyaları daha çevik və effektli olur və istehsal olunan telefonların da ekranı geniş formatda hazırlanır. Bütövlükdə Qlobal Şəbəkədə populyar olan əksər saytların WAP versiyaları da hazırlanıb.

Bəzi mobil aparatlar adi brauzerlə də (smartfonlar, cib kompüter-telefonları və s.) təmin olunub. Bunlar vasitəsilə İnternetdə istənilən sayta daxil ola bilərsiniz.

Əvvəllər istehsal olunan telefonların xeyli hissəsi GPRS-i qəbul etmirdi. Son dövrlərdə buraxılan əksər telefon aparatları GPRS-i dəstəkləyir. Telefon aparatlarının mobil İnterneti dəstəkləməsi



üçün müəyyən şərtlər ödənilməlidir. Yəni aparatda bəzi tənzimləmələr yerinə yetirilməlidir (şifrə, loqin, IP-ünvanı və s.). Zəruri parametrlərin yüklənməsi üçün operatorunuza müraciət edə bilərsiniz. Bu cür parametrlər operatorların saytında da yerləşdirilir. Bəzi operatorlar abonentdən müvafiq SMS qəbul edərək bu prosesi avtomatik olaraq yerinə yetirirlər. Əgər telefonunuzun kitabçası yoxdursa və ya istifadə mümkünsüzsə, onda "Bakcell" (www.bakcell.com) və "Azercell" (www.azercell.com) İnternet resurslarından GPRS-i dəstəkləyən telefonların siyahısı ilə tanış olmaq olar. Bu saytlardan eyni zamanda telefona GPRS və MMS quraşdırılması haqqında bilgilər də əldə edə bilərsiniz. "Azercell" müştəriləri GPRS üzərindən deyil, adi qaydada WAP parametrlərini quraşdırmaq istəyirsə, http://www.azercell.com/guide/wap/ səhifəsindən hər bir model üçün lazımi təlimatı əldə edə bilərlər. "Nar Mobile"ın WAP xidmətindən istifadə etmək üçün qeyd olunanlar gerçəkləşməlidir:

- mobil telefonda WAP texnologiyası olmalıdır;
- GPRS xidməti aktivləşdirilməlidir;
- mobil telefonda WAP parametrləri quraşdırılmalıdır.

WAP parametrlərini isə "Nar Mobile" İnternet xidməti vasitəsilə və ya mobil telefonunuzda "Nar" menyu xidməti" vasitəsilə əldə edə bilərsiniz. Sonuncu halda siz 721 nömrəsinə (mobil telefonun modeli, WAP formasında) SMS göndərməklə (məsələn, "Nokia 6610", WAP) "Nokia 6610"un WAP parametrlərini əldə edə bilərsiniz.

"Bakcell"in WAP xidmətindən istifadə etmək üçün aşağıdakılar gerçəkləşməlidir:

- öncə qeyd etmək lazımdır ki, bu xidmətdən istifadə etmək istəyirsinizsə, telefon aparatınız WAP və GPRS-i dəstəkləməlidir;
- müvafiq parametrləri almaq üçün "Bakcell" şirkətinin müştəri xidmətləri mərkəzinə zəng olunmalıdır. Müştəri xidmətləri mərkəzindən sizə WAP qurmalarını daşıyan SMS mesajı göndəriləcək;
- WAP qurmalarını daşıyan SMS mesajı sizin telefonun modelinə uyğun olmadığı halda telefonu əllə qurmaq üçün zəruri olan parametrlərdən istifadə edilir. Hər bir telefon modeli üçün daha ətraflı təlimat "Bakcell"in saytında yerləşdirilib.

"Azercell" müştəriləri də lazımi parametrləri www.azercell.com saytından əldə edə bilərlər. "Azercell" müştəriləri əksər telefon modelləri üçün 9595 nömrəsinə boş SMS göndərməklə, eyni

zamanda, 9595 nömrəsinə telefonun modelini göndərməklə WAP parametrlərini avtomatik olaraq yükləyə bilərlər. Məsələn, qeyd olunan xidməti aktivləşdirmək üçün "Nokia 6310"un sahibləri mesaj yerinə 6310 yazaraq 9595 nömrəsinə göndərməlidirlər. Telefon modellərinin siyahısı ilə www.azercell.az saytında tanış olmaq mümkündür. GPRS üzərindən WAP-ı müstəqil olaraq əllə quraşdırmaq da mümkündür.

Mobil rabitə texnologiyası olan CDMA (Code Division Multiple Access) texnologiyası vasitəsilə də İnternet bağlantısı yaratmaq mümkündür. Bu texnologiyanın tətbiqi məhdud olan tezlik resurslarından səmərəli istifadəyə imkan verir. Müxtəlif coğrafi ərazilərdə eyni telefon nömrəsindən və İnternetdən istifadə etmək mümkündür. Bu texnologiyanın son versiyaları daha yüksək sürət əldə etməyə imkan verir. CATEL şirkəti bu xidməti təklif edir.

**Peyk İnterneti**

Sürətli İnternet əldə etməyin yollarından biri də peyk rabitəsidir. Hazırda peyk TV yayımı ilə məşğul olan şirkətlərin əksəriyyəti bu xidməti də təklif edir. Peyk İnternet xidməti əldə etmək üçün istifadəçi adi peyk antennasından istifadə edir. Belə ki, antennanın kabelinə əlavə qurğu quraşdırılır və o, kompüterə birləşdirilir. Kompüter dərhal onu "tanıyır". Qurğunun proqram təminatı kompüterə yüklənir. İnternetə qoşulma və istifadə isə aşağıdakı qaydada həyata keçirilir. Öncə adi yolla adi provayderə qoşulursunuz. Axtar-




**Peyk İnterneti**



dığınız informasiyanın sorğusunu adi modem vasitəsilə (yerli provayderlə) həyata keçirirsiniz. Axtardığınız informasiyanın əldə edilməsi (yerləşdiyi kompüterdən (serverdən) sizə ötürülməsi) isə peyk vasitəsilə həyata keçirilir. Bu zaman sürət adi modemin imkanlarından 15-20 dəfə, ISDN texnologiyasından isə 5 dəfə artıq olur.

Bir sözlə, ümumi telefon xətti ilə informasiyanı axtarırsan, peyk vasitəsilə əldə edirsən. Bu zaman peyk şirkətinə birdəfəlik qoşulma haqqı və aylıq abunə haqqı, yerli provayderə də adi qaydada ödəniş etməlisiniz.

Bu xidməti və xüsusi qurğunu təklif edən şirkətlər haqqında geniş məlumatı elə İnternetdən əldə edə bilərsiniz.

**Simsiz İnternet**

Wi-Fi (Wireless Fidelity) və WiMax (World Interoparability for Microwave Access) – simsiz şəbəkə texnologiyası vasitəsilə İnternetə giriş müasir dövrdə ən ciddi maraq doğuran sahələrdən biridir. Bu texnologiya ilə qurulmuş şəbəkədə adi məftili Hot-Spot qurğusu əvəz edir. Bu texnologiyanı dəstəkləyən cib kompüterləri və noutbuk vasitəsilə müəyyən ərazi dairəsində simsiz olaraq İnternetə daxil olmaq mümkündür. Wi-Fi üçün bu ərazi 300 m, WiMax üçün 20-30 km, sürət isə 150Mb/s-dir. Ölkədə Hotnet provayderi hazırda Wi-Fi texnologiyası əsasında İnternet xidmətləri təklif edir.

**Yüksək gərginlikli İnternet**

Uzun müddət aparılan sınaqlardan sonra, nəhayət ki, 14 sentyabr 2004-cü ildə ABŞ-ın Elektrik rabitəsi üzrə Federal Komissiyası yüksək gərginlikli adi elektrik xətləri vasitəsilə genişzolaqlı İnternet bağlantısına imkan yaradan texnologiyanı rəsmən dəstəklədiyini bəyan edib. Bütün evlərdə olan adi elektrik məftili ilə İnternet bağlantısının mümkünlüyü İnternet sahəsində inqilab sayıla bilər. Deməli, ən yaxın müddətdə bütün dünya üzrə İnternetə bağlantı sahəsində ciddi dəyişikliklər olacağı şəksizdir.

## İnternetin imkanları. Web-səhifələr. Link (Keçid)

World Wide Web (WWW – Ümumdünya Hörümçək Toru) İnternetin ən məşhur və geniş yayılmış xidmət növüdür. Çox vaxt hamımızın elə İnternet olaraq qəbul etdiyimiz World Wide Web, əs-

lində, bir İnternet xidmətidir və informasiyanın hipermətn şəklində təsvir olunmasına əsaslanıb. **Hipermətn** – sənədin hansısa hissəsinə, digər sənədlərə, qeyri-mətn təbiətli hər hansı bir sənədə, mətnə baxmaq üçün məhz bu texnologiyadan istifadə edilir.

Qısaca web adlanan bu xidmət növü İnternetdə naviqasiyanı təmin etmək üçün yaradılan proqramdır.

İnternetin yarandığı ilk dövrlərdə bir sənəddən digərinə keçmək, hansısa sənədi axtarıb tapmaq ciddi problem idi. Bu problemi aradan qaldırmaq, asan axtarış sistemi qurmaq üçün HTML (Hyper Text Markup Language) adlı xüsusi bir dil hazırlandı.

**Lüğət:** *HTML – Web-səhifələrin yaradılması üçün istifadə olunan dil*

Olduqca sadə dildir. Bu dil vasitəsilə yaradılmış web-səhifələr xüsusi proqram vasitəsilə də oxunur ki, buna web-brauzer (və ya sadəcə brauzer) deyilir. Web-brauzerlər web-səhifələrlə xüsusi protokol vasitəsilə əlaqə yaradır ki, bu da qısaca HTTP (HyperText Transfer Protokol – Hipermətnlərin Ötürülməsi Protokolu) adlanır. Hipermətn hansısa digər mətnə (sənədə) "keçid"i (link) olan xüsusi bir mətn növüdür.

HTML dilinin köməyilə yaradılan səhifələr, onlarda olan "keçidlər" (linklər) İnternetdəki bütöv informasiya mühitinin əsasını təşkil edir. Hər bir web-səhifə dünyanın müxtəlif yerlərində kompüterlərdə ola bilər, "keçid"lər isə həmin səhifənin məhz konkret hansı kompüterdə olduğunu göstərir. Bu cür keçidlər səhifədə başqa bir rənglə (məs: göy rənglə) seçilir. Altından isə xətt çəkilir. Bu isə web-səhifəni oxuyarkən tez bir zamanda bu səhifə ilə əlaqəli olan digər səhifəyə keçidi təmin edir. Proses keçidin üzərində mausun düyməsini bir dəfə basmaqla yerinə yetirilir. İnternetin ikinci adı olan "Hörümçək toru" ifadəsi də məhz bu qeyd olunanlara əsasən ortaya çıxıb. Belə ki, İnternetdəki bütün səhifələr keçidlər (linklər) vasitəsilə sanki bir-biri ilə əlaqədədir.

İnternetdə hər bir səhifənin bir unikal ünvanı olur. Bu ünvan ingiliscə **URL – Uniform Resource Locator** adlanır. Ana dilimizdə bu, "İnternet resursunun xüsusi tuşlayıcısı" kimi anlaşıla bilər. Sadə dildə desək, bu ünvan web-səhifənin yerləşdiyi kompüterin İnternetdəki koordinatıdır. Adi URL belə formada olur: http://www.cit.az/fayl1/index.html



**http://** səhifənin identifikatorudur və hansı protokoldan istifadə edildiyini göstərir. Brauzerlər başqa tip protokolları, məsələn, FTP protokolunu da dəstəkləyir.

Web-səhifələri HTML vasitəsilə əllə yaratmaq olar. Bu zaman HTML kodu yığmaq üçün istənilən mətn redaktorundan istifadə etmək olar. Təbii ki, bu bir qədər uzun və yorucu prosesdir. Ancaq web-səhifələri ani bir müddətdə hazırlamaq da mümkündür. Bu məqsədlə İnternetdə hazır proqramlardan istifadə edilir. Daha çox məşhur olan hazır web-səhifə redaktorlarından "DreamWeaver", "Netscape Composer", "HotDog", eləcə də "Microsoft FrontPage" misal göstərmək olar.

## Web-saytlar. Web-sayt nədir?

Web-sayt bir-biri ilə əlaqəli olan və eyni web-serverdə yerləşən bir və ya bir neçə web-səhifədən ibarətdir. Web-səhifə web-saytın ayrıca, müstəqil bir hissəsi olub **.htm və ya *.html* genişlənməsi olan mətn faylıdır. İnternetlə kəsilməz əlaqəsi olan web-server bu faylların fiziki olaraq saxlanılması və istifadəçilərə təqdim edilməsini həyata keçirir. Fayllarda mətni informasiya və bu informasiyanın brauzerin pəncərəsində necə təsvir olunmasını müəyyənləşdirən HTML-kodlar yerləşir. Bütün qrafiki, audio-videoinformasiya web-səhifəyə daxil olmur və ayrıca **.gif, *.jpg, *.mid, *.mp3, *.avi* genişlənməsi olan fayllar şəklində olurlar. HTML-kodda yalnız bu fayllara aparan yol göstərilir.

Beləliklə, web-sayt web-serverdə yerləşən, fərdi ünvana malik olan və bir-birilə hipermətn əlaqəsində olan web-səhifələrdən ibarət informasiya resursudur.

İlk web-sayt 1991-ci ilin 6 avqust tarixində yuxarıda adı qeyd olunan Tim Berners Li tərəfindən yaradılıb.

Bir informasiya yayım vasitəsi olaraq web-saytın digər media vasitələrindən ən üstün cəhəti onun vasitəsilə bütün növ informasiyaların (mətn, audio, video və s.) yayılmasının mümkünlüyündə, eyni zamanda istənilən an istifadəçi ilə əks əlaqənin qurulmasındadır. Yuxarıda qeyd olunduğu kimi, web-saytlara baxmaq üçün brauzer (brouser) adlanan proqramlardan istifadə edirlər.

Ən geniş yayılan web-brauzerlər "Microsoft "Internet Explorer"", "Netcape Navigator", "Mozilla Firefox", "Maxthon" və "Opera"dır. Burada qeyd etmək yerinə düşər ki, 1994-cü ildə ilk brauzer – "Netcape Navigator" fəaliyyətə başlasa da, 1995-ci ildə çıxan "Internet

Explorer" İnternet bazarında onu xeyli sıxışdırıb. 2008-ci ildə "Netcape Navigator"un sahibi olan məşhur AOL şirkəti artıq növbəti illərdən bu brauzerin təkmilləşdirilməyəcəyini bildirib.

Hansısa web-səhifədəki sənədə giriş sərbəst və pullu ola bilər. Kredit kartından istifadə edərək ödəniş həyata keçirməklə pullu səhifələrə baxmaq olar. Hər iki halda informasiya təhlükəsizliyi qaydalarına ciddi surətdə əməl etmək lazımdır. Bir sıra hallarda hansısa səhifəyə baxmaq üçün qeydiyyatdan keçmək tələb olunur. Yəni elektron ad və soyad, ünvan yazmaq tələb olunur. Bu zaman, güman ki, sizin qeyd etdiyiniz həmin elektron ünvana qeydiyyatdan keçdiyiniz səhifənin sahibi tərəfindən müxtəlif növ məktublar da gələ bilər.

## Brauzerlər (Səyyahlar). Internet Explorer

"Internet Explorer" web-səhifələrə baxmaq üçün yardımçı proqramdır. Hazırda "Internet Explorer"in daha təkmilləşdirilmiş 8-ci versiyasının "Beta" variantı hazırlanıb.

Bu proqram vasitəsilə nəinki mətnlərə, eyni zamanda şəkillərə və videoya baxa, musiqi dinləyə, İnternet üzərində yayımlanan radiolara qulaq asa, TV-kanallara tamaşa edə, lazımi səhifələri bütövlükdə, eləcə də hansısa səhifənin içərisində olan mətni və şəkli kompüterinizə köçürə bilərsiniz. Bir sözlə, web-səhifələr arasında dolaşaraq onların hər birinin içərisində nə varsa hamısını "Internet Explorer" vasitəsilə əldə edə bilərsiniz. "Internet Explorer"i ekranda gördüyünüz bu işarəni aktivləşdirməklə və ya **Start** menyusu vasitəsilə işə salarkən qarşınıza şəkildə gördüyünüz formada bir pəncərə açılacaq.



Aşağıdakı "Internet Explorer" 6 proqramının interfeysidir (görünüşüdür). İnternetə bağlandıqdan sonra hansısa bir səhifəyə, məsələn, www.yahoo.com a daxil olmaq lazımdırsa, **Address (Ünvan)** yazılan zolağa uyğun ünvanı yazmaq və **Enter** düyməsini basmaq lazımdır. Diqqətli olun ki, cüzi səhvə yol verməyəsiniz. Əks halda səhifə açılmayacaq. Əgər ünvan sətrində digər bir ünvan varsa, onu silmək, daxil olmaq istədiyiniz səhifənin ünvanını yazmaq və **Enter** düyməsini basmaq lazımdır. "Explorer" yazdığınız ünvana bağlanmağa çalışacaq. Əgər İnternet bağlantınız sürətlidirsə, bu proses cəmi bir neçə saniyə çəkəcək. Ola bilər ki, "Internet Explorer"də **Ünvan** yeri görsənməsin. Bu halda **View** menyusundan **Adress Bar** bəndini seçmək lazımdır.






Təcrübəli istifadəçilər adətən ünvan yazarkən **http://** yığmırlar, məsələn, sadəcə www.cit.az yazırlar. Son vaxtların brauzerləri isə artıq www yazmadan, məsələn, təkcə *cit.az* yazmaqla İnternet səhifəsini tapır.

Pəncərədə görünən səhifə ora tam yerləşmirsə, klaviaturadakı PgDn və PgUp düymələrini, ya da pəncərənin sağ tərəfində yuxarı və aşağı istiqamətlənmiş oxları mausla aktivləşdirməklə səhifənin tam mətnini görmək mümkündür.

Səhifədəki mətnə diqqət yetirsəniz, bəzi sözlərin və cümlələrin rəngli olduğunu görərsiniz. Mausu onun üzərinə gətirsəniz, dərhal rəng də dəyişəcək. Bu zaman ekranın aşağısında da bir ünvan görünəcək. Mausu həmin sözün və ya cümlənin üzərinə vursanız bu ünvandakı web-səhifə ekrana çıxacaq. Əgər əvvəlki səhifənin ekranda qalması şərtilə yenisinin ekrana çıxmasını istəyirsinizsə, mausu keçidin üzərinə gətirərək sağ düyməni basmaq və açılan menyular içərisindən **New open (Yenisini açmaq)** başlığını seçmək lazımdır.

Siz eyni vaxtda 10-20 "Explorer" pəncərəsi ilə işləyə bilərsiniz. Bunun üçün sizə elə o sayda "Explorer" proqramını işə salmaq lazımdır. Çox halda **Back (Geriyə)** düyməsi vasitəsilə əvvəlki səhifələrə baxmaq çətin olur, bir sıra hallarda isə ümumiyyətlə mümkün olmur. Odur ki, sizə lazım olan səhifəni yeni pəncərə vasitəsilə açmağınız daha səmərəli variantdır. Beləliklə, ekranda xeyli sayda açıq web-səhifə yaranacaq. Bu, normal haldır. Əgər hansısa səhifə artıq sizə lazım deyilsə, əlavə yüklənmədən xilas olmaq üçün həmin pəncərəni bağlamaq məsləhətdir.

Səhifənin yüklənməsini dayandırmaq istədikdə **Stop (Dayan)** düyməsini basmaq lazımdır. Ağır yüklənən səhifəni yenidən yükləmək istəyirsinizsə, **Refresh (Yenilə)** düyməsini basmaq lazımdır. Əgər baxdığınız səhifədə çox sürətlə dəyişən xəbərlər verilirsə, səhifənin sahibi tərəfindən hər saniyə, hər dəqiqə yeniləşdirilən məlumatları oxumaq üçün məhz bu **Refresh (Yenilə)** düyməsindən istifadə etməlisiniz.

Sağa və sola istiqamətlənmiş **Back (Geriyə)** və **Forward (İrəli)** düymələri vasitəsilə əvvəl açdığınız səhifələrə daxil ola bilərsiniz.

Əgər ya irəli, ya da arxaya gediləcək səhifələr yoxdursa, həmçinin səhifə tam açılıbsa, o zaman **Back (Geriyə)** və **Forward (İrəli)** düymələri və **Stop (Dayan)** düyməsi qeyri-aktiv (sönük) olacaq.

Çox vacib hesab etdiyiniz, tez-tez sizə lazım ola biləcək səhifələrin ünvanlarını **Favorites (Seçilmişlər)** menyusundakı **Add to favorites (Seçilmişlərə əlavə et)** altmenyusundan istifadə edərək xüsusi mövzular üzrə qovluqlara yığmaq olar.




**Qeyd:** *Bu rejim təcrübəli İnternet istifadəçilərinin ən çox istifadə etdiyi xidmətdir. Çünk, İnternetdə tez-tez elə səhifələrə rast gəlmək olur ki, həmin an o sizə lazım deyil, ancaq səhifə olduqca maraqlıdır, gələcəkdə sizə mütləq lazım olacaq və fəaliyyətinizlə, hobbinizlə bağlıdır. Əgər buna əhəmiyyət verməyib – "bir də rast gələcəyəm" deyib növbəti səhifələrə keçsəniz, həmin maraqlı səhifəni bir də axtarıb tapmağınız çox çətin olacaq (İnternetin öz xüsusiyyəti ilə, axtarış serverlərinin iş prinsipi ilə bağlı və s. səbəblərdən). Nə etməli? Məhz bu anda yuxarıda qeyd olunan* ***Add to favorites (Seçilmişlərə əlavə et)*** *menyusu köməyinizə çatacaq.* ***New folder (Yeni qovluq)*** *düyməsi vasitəsilə özünüzə lazım olan sahələr üzrə qovluqlar yaradın və maraqlı hesab etdiyiniz səhifələrin ünvanlarını bir-bir bu qovluqların içərisinə atın. Nə vaxt həmin səhifələr yadınıza düşsə, dərhal* ***Favorites (Seçilmişlər)*** *menyusunu seçin və müvafiq qovluqların içərisindən lazım olan səhifəni mausla aktivləşdirin.*






İnternetdə işləyərkən baxdığınız səhifələrin ünvanları xüsusi bir jurnala qeyd olunur. **History (Tarixçə)** menyusundan istifadə edərək günlərlə, həftələrlə baxdığınız səhifələrə yenə də baxa bilərsiniz. Eyni zamanda baxdığınız səhifələrin müəyyən elementləri də kompüterinizin sərt diskində müəyyən bir yerə yazılır. Onları vaxtaşırı təmizləmək üçün **İnternet Options (İnternet Ayarlar)** bəndini seçmək, sonra isə **General (Ümumi)** pəncərəsində **Clear History (Tarixçəni sil)** düyməsindən istifadə etmək lazımdır.

Pəncərənizə çıxan səhifəni İnternetsiz açmaq istəyirsinizsə, onda **Save as (Adlandırıb saxla)** düyməsindən istifadə edib həmin səhifəni kompüterinizin yaddaşında saxlaya bilərsiniz. "Internet Explorer"in avtonom rejimindən (Work Offline) istifadə edərək bu cür səhifələrə İnternetdə işlədiyiniz qaydada (İnternetə bağlanmadan) yenə baxa bilərsiniz. Əgər bu rejimdə hansısa səhifə açılmırsa, deməli, onu yadda saxlamamısınız və bu səhifəyə baxmaq üçün avtonom rejimdən çıxmaq, yenidən İnternetə bağlanmaq lazımdır.

Səhifəni çap etmək üçün **Print (Çap et)** düyməsindən istifadə edə bilərsiniz. Səhifənin böyük-kiçikliyindən asılı olaraq çap normal vəziyyətdə alınmazsa, əvvəlcə **Print Preview** menyusunu seçməklə çapdan öncəki vəziyyəti nəzərdən keçirin. Problemi aradan qaldırmaq üçün **Print** pəncərəsindən **Properties** düyməsinin köməyi ilə printerin parametrlərini dəyişməyə və yaxud da çap etmək istədiyiniz səhifəni **Word** və ya digər redaktorlar vasitəsilə redaktə etməyə cəhd edin.

**View (Görünüş)** menyusundan istifadə edərək ekrandakı mətnin ölçülərini və görünüşünü dəyişə bilərsiniz.

Azərbaycan dilində olan mətnin oxunuşunda problem yarandıqda **View (Görünüş)** menyusunun **Encoding** başlığındakı seçimlərdən biri ilə (UTF-8, Cyrillik, Turkish, Azeri (Latin)) problemi aradan qaldırmağa səy göstərin.

Bəzən web-səhifələr çox gec açılır. İnternetin sürəti zəif olduqca bu cür hadisələrlə tez-tez rastlaşmalı olacaqsınız. Bu problemi qis-

mən həll etmək üçün **Tools (Alətlər)** menyusundan **Play** sounds **(Səsləndir), Show pictures (Görüntünü göstər)** və **Play video (Video göstər)** başlıqlarının yanındakı balaca kvadratlardakı işarəni götürün. Bu halda web-səhifəyə yalnız mətn yüklənəcək, görüntülərin və səslərin yüklənməməsi web-səhifənin açılma sürətini xeyli artıracaq.

İnternetə hər dəfə daxil olduğunuz zaman həmişə eyni bir səhifəni yükləmək istəyirsinizsə **Tools (Alətlər)** menyusundan **İnternet Options (İnternet Ayarlar)** bəndini seçmək, sonra isə **General (Ümumi)** pəncərəsində **Address (Ünvan)** yerinə həmin səhifənin ünvanını qeyd etmək lazımdır. Bu, Başlanğıc səhifə və ya **Ana səhifə (Home page)** adlanır. Bir sıra resurs sahibləri öz saytlarında səhifələrinin başlanğıc səhifə (Home page) olması üçün düymə qoyurlar. Təsadüfən özünüzün xəbəri olmadan bu düyməni bassanız hər dəfə "İnternet Explorer"i işə saldıqda ekrana birinci olaraq məhz həmin səhifə çıxacaq. Bunun qarşısını almaq üçün yuxarıda deyilənləri icra etmək lazımdır. Heç bir səhifənin birinci açılmasını istəmirsinizsə onda yuxarıda qeyd olunan pəncərədə **Use Blank** düyməsini basmaq lazımdır.







Mətni çox böyük olan səhifələrdə konkret hansısa sözü və ya cümləni axtarırsınızsa, **Edit/Find** menyusundan istifadə edin. Ekrana çıxan pəncərənin müvafiq hissəsinə axtardığınız sözü (sözləri) yazın və **Next (İrəli)** düyməsini basın. Axtardığınız söz mətndə varsa, dərhal seçiləcək. Bu qayda ilə növbəti sözləri də tapa bilərsiniz.






Web-səhifədəki mətni başqa yerə köçürmək üçün aşağıdakı qaydadan istifadə etmək olar:

– mətni (və ya onun bir hissəsini) maus ilə seçmək;

– **Edit/copy** menyusunu seçmək;

– mətnin (və ya onun hissəsinin) köçürüləcəyi proqramı (məs., **Word** redaktorunu) açmaq. Bu zaman IE-ni bağlamağa ehtiyac yoxdur;

– burada **Edit/paste** menyusunu seçmək lazımdır. Əgər mətn hansısa konkret bir abzasa köçürülməlidirsə, onda əvvəlcə mausla həmin yeri qeyd etmək, sonra **Edit/paste** menyusunu seçmək lazımdır.

Web-səhifədəki şəkilləri də rahat formada kompüterinizə köçürə bilərsiniz.

Mausu web-səhifədəki şəklin üzərinə gətirin. Sağ düyməni basın. Açılan menyuda **Save as picture (Şəkli qeyd et)** menyusunu seçin. Çıxan pəncərədə faylın adını dəyişərək (və ya dəyişdirmədən) istədiyiniz qovluqda saxlaya bilərsiniz.

Eyni zamanda, web-səhifədəki şəkli mausla seçərək (bu zaman onun rəngi dəyişəcək) **word** redaktorunda istədiyiniz bir yerə (həmin yeri əvvəlcədən mausla qeyd etməklə) köçürə bilərsiniz.

"Microsoft Internet Explorer" adətən "Windows" əməliyyat sistemi ilə birlikdə kompüterinizə yüklənir.

Əgər İnternetdə "Netscape Navigator" brauzeri ilə işləmək istəyirsinizsə, onu kompüter mağazalarından əldə etməklə və ya İnternetdən çəkməklə öz kompüterinizə yükləyə bilərsiniz.

## "Mozilla Firefox" ilə tanışlıq

"Mozilla Firefox" ən mükəmməl İnternet **brouzer (Səyyah)** proqramlarından biridir. Proqramın bir üstün cəhəti də var: "Firefox" pulsuzdur. Adi proqram istehsalından fərqli olaraq, Açıq Mənbə üsulu ilə inkişaf edən əksər proqramlar kimi, "FireFox" daha çox faydalı funksiyaya və eyni zamanda daha az qüsura malikdir. "Mozilla Firefox" proqramının bir sıra üstünlükləri var və ümumən proqram ilk baxışdan çox yaxşı təəssürat bağışlayır.

## Proqramın qurulması və quraşdırılması

İlk addım kimi “Mozilla Firefox” səyyahının ödənişsiz nüsxəsini əldə etməlisiniz. Proqramın qurucu faylı İnternet vasitəsilə yüklənə bilər. Bu ünvana – http://mozilla.org/products/firefox/ müraciət etdikdə, proqram məhsulunun ən son 3.0 versiyasını endirmək üçün keçid tapa bilərsiniz. Endirəcəyiniz faylın seçimi istifadə etdiyiniz əməliyyat sistemindən və bir sıra digər amillərdən asılıdır.

Nümunə üçün “Windows” üçün hazırlanan 1.0 versiyasının qurucu faylını yükləyib, ondan istifadə edəcəyik.

## “Mozilla Firefox” qurucusu

“Mozilla FireFox” qurucusu “Mozilla” icmasının rəsmi istehsal etdiyi bir fayldır. Bir vahid faylda proqramın istifadəsi üçün lazım olan fayllar və ilkin quraşdırılması üçün alətlər yerləşdirilib.

Faylı endirdikdən sonra onu tapıb icra edin (bizim nümunədə faylın adı “MozillaFirefox-1.0.-Setup.exe” olmalıdır). Nəticədə belə bir pəncərə əldə etmiş olmalısınız:




Hər hansı digər proqram aktivdirsə, onları bağlamaq tövsiyə olunur. Bunu etdikdən sonra pəncərədəki **Next** düyməsini basın.






Növbəti səhifədə istifadəçi razılaşması ilə tanış olmalı və razılaşmanı qəbul etməlisiniz. Razılaşmanı qəbul etdiyinizi *I accept the terms...* başlıqlı parametr elementini aktivləşdirməklə bildirirsiniz. Davam etmək üçün **Next** düyməsindən istifadə edin.




Növbəti pəncərədə proqramın hansı üsulla qurulmasını seçməlisiniz. Proqramı standart qurulma üsulundan fərqli qurmaq istəsəniz, yəni hansı komponentlərin əlavə olunmasını və proqramın hansı qovluğa qoyulmasını özünüz seçmək istəsəniz, **Custom** variantını seçin, əks halda seçimi **Standart** üzərində saxlayın.




Qurucu "Mozilla Firefox"un haraya qoyulması haqqında sizə məlumat verəcək. Əksəriyyətinizdə qovluq şəkildə verilənlə eyni olmalıdır (C:/Program Files/Mozilla Firefox).




Yuxarıda gördüyünüz pəncərə proqramın tam qurulmasından xəbər verir. "Firefox"u işə salmaqla qurulmanı başa çatdırmaq üçün **Launch Mozilla Firefox now** seçimini aktiv saxlayaraq **Finish** düyməsini basın.

"Mozilla Firefox" digər səyyah proqramlarından bir sıra parametr və məlumatı öz daxilinə idxal etmək funksiyasına malikdir. Bunlar **Seçilmişlər (Favorites)** qovluğu, **Bağlantı və təhlükəsizlik parametrləri, Cookie** faylları, parollar və s. ola bilər.



Bu əməliyyata başlamaq üçün **File** menyusundan **Import** seçin. Nəticədə belə bir pəncərə əldə edəcəksiniz:




Bu mərhələdə məlumatın hansı səyyahdan əldə olunması seçilir. Məsələn, əvvəl istifadə etdiyiniz səyyah "Internet Explorer" olarsa, müvafiq sətri seçin. Növbəti addımda hansı məlumatın idxal edilməsi təyin olunmalıdır:




Burada aşağıdakı məlumatın ixrac olunmasını seçə bilərsiniz:

♦ **Internet Options – Bağlantı, təhlükəsizlik və digər parametrlər**

♦ **Cookies – Cookies** faylları (Web-saytlardan gələn müxtəlif məlumatları saxlamaq üçün istifadə olunur).
♦ **Browsing History – Ziyarət tarixi** (müəyyən müddət ərzində baxdığınız səhifələrin siyahısı).
♦ **Saved Form History – Göndərdiyiniz məlumatların tarixi (AutoComplete məlumatı)**
♦ **Saved Passwords – Saxlanılmış parollar**
♦ **Favirotes – Seçilən səhifələr qovluğu**
**Next** düyməsi ilə əməliyyatı işə salın. Nəticədə pəncərədə müvəffəqiyyətlə idxal olunmuş obyektlərin siyahısı çıxacaq.




## Vərəqlər (Tabs) funksiyası

"Mozilla Firefox" proqramından istifadədə ən rahat funksiyalardan biridir. İstifadəçilərin əksəriyyəti (bəlkə də hamısı) eyni zamanda bir neçə saytı ziyarət edir. "İnternet Explorer"dən istifadə etdikdə, bu, proqramın bir neçə nüsxəsinin paralel işləməsi deməkdir (ən azı tapşırıqlar lövhəsində belə göstərilir). "Mozilla Firefox" proqramına eyni proqram pəncərəsində bir neçə səhifəyə baxmağa imkan verən **Vərəqlər (Tabs)** funksiyası əlavə olunub.

"Mozilla Firefox" Səyyahını işə salaraq **Ctrl-T** düymələrini basın. Nəticədə eyni səyyah pəncərəsində növbəti vərəq yaranacaq.






Bir vərəqdən digərinə keçmək üçün şəkildə gördüyünüz vərəq başlıqlarından, klaviatura vasitəsilə isə **Alt-Tab**, yeni vərəq lazım olduqda **Ctrl-T** düymələrindən yenidən istifadə edə bilərsiniz. Səyyah proqramı işə düşdükdə bir neçə vərəqdə bir çox saytı avtomatik yükləmək mümkündür. **Home page** bütün Səyyahlarda mövcuddur və proqramı ilk işə saldıqda yüklənəcək saytın ünvanını təyin etməyə imkan verir, "FireFox"da isə **Home page** bir neçə vərəqdə eyni zamanda təyin oluna bilər. Bunun üçün **Tools** menyusundan **Options...** seçib **General** hissəsinə müraciət edin:



Gördüyünüz **Home Page** hissəsində bir neçə ünvan daxil etmək üçün "|" ("boru") işarəsi ilə ünvanları ayıra bilərsiniz.

Bundan əlavə, gördüyünüz kimi, bir sıra variantlardan da istifadə edə bilərsiniz. **Səyyahın** boş səhifə ilə işə düşməsini istəsəniz, **Use Blank Page** düyməsindən istifadə edin. Hazırda ziyarət etdiyiniz saytı başlanğıc səhifə kimi qurmaq üçün **Use Current Page** düyməsindən faydalana bilərsiniz. **Seçilmişlər (Bookmarks)** siyahısından hər hansı bir ünvanı başlanğıc səhifə kimi qeyd etmək üçün **Use Bookmarks** düyməsindən istifadə edin.

Vərəqlərin idarə olunması üçün bir sıra imkanlar da mövcuddur. Hər hansı bir vərəq adının üzərində sağ düyməni basdıqda şəkildə gördüyünüz siyahını əldə edəcəksiniz.




Burada aşağıdakı əməliyyatları yerinə yetirə bilərsiniz:

**New Tab** – Yeni vərəq yaradır;

**Reload Tab** – Cari vərəqin məzmununu yeniləyir (klaviaturada **Ctrl-R**-dən istifadə edə biləsiniz);

**Reload All Tabs** – Bütün vərəqlərin məzmununu yeniləyir;

**Close Other Tabs** – Cari vərəqdən başqa bütün vərəqləri bağlayır;

**Close Tab** – Cari vərəqi bağlayır (klaviaturada **Ctrl-W**-dan istifadə edə biləsiniz).

## Əsas imkanlar, əmrlər və "hoppanan" pəncərələr

"FireFox" proqramından tam faydalanmaq üçün onun daxilində olan bütün imkanları və mövcud əmrləri daha yaxından öyrənmək məsləhətdir. Bu bölmədə bir sıra faydalı funksiya haqqında söhbət açılacaq.






### Maus

"Firefox" daxilindəki əksər obyektlər mausun sağ düyməsi ilə yaradılan menyu daxilindəki sətirlər vasitəsilə idarə oluna bilər.

### Əmrlər

Klaviatura vasitəsilə bir sıra əməliyyatların yerinə yetirilməsini sürətləndirə bilərsiniz. Ən çox istifadə olunan klaviatura kombinasiyaları aşağıdakı kimidir:

- Ctrl+N – Yeni proqram pəncərəsini işə salır.
- Ctrl+T – Proqram daxilində yeni vərəq açır.
- Ctr+O – Fayl açmaq üçün istifadə olunan pəncərəni aktivləşdirir.
- Ctrl+W – Cari vərəqi bağlamaq üçün istifadə olunur.
- Ctrl+Shift+W – Cari pəncərəni bağlayır.
- Ctrl+R – Pəncərənin məzmununu yeniləyir.

Bu siyahıda yalnız əsas əməliyyatlar sadalanıb. Digər əməliyyatların klaviatura ekvivalentlərini görmək üçün menyulardakı müvafiq yazılara nəzər yetirin.

### "Hoppanan" pəncərələr

Saytlarda gəzişərkən istəyiniz və xəbəriniz olmadan qəflətən yaranan və qarşı planda açılan pəncərələr (Pop Ups) bəzən istifadəçiyə müəyyən narahatlıq yarada bilər, bəzən isə lap zəhləsini tökməyə qadirdir.

“FireFox” proqramında bu cür pəncərələrlə mübarizə imkanı mövcuddur.

**Tools** menyusundan **Options...** seçdikdən sonra açılan pəncərədə **Web Features** hissəsini seçin.




“Hoppanan” pəncərələri tamamilə bloklamaq istəsəniz, **Block Popup Windows** qutusunu aktivləşdirin.

Bundan sonra “hoppanan” pəncərələrdən istifadə edərək hər hansı bir saytda gəzişdikdə, siz bu cür pəncərələrin bloklandığını xəbər verən məlumat pəncərəsini görəcəksiniz. Hər bir pəncərə bloklandıqda səyyahın aşağı sağ hissəsində müvafiq xəbərdarlıq işarəsi yaranacaq:



Bir sıra saytların normal fəaliyyəti üçün “hoppanan” pəncərələrin istifadəsi mütləqdir. Hər hansı bir sayt üçün bu qadağanı aradan qaldırmaqdan ötrü pəncərənin aşağı sağ küncündəki işarənin üzərində düyməni basaraq əldə etdiyiniz siyahıdan **Allow popups...** sətrindən istifadə edə bilərsiniz.



## “Mozilla Firefox” genişlənmələri

“Mozilla Firefox” səyyahı multifunksional və sadə genişləndirilə bilən bir proqramdır. “FireFox” üçün **Genişlənmələr (Extensions)** adlanan xüsusi modullar mövcuddur. Bu bənddə “Firefox”a yeni genişlənmələrin qoşulması izah ediləcək. Nümunə üçün **GoogleBar** adlanan faydalı genişlənmələrdən istifadə edəcəyik. Genişlənmənin özü haqqında bir qədər sonra məlumat veriləcək.

Genişlənmələrin quraşdırılması üçün üsullardan biri **Tools** menyusunda gördüyünüz **Extensions** sətrini seçin:




Bu pəncərənin aşağı sağ küncündə olan **Get More Extensions** keçidi ilə *mozilla.org* saytının genişlənmələri kataloquna baxa bilərsiniz. Buradan **GoogleBar** adlı genişlənməni axtarıb tapaq.



Müvafiq genişlənməni tapıb onun səhifəsinə keçdikdən sonra **Install Now** keçidi vasitəsilə qurulmasına başlaya bilərsiniz.




Qurulmanı seçdikdən sonra faylın elektron imzası/sertifikatı haqqında xəbərdarlıq və s. məlumat verən pəncərə çıxa bilər.






Burada **Install Now** seçib proqramı quraşdırmağa başlaya bilərsiniz. Bunu etdikdən sonra **Extensions** hissəsində yeni sətir əmələ gəlməlidir. Bu, yeni genişlənmənin müvəffəqiyyətlə qurulmasını bildirəcək:




"FireFox"u növbəti dəfə işə saldıqda **GoogleBar** genişlənməsi dərhal işə düşəcək və ayrıca alətlər lövhəsi kimi pəncərədə yerini alacaq.



## Elektron poçt və ya E-mail



İnternet istifadəçilərinin ən çox yararlandıqları İnternet xidmətlərindən biri də **E-poçtdur**. Bu xidmət növündən istifadə etməklə ani bir zamanda bütün dünya ilə məktublaşmaq olar. Yəni ani bir vaxtda siz minlərlə məktub yola sala bilərsiniz. Eyni zamanda adi poçtda olduğu kimi, göndərdiyiniz məktubun alınması haqqında da məlumat əldə edə bilərsiniz. İnsanları telefon zəngi ilə narahat etmədən, bahalı mobil telefon haqqından istifadə etmədən, kağız, qələm və poçt pulu ödəmədən məktublaşmanın ən effektli və rahat yolu E-poçtdur.

İnternetə daxil olmazdan öncə ən vacib şey E-poçt ünvanınızı öyrənməyinizdir. Bu ünvanı isə sizə İnternetə bağlayan provayder verməlidir.

Əgər siz artıq İnternetə qoşulmuşsunuzsa, pulsuz elektron poçt xidmətlərindən istifadə etməklə özünüzə elektron ünvan götürə bilərsiniz. Azərbaycan İnternetində azərbaycandilli resurslar olan www.box.az , http://www.azerimail.net/, Qlobal Şəbəkədə isə www.google.com , www.hotmail.com, www.yahoo.com və s. pulsuz poçt xidmətləri fəaliyyət göstərir.

Adətən elektron poçt provayderləri müəyyən ölçüdən böyük faylları qəbul etmir və göndərmirlər. Bu həcm çox halda bir neçə meqabayt olur. Lakin son dövrlərdə bu sahədə rəqabət hədsiz dərəcədə güclənib. Google-nin (www.google.com) "GMail" elektron poçt xidməti 2 Gb pulsuz disk sahəsi təklif edir. Güclü antispam sistemə malik xidmətdir.

*Yahoo* da öz pulsuz disk sahəsini 1 Gb-a çatdırıb. Göndərilən faylın həcminə qoyulan məhdudiyyət isə 10 Mb-dır.

*Hotmail*də pulsuz disk sahəsi artıq 100 Mb, göndərilən fayla qoyulan məhdudiyyət 2 Mb-dır.

## Elektron poçt proqramı ilə işləmək qaydaları

E-poçt (E-mail) termini bir istifadəçidən digərinə göndərilən mesajları ifadə edir. E-poçtdan istifadə etməyə başlayan hər kəs ona öyrəşəndən, səmərəsini hiss edəndən sonra indiyədək onsuz necə yaşadığı barədə düşünməli olur.

Elektron ünvanın forması onun sahibinin yerləşdiyi coğrafi məkan haqqında müəyyən təsəvvür yaradır. Ünvanın strukturunu öyrənmək onun həmişə düzgün yazılmasında sizə yardımçı olacaq.



Elektron ünvan adətən aşağıdakı formada olur:

"sizinadınız"@altdomen.birincisəviyyəlidomen, (multimedia@cit.az)

"sizin adınız"bölməsi sizin Poçt serverində qeydiyyatdan keçmiş istifadəçi adınızdır.

Bu, sizin əsl adınız olmaya da bilər. Adətən bu, ad və soyaddakı hərflərin kombinasiyasından ibarət olur, yaxud da ləqəb götürülür.

@ işarəsi "eta" adlanır. Bəzi klassik internetçilər buna "sobaçka" da deyirlər. Əslində bu simvolun mənşəyi haqqında dəqiq bir bilgi yoxdur. İlk dəfə olaraq 1971-ci ildə elektron poçt göndərən Rey Tomlinson öz istifadəçi adını kompüterin adından (domen adından) ayırmaq üçün bu işarədən istifadə edib. Həmin dövrdən də bu quyruqlu "a" simvolu elektron poçtun əsas işarəsi kimi işlənməyə başlayıb.

Alt domen – ünvan sahibinin poçtunun yerləşdiyi kompüterin adıdır. Alt domen, həmçinin, ünvan sahibinin işlədiyi qurumun adını da göstərə bilər.

Bir qayda olaraq məktubu göndərəcəyiniz ünvanın dəqiq yazıldığına xüsusi diqqət yetirlməlisiniz. Yazdığınız məktubu, lazım gələrsə, eyni anda bir neçə, hətta yüzlərlə ünvana göndərə bilərsiniz. Bu insanların elektron ünvanlarından ibarət siyahılar (mail listlər) qabaqcadan hazırlanır. Əgər sizə bir mail listdən məktub gəlibsə (demək, bu məktubu sizdən başqaları da alıb) və siz gələn mesaja cavab vermək istəyirsinizsə diqqətli olun! Mesajınızı məktubu alan başqa insanlara deyil, məhz məktubu göndərənə ünvanlayın. Kiminsə göndərdiyi məktubu onun icazəsi olmadan başqa birisinə göndərmək İnternetdə normal davranış hesab olunmur.

Qeyd etdik ki, kiməsə və harasa məktub göndərmək üçün ünvanı bilmək vacibdir.

E-poçt mesajı başlıq və əsas mətn olaraq iki hissədən ibarətdir.

Başlıq aşağıdakı bölmələrdən ibarətdir:

- göndərənin ünvanı **(From** – kimdən, haradan)
- alanın ünvanı **(To** – kimə, haraya)
- göndərilmə tarixi
- mesajın adı **(Subject)**

Məktubu alan hər kəs mausu məktubun üzərinə gətirib sağ düyməni basaraq **Properties (Özəlliklər)** bəndini seçməklə aldığı məktubun bütün parametrlərini öyrənə bilər.

Əsas mətn hissəsində adətən çox qısa bir mesaj yazılır.

E-poçt almaq və göndərmək üçün bir çox proqramlar vardır.

## OUTLOOK EXPRESS

**MICROSOFT OUTLOOK EXPRESS** proqramı elektron poçt xidmətinin təşkili sahəsində ən populyar proqramlardan biridir. “Windovs XP”-nin standart paketinə daxildir.

Bu proqramdan istifadə etmək üçün öncə elektron ünvanlarınızı burada qeydiyyatdan keçirməlisiniz. Bunun üçün **Tools (Alətlər)** menyusunun **Accounts (Uçot)** bəndini seçmək, sonra isə **Add (Əlavə et)** düyməsini basıb **Mail (Poçt)** bəndini seçmək lazımdır. Ekrana çıxan pəncərələrdə əvvəlcə adınızı yazmaq, **Next (Növbəti)** düyməsini basdıqdan sonra e-mail ünvanınızı daxil etmək təklif olunur.

Burada qeyd etdiyiniz ad gələcəkdə sizin məktubunuzun kim tərəfindən göndərildiyini müəyyənləşdirəcək

Sonra dialoq pəncərəsində uyğun poçt protokollarını (Gələn və göndərilən poçtların serverlərinin ünvanını) daxil edirik. Bunları Provayder sizə ünvan verərkən özü təqdim edir. **Next** düyməsi vasitəsilə proses davam etdirilir. Sonra poçt qutusuna daxil olarkən tələb olunan loqin və pasvord qeyd olunur. Əgər siz parolunuzu hər dəfə yazmaq istəmirsinizsə, **Remember Password (Parolu yadda saxla)** sahəsinə işarə qoymalısınız. Hər şeyin dəqiqliyinə əminsinizsə, **Finish** düyməsini basmaq olar. Artıq bundan sonra məktubu göndərə və qəbul edə bilərsiniz.




Yeni məktub yazmaq üçün **New Mail** düyməsini basmaq və ekrana çıxan pəncərənin müvafiq sahələrini doldurmaq lazımdır. **To (Kimə)** sahəsində kimə göndərdiyinizi, **Subject (Mövzu)** sahəsində isə məktubun adını (mövzusunu) qeyd edə bilərsiniz. Bundan sonra əsas mətni yığmaq və məktubu göndərmək üçün **Send (Göndər)** düyməsini basmaq lazımdır.

Əgər məktublarınızın formasını dəyişmək və ya blank formasından istifadə etmək istəyirsinizsə, **Greate Mail** düyməsini basaraq istədiyiniz formanı seçə bilərsiniz. Əgər özünüz hansısa spesifik bir forma yaratmaq istəyirsinizsə, **Select Stationery** bəndini seçmək, sonra isə **Create New** düyməsini basmaq lazımdır.











"Outlook Express"də yazdığınız yeni məktubların və cavab verdiyiniz məktubların avtomatik olaraq imzalanmasını, yəni məktublarınızın sonunda haqqınızda məlumatların siz yazmadan vermək mümkündür.

Bunun üçün **Tools** menyusundan **Options** bəndini seçmək və ekrana çıxan pəncərədə **Signatures** səhifəsini açmaq lazımdır. Burada isə **New** düyməsini seçməklə **Text** bölməsinə məktublarınızı imzalamaq üçün istifadə edəcəyiniz məlumatları daxil edə bilərsiniz. Bu pəncərədəki **Fayl** bəndini seçməklə və **Browse** düyməsi vasitəsilə imza məqsədilə istifadə etmək istədiyiniz və qabaqcadan hazırladığınız fayldan da yararlana bilərsiniz.

Adi real məktublaşma zamanı adətən zərfin içərisinə digər bir məktubun və ya açıqcanın qoyulması mümkündür. Elektron məktublaşmada da bu imkan nəzərdə tutulub. Bunun üçün məktubu yazıb qurtardıqdan sonra **Insert** menyusundan **Fayl attachment** bəndini seçirsiniz. Ekrana çıxan pəncərədə məktuba əlavə etmək istədiyiniz faylı seçib **Attach** düyməsini basırsınız. Bu zaman göndərmək istədiyiniz məktubun **Attach** bəndinin qarşısında əlavə etmək istədiyiniz faylın adını və onun həcmini görəcəksiniz. Deməli, məktub və ona əlavə etmək istədiyiniz fayl göndərilmək üçün hazırdır. **Send** düyməsini basıb məktubu yola saldıqdan sonra göndərilmiş məktublar qovluğunda həmin məktubun adının qarşısında **Attach** işarəsi olacaq. Həcmi böyük olan faylları müxtəlif arxiv proqramlarının (WinZip, WinRar) köməyi ilə sıxdıqdan sonra göndərmək məqsədəuyğundur.


**"Attach"**




Sizə gələn məktubda **Attach** işarəsi varsa, deməli, məktuba əlavə fayl (və ya fayllar) da qoşulub. Əlavə olunmuş faylı oxumaq üçün mausu onun üzərinə gətirərək faylı aktivləşdirmək və ekrana çıxan pəncərədə **Open** düyməsini basmaq lazımdır. Əlavə olunmuş faylı kompüterinizə köçürmək üçün mausla **Attach** işarəsini aktivləşdirdikdən sonra **Save attachments** menyusunu basmaq, **Browse** düyməsi vasitəsilə faylı hara köçürəcəyinizi müəyyən etmək, mausla əlavə olunmuş faylı (və ya faylları) seçmək və **Save** düyməsini basmaq lazımdır.




Bəzən eyni məktubu bir neçə nəfərə göndərmək lazım gəlir. Bu halda **Cc** bölməsinə müvafiq ünvanlar aralarında vergül qoymaqla qeyd edilir. Bu məktubu alanlar məktubun başqaları tərəfindən də alındığını bilirlər. Məktubun birinci alıcısının o birilərdən xəbərinin olmaması vacibdirsə, onda onların ünvanları **Bcc** bölməsinə yazılmalıdır.

Büdcənizə qənaət üçün məktubunuzu İnternetə daxil olmadan New mail vasitəsilə yazaraq və **Save** menyusundan istifadə edərək **Drafts (Qaralama)** qovluğunda saxlaya bilərsiniz. İnternetə daxil olduğunuz zaman **Drafts** qovluğuna daxil olaraq həmin məktubu istənilən an göndərə bilərsiniz.

Gələn məktuba cavab vermək üçün **Reply (Cavab vermək)** düyməsindən istifadə etmək olar. Bu zaman gələn məktubun **Subject** hissəsinin qarşısında **Re:** sözü yazılacaq.

Əgər sizə gələn məktub eyni zamanda digər şəxslərə də ünvanlanıbsa **Reply all (Hamıya cavab vermək)** düyməsini basbaqla göndərəcəyiniz cavab məktubunu sizə gələn məktubda qeyd olunan bütün ünvanlara göndərmək olar. Bu zaman göndərəcəyiniz məktubun mətn hissəsində rəngli şəkildə qeyd olunan ünvanları silə bilərsiniz. Əgər bu halda yalnız **Re** düyməsindən istifadə edilsəydi, onda cavab məktubunuz yalnız sizə məktub göndərənə ünvanlanacaqdı.

Gələn məktubu yeni ünvana göndərmək üçün **Forward** düyməsindən istifadə etmək lazımdır.

Sizə gələn məktubu hələ oxumağa imkan tapmamısınızsa onda onun "Outlook Express"də adı və digər parametrləri qalın şriftlə görsənəcək.




"Outlook Express" proqramı hər 30 dəqiqədən bir poçt qutusunu avtomatik yoxlayır və bu haqda səs salaraq xəbərdar edir. **Tools (Alətlər)** menyusunun **Options** bəndini seçərək **General** pəncərəsindəki parametrləri dəyişməklə poçtun avtomatik yoxlanılması müddətini və səs effektini dəyişmək olar. Əgər özünüz hər an poçtunuzu yoxlamaq istəyirsinizsə, **Send and receive (Göndər və qəbul et)** düyməsindən istifadə edə bilərsiniz.

"Outlook Express" proqramının 5 əsas qovluğu var: **Inbox** – Gələn məktublar qutusu, **Outbox** – Göndəriləcək məktublar qutusu, **Send Items** – Göndərilmiş məktublar qutusu, **Deleted items** – Silinmiş məktublar qutusu, **Drafts** – Qaralamalar qutusu.

Yazdığınız məktublar göndərilənədək **Drafts** qovluğunda qalır. Silinmiş məktublar **(Deleted items)** qovluğundakı məktublardan hər zaman yenidən istifadə edə bilərsiniz. Lakin bu qovluqdakı məktubları bir daha sildikdən sonda onlardan istifadə mümkünsüzdür.

Arzunuza uyğun olaraq yeni adlar altında qovluqlar yaratmaq mümkündür. Bunun üçün "Outlook Express"in sol yuxarı küncündəki **Folders (Qovluqlar)** üzərinə mausu gətirərək sol düyməni basaraq **New folder** bəndini seçmək lazımdır. Ekrana çıxan pəncərənin yuxarısında yaratmaq istədiyiniz qovluğun adını yazmaq, aşağıda isə qovluğun yaradılacağı yeri mausla seçmək etmək lazımdır.




E-poçt proqramında tanışlarınızın və məktublaşdığınız şəxslərin ünvanlarından ibarət ünvanlar kitabı "düzəltmək" mümkündür. Bunun üçün **Addresses book (Ünvanlar kitabı)** menyusundan **New** düyməsini basmaq, sizə məlum olan şəxslərin məlumatlarını müvafiq bölmələrə qeyd etmək lazımdır. Bu siyahıdan kiməsə məktub göndərilən zaman onun ünvanını yenidən yazmağa ehtiyac yoxdur. **To** bəndinin (həmçinin **Cc** və **Bcc** bəndlərinin) qarşısındakı düyməni basmaqla yuxarıda söhbət açılan ünvan kitabını, oradan isə lazım olan ünvanı mausla qeyd etmək kifayətdir. **Ctrl** düyməsini basıb saxlamaqla bir neçə ünvanı birdəfəyə seçmək mümkündür.



**Addresses book** pəncərəsində **New** menyusundan **New group** bəndini seçməklə maraqlarınıza uyğun olan ünvanlar üzrə müxtəlif qruplar hazırlamaq olar. Bunun üçün ekrana çıxan pəncərədə qrupun adını daxil etmək, Select Members düyməsi vasitəsilə bu qrupa aid edəcəyiniz ünvanları seçmək və siyahıya daxil etmək lazımdır. Həmin ünvanlarla məktublaşmaq üçün sadəcə bu qrupun adını məktubun **To** (həmçinin **Cc** və **Bcc**) hissəsinin qarşısına yazmaq kifayətdir. Məktub qrupun daxilində olan bütün ünvanlara gedəcək.

Əgər göndərdiyiniz məktub ünvanına yetişməyibsə, bu haqda sizə məktub daxil olur. Bu mesajın içərisində geri qayıtmanın səbəbləri qeyd edilir. Belə hallarda adətən ünvan səhv yazılmış olur.

Bir sıra serverlər **Mailing list (Məktublaşma siyahısı)** adlı xidmət təklif edirlər. Server sahibləri malik olduqları informasiyanı buna maraqlı insanlara çatdırmaq üçün öz səhifələrində avtomatlaşdırılmış informasiya sistemi qururlar. Səhifədə müvafiq yerdə öz elektron poçtunuzu qeyd etdikdən sonra, bu informasiya sistemi **Məktublaşma siyahısı**na daxil olan bütün istifadəçilərə əvvəlcədən qeyd olunmuş vaxtlarda avtomatik məktub yollayır. Bu cür siyahılara daxil olan istifadəçilərin öz aralarında informasiya mübadiləsinə imkan yaradan informasiya sistemləri də fəaliyyət göstərir. **Mailing list (Məktublaşma siyahısı)** sisteminin elektron ünvanına məktub yollasanız, məktubunuz bu siyahıya daxil olan bütün istifadəçilərə göndəriləcək. Əgər poçtunuza daxil olan aramsız məktublar sizi artıq bezdirirsə, o zaman **Mailing list**in səhifəsinə daxil olun və siyahıdan çıxmaq prosedurunu yerinə yetirin.

Daxil olan elektron məktublarla bir qədər ehtiyatlı davranın. Mətn redaktorları ilə yığılmış fayla müxtəlif proqramlar da əlavə etmək mümkün olduğundan bu cür fayllarda viruslar da olur. Əgər kompüterinizə normal antivirus yükləməmisinizsə, mausu həmin məktubun üzərinə gətirdiyiniz an (hətta məktub açılmadığı halda) virus kompüterinizə keçir. Əgər kompüterinizdə tez-tez yeniləşdirdiyiniz antivirus proqramı varsa, o sizə gələn və kompüterinizdən

çıxan bütün məktubların "viruslu" olub-olmadığını sizdən xəbərsiz yoxlayır. Son dövrlərdə meydana çıxan kompüter viruslarını hətta ən güclü antivirusların da "zərərsizləşdirə" bilmədiyi hallar olur. Belə hal olduqda mütəxəssisə müraciət etmək tövsiyə olunur. Kompüterinizdə virus olmasından şübhələnirsinizsə və ya dostlarınızdan kimsə sizdən viruslu məktublar gəldiyini söyləyirsə (siz məktub göndərməsəniz də) əmin ola bilərsiniz ki, kompüterinizdə "Troyan" adlanan viruslardan biri özünə rahat yer tapıb. Və o, İnternetə daxil olduğunuz andan proqramınızın yaddaşında olan bütün ünvanlara sizdən xəbərsiz məktublar yola salmaqla məşğuldur.

Elektron məktubu yola salarkən onun çatmasını təsdiqləyən məlumatın sizə göndərilməsini də təmin edə bilərsiniz. Məktub çatan kimi sizin poçtunuza bu haqda bildiriş daxil olur.

Uzaq səfərlərdə olarkən bəzən yerli provayderlərin, yerli poçt xidmətlərinin serverlərindən istifadə etmək problemi yaranır. Bununla belə, dünyanın harasında olmağınızdan asılı olmayaraq, poçtunuzu yoxlamağa imkan verən proqramlar mövcuddur. www.mailstart.com və ya www.mail2web.com saytlarına daxil olaraq şifrənizi və E-poçt ünvanınızı daxil etməklə poçtunuzdan asanlıqla istifadə edə bilərsiniz.

İnternet vasitəsilə göndərdiyiniz faylların qarşı tərəfdə başqasının əlinə keçmədən çatmasına əmin olmaq istəyirsinizsə, bir çox şifrələmə proqramlarından istifadə edə bilərsiniz. Bu proqramlar vasitəsilə məktublarınız müxtəlif alqoritmlərlə şifrələnərək göndərilir. Bəzi kəşfiyyat proqramları isə informasiyanı adi bir şəkil faylının içində gizlədib göndərməyə də imkan verir.

## Download (Yükləmə)

İnternetdə fayl formasında xeyli sayda sənədlər, audio və video-materiallar, proqramlar var ki, onları hər an öz kompüterinizə **download** (yükləyə) edə bilərsiniz. Download termini İnternetdə çoxişlənən sözlərdəndir.

**Lüğət:** *Müxtəlif formatda olan faylların İnternet üzərindən sizin kompüterinizə yüklənməsi download adlanır. Öz kompüterinizdəki faylların İnternet üzərindən digər bir kompüterə yüklənməsi isə upload adlanır*






Əgər kompüterinizə yükləmək istədiyiniz faylın həcmi kiçikdirsə, onu elə işlətdiyiniz brauzerin standart funksiyası vasitəsilə həyata keçirə bilərsiniz. Bunun üçün mausu yükləmək istədiyiniz faylın üzərinə gətirərək sağ düyməni basmaq və **Save target as** bəndini seçmək lazımdır. Qarşınıza çıxan pəncərədə seçdiyiniz faylın hansı qovluğa yüklənəcəyinizi qeyd edərək **Save** düyməsini basmaq lazımdır. Bundan sonra **Download complete** pəncərəsində İnternet bağlantınızın sürətindən asılı olaraq seçdiyiniz faylın kompüterinizə yüklənməyini izləyə bilərsiniz. Proses başa çatdıqdan sonra bu pəncərədə olan **Open** və ya **Open Folder (Qovluğu aç)** menyularından istifadə edərək yüklədiyiniz faylı birbaşa aktivləşdirə və ya faylın olduğu qovluğu aça bilərsiniz.

Əgər kompüterinizə yükləmək istədiyiniz faylın həcmi böyükdürsə, onda bu üsulla yükləmə ciddi problemlər yaradacaq. Yükləmə prosesində telefon xətlərinin nasazlığı ucbatından İnternet bağlantısı kəsilsə, bütün əməyiniz hədər gedəcək və yükləmə prosesini yenidən başlamalı olacaqsınız. Həcmi böyük faylları İnternetdən kompüterinizə yükləmək üçün xeyli sayda rahat proqramlar mövcuddur. **FlashGet, GetRight** və s. bu tip sadə və işləmək üçün rahat olan proqramlardan istifadə edərək istənilən faylı heç bir əziyyət çəkmədən İnternetdən kompüterinizə yükləyə bilərsiniz. Bu tip proqramlardan hansınısa kompüterinizə yüklədikdən sonra mausu yükləmək istədiyiniz faylın üzərinə gətirib sağ düyməni bassanız, menyu pəncərəsində yüklədiyiniz proqramın adını görəcəksiniz. Onu mausun sol düyməsi ilə seçməklə həmin proqram vasitəsilə faylı yükləməyə başlaya bilərsiniz. Özünüz qovluq müəyyən etməmisinizsə, seçdiyiniz fayl **C:/Downloads** qovluğuna yüklənəcək.

Yükləmə prosesində İnternet bağlantınız kəsilərsə, narahat olmağa dəyməz, bağlantı bərpa olunan kimi proqram faylı başlanğıc vəziyyətdən deyil, məhz kəsildiyi (qırıldığı) yerdən yükləməyə başlayır. Bu proqramlar vasitəsilə eyni zamanda bir neçə faylı yükləyə bilərsiniz.

## FTP-serverlər

İnternetdə külli miqdarda fayl mövcuddur. Webdə yerləşdirilməsi əhəmiyyət kəsb etməyən bu cür nəhəng informasiya resursları arxiv rolunu oynayan kompüterlərdə saxlanılır ki, bunlara da FTP-serverlər deyilir. Bu cür resurslara baxmaq, yerini müəyyənləşdirmək üçün tələb olunan proqramlarla yuxarıda tanış olduq. Bu tip proqramlar həmin faylların kompüterinizdən digər bir kompüterə köçürülməsini icra edə bilmir. İnternet üzərindən faylların bir yerdən başqa yerə köçürülməsini həyata keçirən xüsusi protokol (qayda) mövcuddur ki, bu da qısaca FTP adlanır.

**Lüğət:** *FTP (Fayl Transfer Protokol) – faylların köçürülməsi (ötürülməsi) protokolu deməkdir.*

Yuxarıda qeyd olunan əksər FTP-serverlərə giriş sərbəstdir. Bir sıra FTP-serverlər sistemə daxil olmaq üçün parol və ad tələb edir. FTP-server vasitəsilə fayl mübadiləsi üçün xüsusi proqramlar var ki, onlar **FTP-kliyent** adlanır. Əgər İnternetdə çoxlu sayda və həcmdə faylların qəbul edilməsi və köçürülməsi ilə məşğul olacaqsınızsa, onda bu cür proqramlardan birini öz kompüterinizə yükləməlisiniz. Ən geniş yayılan FTP proqramlarından biri **Cute FTP**-dir. Bu proqramın son versiyaları daha mükəmməldir. **Cute FTP** (www.globalscape.com) ilə öz serverinizə qoşularkən kompüterinizdə olan faylla serverinizdəki köhnə fayl proqram tərəfindən avtomatik yoxlanılır və dəyişiklik varsa, dərhal onun yenilənməsi ilə bağlı sizə sorğu verir.

Tutaq ki, sizin web-saytınız var. Siz kənar yerdəsiniz. Amma təcili olaraq yeni bir məlumatı ora daxil etməlisiniz. **Cute FTP** yoxdur. Nə etməli?

Bunun üçün İnternetdə FTP xidməti göstərən səhifələri axtarmaq lazımdır. Bu proqramlardan ən sadəsi və səmərəlisi www.web2ftp.com saytıdır. Onun vasitəsilə hətta böyük həcmli fayllarınızı qısa bir anda serverinizə yükləyə bilərsiniz.

## Web-saytların yaradılması və oxunuşunda şrift problemi

Hazırda Azərbaycan dilində olan resurslar İnternetdə bir neçə şrift standartı ilə yerləşdirilib. 2001-ci ildə Azərbaycanda hökumət tərəfindən yeni standart şriftlərin qəbul edilməsinə baxmayaraq, hələ də köhnə şrift standartları ilə yazılmış (Arial AzLat, A2



ArialAzLat, AzTimeLat və s.) materiallara rast gəlmək mümkündür. Əgər köhnə şriftlə yazılmış mətnləri normal oxumaq istəyirsinizsə, bu cür şriftləri qabaqcadan kompüterinizə daxil etməlisiniz. Adətən bu cür saytlarda həmin şriftlərin **download** edilməsi üçün bildiriş qoyulur.

Ərazisində nə vaxtsa müharibənin labüd olacağı bir ölkə üçün informasiya daşıyıcısı olan balaca bir hərfin də hansısa anda önəmli rol oynayacağı şəksizdir.

Xüsusən də ölkəmiz üçün beynəlxalq aləmə inteqrasiyanın həyati əhəmiyyət kəsb etdiyi, dünya informasiya fəzasında yeni informasiya texnologiyalarından istifadə edilməklə informasiya müharibələri aparıldığı bir şəraitdə bu məsələ bizim üçün daha aktual əhəmiyyət kəsb edir. Bu kontekstdən yanaşsaq, Azərbaycan əlifbası hərflərinin vahid kompüter standartının mövcud olduğu bir vaxtda köhnə şriftlərlə İnternetdə informasiya istehsalı ilə məşğul olmaq informasiyaya qarşı hörmətsizlik yox, məhz gələcək savaşa qarşı ən azı biganəlikdir.

Köhnə əməliyyat sistemli (Windows 95/98) kompüterlərdə yeni standart şriftlərdən istifadə etməklə İnternet resursları hazırlamaq istəyənlər isə www.unicode.az ünvanında yerləşən pulsuz köməkçi proqramlardan istifadə edə bilərlər. İstifadə qaydası haqqında bilgi saytda və proqram təminatında qeyd edilib.

Sayt yaratmaq üçün müxtəlif HTML redaktorlarından istifadə olunur. Bu redaktorlarla işləmək olduqca sadədir, heç bir HTML kodu, mürəkkəb komandalar yazmağa ehtiyac olmur.

Lakin Azərbaycan dili informasiya texnologiyaları sahəsi üçün bir qədər spesifik olduğundan, heç də bütün HTML redaktorlar **Unicode** standartlarını dəstəkləmir. Əsasən saytı standart Azərbaycan şriftlərini dəstəkləyən iki redaktorla yarada bilərsiniz: **Front Page** və **Macromedia DreamWeaver.**

Eyni qayda ilə köhnə əməliyyat sistemlərindən istifadə edənlər yeni standart Azərbaycan şriftlərilə hazırlanan saytları normal oxumaq üçün həmin şriftləri (**Palatino Linotipe, Tahoma** və s.) öz kompüterlərinə daxil etməlidirlər.

Şriftləri qarmaqarışıq çıxan saytların normal oxunması üçün "Internet Explorer" proqramının **View** menyusundakı **Encoding** bölməsindən, şriftlərin ölçüsünü dəyişmək üçün isə **Text size** bölməsindən istifadə etmək tövsiyə olunur.

## İnternetdə informasiya axtarışı

İnternetdə bəlkə də ən çox çətinlik yaradan problemlərdən biri nəyisə axtarıb tapmaqdır. Ancaq İnternetdə də adi kitabxanalarda kitabların axtarılıb tapılmasına oxşar bir sistem var. Bu axtarış sistemləri müxtəlif xüsusiyyətlərə malikdir.

Ən populyar axtarış serverləri www.google.com, www.yahoo.com, www.rambler.ru, www.altavista.com, www.yandex.ru, milli axtarış server-kataloqlarından isə www.search.az, www.saznet.org, www.kataloq.net, http://www.azeroo.com və s. göstərmək olar.

İnternetdə informasiya axtarışını həyata keçirən axtarış serverləri axtarma mexanizmlərinin strukturuna görə bir neçə cür olur:




Axtarış sistemləri – İnternetdəki dəyişiklikləri izləyən və yeni resursları avtomatik olaraq öz bazasına əlavə edən sistemlər;

Kataloqlar üzrə axtarış sistemləri – konkret mövzular üzrə qovluqlar yaradan və yeni resurlar haqqında məlumatları bu qovluqlara daxil edən axtarış serverləri;

Metaaxtarış – digər bir və ya bir neçə axtarış sisteminin bazasında axtarış aparan sistemlər.

Xarici axtarış maşınlarının əksəri ingiliscə, az bir qismi isə rus dilindədir. Yalnız **Google** Azərbaycan dilinə tərcümə edilib. Bununla belə, bəzi axtarış proqramları Azərbaycan sözlərini axtara bilir.

Azərbaycandilli resursların ən səmərəli əsas axtarış sistemi www.google.az -dır.



## Lazımi informasiyanı İnternetdə necə tapmalı?

Axtarış sistemləri qrupuna daxil olan axtarış serverləri xüsusi proqram vasitəsilə İnternetdə mövcud olan, hətta yeni daxil edilən səhifələr haqqında məlumatları avtomatik öz yaddaşlarına köçürür (məlumat bazası yaradlır). Bu prosesi çox vaxt **indeksləmə** də adlandırırlar.

Sizi maraqlandıran mövzuya dair açar sözü, ifadəni yazıb serverə göndərirsiniz. O isə, öz növbəsində, bu sözlərə uyğun gələn saytların siyahısını sizə təqdim edir. İnternetdə nəsə axtarıb tapmağın ən asan yolu budur.

İnternetdə axtarış aparmağın digər üsulu da axtarış qovluqlarından **(Internet directories)** istifadə etməkdir. Qovluqlarda mövzulara görə ayrılmış şəbəkə resurslarına, əsasən də WWW sənədlərə keçidlər yığılır. Bu keçidlərin yığımı avtomatik olaraq hər bir qovluğun yönəticisi tərəfindən həyata keçirilir. Bu da istifadəçilər üçün rahatlıq yaradır. Belə ki, artıq bütün İnternetdə deyil, konkret mövzuya aid qovluqda aparılan axtarış daha səmərəli olur. İnternet qovluqlarla işləyən axtarış saytları əlavə xidmətlər də göstərirlər: açar sözə görə axtarış, son daxil olunmuş resursların siyahısı, təsadüfi istinadlar siyahısı, yeni daxil olan resurslar haqqında e-mail-ə xəbər göndərmək və s. Bütün bunlar İnternet qovluqlarla işləməyi daha da rahatlaşdırır. Bu üsulla işləyən axtarış saytlarından ən məşhur olan *Yahoo.com*-u, milli resurslardan www.kataloq.net saytını göstərmək olar.




İnternetdə tez-tez axtarış aparanlar üçün Explorer 6-da axtarış aparmaq imkanı da nəzərdə tutulub. **Search (Axtar)** düyməsini basmaqla sol tərəfdə çıxan paneldən axtarış aparmaq üçün istifadə edə bilərsiniz. Ünvan sətirinə açar sözlərin daxil edilməsi zamanı axtarış ilkin vəziyyətdə MSN-də aparılacaq. Başqa axtarış sistemlərinə keçmək üçün bu paneldəki **Customize** düyməsini basmaq kifayətdir. Bu halda əksər axtarış sistemləri-

nin adları qeyq olunan panel qarşınıza çıxacaq. İstədiyiniz axtarış sisteminin adının qarşısında mausla işarə qoyaraq və axtarış sətrinə müvafiq açar sözlərini yazaraq axtarışa başlaya bilərsiniz.

Axtarış səhifələrinin əksəriyyətində **Ətraflı axtarış, Seçimlər** və s. bu kimi təkmilləşdirilmiş axtarış mexanizmləri yaradılıb. Bunlardan səmərəli istifadə axtarışınızın daha uğurlu alınmasına səbəb olar.

Ətraflı axtarış zamanı əsasən resursların hansı dildə olması, açar sözlərin səhifə başlığında, altbaşlıqda, yoxsa bütün səhifədə axtarılması, hansı domen genişlənməli saytlarda axtarmalı (*.com, .org, .az*), əgər şəkil axtarılırsa, onun tipi (*jpeg, bmp, gif*), ölçüləri, rəngli olub-olmadığı göstərilir. Siz istədiyiniz göstəricilər üzrə axtarışı davam etdirə bilərsiniz. Bunun üçün onları qeyd etmək və ya seçim edib **Axtar (Search)** düyməsini basmaq lazımdır.

Müxtəlif axtarış sistemlərində axtarışın nəticələrinin müxtəlif olmasının səbəbi həm onların axtarış alqoritmlərinin müxtəlifliyi, həm də axtarışı həyata keçirmək üsullarının fərqliliyidir. Yuxarıda qeyd olunan axtarış sistemlərində resurslar serverin verilənlər bazasına xüsusi proqramlar tərəfindən avtomatik yığılır, axtarış qovluqları üsulu ilə işləyən sistemlərdə isə bu resursları sistemin yönəticiləri yığır. Bu səbəbdəndir ki, axtarış sistemlərində resurs daha çox olur, ancaq onların arasında "lazımsızların" sayı da həddən artıq çoxdur. Axtarış qovluqları ilə işləyən *Yahoo.com* kimi axtarış sistemlərində isə resurslar sayca az olsa da, keyfiyyətli resurs daha çox olur.

Axtarış sistemləri keçidlərin səmərəliliyinə fikir vermədən onları indeksləyir. Buna görə də bu sistemlər İnternetdəki bütün resursları






tapır. Digər tərəfdən, əgər siz sorğunu düzgün yazmamısınızsa, onda axtarış istədiyiniz uğurlu nəticəni verməyəcək. Axtardığınız resurs haqqında bildiyiniz bilgilərə əsasən İnternet-qovluqlardan istifadə etsəniz, daha səmərəli nəticə əldə edə bilərsiniz.

İnternetdə hər hansı bir informasiyanın axtarışı adətən sorğu yolu ilə müxtəlif üsullardan istifadə edilməklə aparılır. Sorğuların düzgün təşkili axtarışın uğurlu nəticələnməsinə təsir edən əsas amildir. Lakin sorğuların təşkili zamanı da müxtəlif problemlər çıxır. Bu problemlərin bir hissəsi əksər axtarış serverlərində olan ətraflı axtarış imkanı, istifadəçilərlə dialoq rejimində həll olunur.

Müxtəlif axtarış sistemlərinin sorğu qaydası müxtəlifdir. Aşağıdakı cədvəldə axtarış sistemlərinin sorğu dillərinin sintaksisi verilib.

**!** Axtarışla bağlı sorğunu yazarkən ayrı yazılan sözlər arasında *or, and, and not, aralıq (probel)* kimi operatorlardan istifadə edilə bilər. Hansısa sözün sonuna * işarəsi qoyularsa bu o deməkdir ki, axtarış proqramı həmin sözlə başlayan bütün sözləri axtaracaq.

| Operatorlar | Google | Yahoo | Altavista |
|---|---|---|---|
| VƏ | AND, &, (probel) arlıq | AND, &, (probel) arlıq | AND, &, (probel) arlıq |
| VƏ YA | OR, ~, NEAR | OR, \|, NEAR | OR, NEAR |
| VƏ YOX | AND, NOT | AND, NOT | AND, NOT |
| Vacib və qadağan söz önləri | +, - | +, - | +, - |
| Sözlərin qruplaşması | ( ) | ( ) | ( ) |
| İfadənin axtarışı | “ ” | “ ” | “ ” |

Adətən kobud axtarış aparmaq üçün açar sözləri probellə, vergülsüz yazmaq kifayətdir. Bu zaman axtarış hər sözə görə aparılır.

+ işarəsi sənəddə olması vacib olan sözlərin qarşısında qoyulur.

“ ” (dırnaq işarəsi) müəyyən söz birləşmələri və ya ifadələr olan sənədləri tapmaq üçün istifadə edilir.

Məsələn: *“Azərbaycan incəsənəti”* yazdıqda axtarış proqramı yalnız *“Azərbaycan incəsənəti”* söz birləşməsi olan bütün sənədləri tapacaq.

Əgər sorğu *“Azərbaycan incəsənəti”+teatr* formasında yazılsaydı o zaman axtarış proqramı *“Azərbaycan incəsənəti”* sorğusu nəticəsində alınmış resurslar içərisindən yalnız *“teatr”* sözü olanları seçəcək.

Əgər sorğu *"Azərbaycan incəsənəti"+teatr+Hacıbəyov* formasında yazılsa, o zaman yuxarıda tapılmış sənədlər içərisindən yalnız Hacıbəyov soyadı ilə bağlı olanlar seçiləcək.

"-" işarəsi isə əksinə, sənəddə vacib olmayan sözlərin qarşısında istifadə olunur.

Məsələn, tutaq ki, siz Azərbaycan incəsənəti ilə bağlı informasiya axtarırsınız və sizi teatr ümumiyyətlə maraqlandırmır.

Bu halda sorğu *"Azərbaycan incəsənəti"-teatr* formasında yazıla bilər və bu sorğu nəticəsində axtarış proqramı *"Azərbaycan incəsənəti"* sorğusu ilə alınmış resurslar içərisindən yalnız *"teatr"* sözü olmayanları seçəcək.

Əgər nəyisə axtardığınız zaman ümidiniz doğrulmayıbsa, faydalı hesab olunacaq saytlar yoxdursa, o zaman sorğunuza oxşar (sinonim) sözlər də daxil edin.

Bunun üçün (|) işarəsindən (*Yandex, Yahoo* və s. üçün) və ya (~) tilda işarəsindən (**Google** üçün) istifadə edilir.

Məsələn, rusdilli resurslar içərisində *"referatlar"* axtarmaq üçün *"курсовые работы"|сочинения|рефераты* sorğusundan istifadə etmək olar. Bu sorğu nəticəsində daxil edilən sözlərdən heç olmasa birinin olduğu sənədlər tapılacaq.

Əksər axtarış sistemlərində *"Azərbaycan diaspora", "Azərbaycan ANDdiaspora", "Azərbaycan&diaspora", "+Azərbaycan+diaspora"* sorğusu, demək olar ki, ekvivalentdir.

Daha bir misal. Tutaq ki, qarşınızda belə bir problem durur: tərkibində "*Azərbaycan*" sözü və ya "*diaspora*" sözü olan bütün sənədlərin siyahısını İnternetdən əldə etmək.

Azərbaycan dilini dəstəkləyən axtarış sistemlərində bu sorğunu qısaca *Azərbaycan OR diaspora* kimi vermək olar. Onda tapılan bütün sənədlərdə ən azı "*Azərbaycan*", ya da "*diaspora*" sözü olacaq.

Əgər sorğu *AzərbaycanANDdiaspora* kimi verilsə, onda elə sənədlər tapılacaq ki, bu sənədlərin hər birində eyni zamanda həm "*Azərbaycan*" sözü, həm də "*diaspora*" sözü olacaq. Diqqət yetirin! Bu halda "*Azərbaycan diaspora*" söz birləşməsi olmaya da bilər.

**!** Ümumiyyətlə, axtarış serverlərinin hədsiz geniş imkanları var. Son dövrlərdə bu serverlər axtarışdan əlavə digər xidmətlər də təklif edir. **Google**nin axtarış imkanlarını təfsilatı ilə *Google.az*-da **Ətraflı axtarış** bəndini seçərək **Basics of Search** və **Advanced Search Tips** menyuları vasitəsilə əldə edə bilərsiniz.



Bəzən elə olur ki, saatlarla əlləşsək də, axtardığımız məlumatı İnternetdə tapa bilmirik. Halbuki həmin sayt İnternetdə var. Bu isə artıq sayı 1 milyardı ötən saytları indeksləməkdə çətinlik çəkən axtarış sistemlərinin qüsurudur.

Son dövrlərdə Qlobal Şəbəkədə daha bir nəhəng informasiya mərkəzi formalaşmaqdadır. Bu, **Vikipedia**dır. Viki (wiki – sürətli, tez) texnologiyası əsasında qurulan bu elektron kitabxana axtarış sistemi də hesab oluna bilər. Bu ensiklopedik informasiya mənbəyinin digərlərindən əsas fərqi informasiyaların konkretliyindədir. Məsələn, **Google**də nəyisə axtaranda milyonlarla sayt tapılır, tapılan resursların çoxluğu əslində onun əhəmiyyətini azaldır. Vikipediada isə konkret kataloqlar üzrə konkret informasiya əldə etmək daha asandır. Burada bütün işlər müxtəlif bölmələr və müxtəlif milli dillər üzrə seçilən inzibatçılar tərəfindən görülür. İnzibatçılar informasiyanın tərəfsizliyinə, müstəqilliyinə, yəni reklam xarakterli informasiyalara imkan verilməməsinə cavabdehdirlər. Əsas gözəlliklərindən biri də hər bir şəxs tərəfindən istənilən informasiyanın məqalə kimi daxil edilməsinə, həmçinin kimsə tərəfindən daxil edilmiş yazılara müəllif hüquqlarına hörmət edilməsi şərtilə düzəlişlər edilməsinə imkan yaradılmasındadır. Vikipedia cəmiyyətinin yaradıcısı və əsas əlaqələndiricisi əslən amerikalı Cimmi Walesdir. Ekspertlər Vikipedianın gələcəkdə internet-reklamdan milyadlarla dollar qazanan **Google**ni sıxışdıracağını iddia edirlər. Daha geniş məlumat üçün bax: **http://az.wikipedia.org**

Ərazisinin bir hissəsi işğal altında olan, müharibə labüd olan Azərbaycan üçün hazırda Qlobal Dünyada ən populyar açıq informasiya mənbəyinin ciddi əhəmiyyət kəsb etdiyini düşünərək bu ensiklopediya haqqında bir qədər geniş məlumat vermək səmərəli olardı.

## Wikipedia – indi də azərbaycanca

Hazırda Wikipedia 100-dən artıq dildə olan 2.000.000 məqalədən və 13.000 aktiv istifadəçidən ibarət açıq ensiklopediyadır. Dünyada qazandığı inanılmaz populyarlıq nəticəsində bu rəqəmlər sürətlə artmaqdadır. Dillərin arasında Azərbaycan dilinin də olduğuna baxmayaraq, ensiklopediyanın ana dilimizdəki hissəsi çox kasıbdır. Ümidvaram ki, bu yazını oxuyan hər kəsin Vikipediaya diqqəti artacaq, Azərbaycan dilində zəngin bir online ensiklopediyanın yaranmasına kömək edəcək.

## Vikipedia nədir?

Wikipedia (azərbaycanca Vikipedia) – "Wikimedia Foundation" qeyri-hökumət təşkilatı tərəfindən yaradılan İnternet ensiklopediyasıdır. Vikipedianı **Britannika** kimi digər internet ensiklopediyalarından fərqləndirən onun açıq olması, yəni hər kəs tərəfindən redaktə oluna bilməsidir. Vikipedianın yaradıcıları Jimmy Wales və Larry Sanger 5 il əvvəl fəlsəfəsi tamamilə fərqli olan, biliklərini paylaşan insanlar sayəsində dünyanın ən dolğun online ensiklopediyasını yaratmaq istəmişlər. Bu təşəbbüs özünü doğrultmuş və Vikipedia dünyanın ən populyar 25 saytı sırasına düşmüşdür.

Ensiklopediyanın əsas tələbi yazılan məqalələrin və əlavə edilən biliklərin neytral nəzər nöqtəsindən (NPOV – Neutral Point Of View) çıxış etməsidir. Yəni burada "...ən gözəl şəhər Bakıdır" kimi şəxsi fikirlərə yer olmamalıdır.

Təbii ki, resursun açıq olması eyni zamanda bir sıra problemlər yaradır. Məsələn, hazırda Qarabağ mövzusu ətrafında həm azərbaycanlılar, həm də ermənilər fakt və fikirlərini bölüşə bilərlər. Bu halda kimin haqlı, kimin haqsız olduğunu yalnız diskussiyalar və arbitrlərə müraciət (Requests for Arbitration) müəyyən edə bilər.

## Azərbaycanca Vikipedia

2004-cü ilin yanvarından az.wikipedia.org ünvanında Azərbaycan dilində Vikipedia fəaliyyətə başlamışdır. Fikrimcə, buna Azərbaycanın açıq online ensiklopediyası kimi də baxmaq olar. Artıq dörd yaşı tamamlanan ensiklopediyamızda məqalələrin sayı hazırda 18.000-ə yaxındır. Lakin qeyd etməliyəm ki, onların əksəriyyəti boş və ya şablonuır. Müqayisə üçün deyim ki, ingilis versiyasında təqribən 2.400.000, türk versiyasında 104.500, rus dilində təqribən 254.000 məqalə mövcuddur.

Təəssüf ki, gənc ensiklopediyamız üzərində çalışmalara çox az azərbaycanlı cəlb olunduğundan, o, əsasən türk qardaşlarımız və güney azərbaycanlı soydaşlarımız tərəfindən qurulur. Məhz bu səbəbdən saytda çoxlu qrammatik və sintaktik səhvlərə, türk, fars və digər əcnəbi sözlərinə rast gəlmək olar. Yenə də bizim Vikipedia üzərində işlədikləri və təməlini qoyduqları üçün hər birinə dərin təşəkkürümüzü bildirmək istərdik. Lakin bu, işin ən qorxulu tərəfi deyil.



Bu yaxınlarda Azərbaycan Vikipediasında "Son dəyişikliklər" bölümündə "İrəvan" və "Ermənistan" sözlərinin yaradıldığı diqqətimi cəlb etdi. Bu dəyişikliklər qeydiyyatdan keçmiş üzv tərəfindən deyil, naməlum şəxs tərəfindən edilmişdi. Neytral görünməyə çalışılsa da, yazıların erməni mənşəli olduğu aşkar sezilirdi. Müəllifin IP-ünvanının (195.250.64.76) Ermənistana mənsub olması da bu şübhələri təsdiqləyirdi. Bəli, ermənilər bizim ensiklopediyamıza Azərbaycan və onun tarixi haqda saxta məlumat daxil edərək növbəti dəfə dezinformasiya yayırdılar. Görünür, Azərbaycanda yaxşı təhsil aldıqlarından ermənilər bu məqalələri səlis və düzgün Azərbaycan dilində yazırlar. Qeyd edim ki, hər bir səhifə üzərində edilən bütün dəyişikliklər "Səhifə keçmişi" bölümündə qeyd edilir. Bu imkandan istifadə edib yuxarıdakı faktın təsdiqini tapa bilərsiniz.

## Mən necə yardım edə bilərəm?

Zəngin Azərbaycanımızın şəhər və rayonları, şair və yazıçıları, mətbəxi, geyimləri və s. haqda dürüst məlumatınız varsa, maksimum neytrallığı və obyektivliyi qoruyaraq durmadan Azərbaycan Vikipediasına əlavələr edin! Bunun üçün sadəcə qeydiyyatdan keçmək kifayətdir.

Lakin yalnız bununla kifayətlənmək doğru olmazdı. Vikipedia bu gün dünyada güvənilən və çox populyar açıq informasiya mənbəyi kimi tanınır. Tələbələr, jurnalistlər və digər araşdırmaçılar İnternetdə məlumat axtarışında məhz bu resursa üstünlük verirlər. Bunun üçün bizim Azərbaycan dilindəki Vikipedianı qurmaqla yanaşı, ingilis, fransız, rus, alman, ispan və digər dillərdəki vikipedialara da əlavələr etməmiz Azərbaycan və onun ayrılmaz hissəsi olan Qarabağ haqda həqiqətlərin dünyaya çatdırılması yolunda vacib addımlardandır.

## Məqalələrin yaradılması

Vikipediada məqalələrin yazılması olduqca asandır və HTML səhifələrindən fərqli olaraq xüsusi biliklər tələb etmir. Mündəricatın yaradılması, keçid və şəkillərin əlavə edilməsi, şablonlar və digər funksiyalar avtomatlaşdırıldığından məqalələri qısa müddət ərzində asanlıqla yaratmaq mümkündür. Təsadüfi deyil ki, havaililərin dilində wiki (wihi-wihi) – "tez", "cəld" mənasını daşıyır.

Hər zaman neytral nəzər nöqtəsindən çıxış edərək yazın və yazdığınız məqalələrin mənbəyini göstərin. Bu, idarəçilərin və oxucuların məqalənizə etimadını artıracaq və mümkün mübahisələrin qarşısını alacaq. Mənbələri xarici keçidlər vasitəsilə "Ədəbiyyat", "Mənbələr", "Əlavələr" və ya "Əlavə ədəbiyyat" başlıqlı bölümlərdə sadalayın.

Günümüzdə aktual olmayan, lakin bir neçə il sonra ciddi problemlərə səbəb ola biləcək daha bir vacib məqam müəllif hüquqlarıdır. Əgər əlavə etdiyiniz məqalə, şəkil və ya media faylının bir neçə il sonra ensiklopediyadan xaric olunmağını istəmirsinizsə, ən azı müəllifinin adını qeyd edin.

Yeni məqalə yaratmaq üçün xüsusi **Help: Yeni məqalə yarat** səhifəsində başlığı daxil edib, **Create article** düyməsini seçin. Seçdiyiniz başlıqlı məqaləni redaktə etmək üçün digər səhifəyə keçəcəksiniz. Burada məqalənin mətnini daxil edib **Səhifəni qeyd et** düyməsini seçməklə onu Vikipediaya daxil edin.

Vikipediada mətni formatlaşdırmaq üçün bir sıra özünəməxsus sintaksislərdən istifadə olunur:

**Alınan nəticə Yazılan mətni** bölümlərə və ya başlıqlara ayırmaq üçün istifadə edilir:

<table>
<tr><th>Alınan Nəticə</th><th>Yazılan Mətn</th></tr>
<tr><td>Yazını bölümlərə və ya başlıqlara ayırmaq üçün istifadə edilir:<br><br>Başlıq<br>Alt başlıq<br>Alt alt başlıq</td><td>==Başlıq==<br>===Alt başlıq===<br>====Alt alt başlıq====</td></tr>
<tr><td>• Siyahıları asanlıqla yarada bilərsiniz<br>• Bunun üçün hər bir sətirin önünə ulduz əlavə edin<br>o ulduzların sayı siyahıdakı dərinliyi müəyyən edir</td><td>* Siyahıları asanlıqla yarada bilərsiniz<br>* Bunun üçün hər bir sətrin önünə ulduz əlavə edin<br>** ulduzların sayı siyahıdakı dərinliyi müəyyən edir</td></tr>
<tr><td>1. Həmçinin nömrələnmiş siyahılar yarada bilərisiniz<br>1. struktur üçün idealdır<br>2. və asanlıqla yaradılır</td><td># Həmçinin nömrələnmiş siyahılar yarada bilərisiniz<br>## struktur üçün idealdır<br>## və asanlıqla yaradılır</td></tr>
<tr><td>Horizontal bölgü xətti üçün<br>simvolundan istifadə edin</td><td>Horizontal bölgü xətti üçün<br>----<br>simvolundan istifadə edin</td></tr>
<tr><td>İmzanızı əlavə etmək üçün:<br>Rustam<br><br>İmza və vaxtı əlavə etmək üçün:<br>Rustam 00:48, Yan 27, 2006 (AZT)<br><br>Yalnız vaxtı əlavə etmək üçün:<br>00:48, Yan 27, 2006 (AZT)</td><td>İmzanızı əlavə etmək üçün:<br>~~~<br>İmza və vaxtı əlavə etmək üçün:<br>~~~~<br>Yalnız vaxtı əlavə etmək üçün:<br>~~~~~</td></tr>
<tr><td>Tarix formatları:<br>1. 20 Yanvar, 1990<br>2. 20 Yanvar 1990<br>3. 1990-01-20<br>4. 1990-01-20</td><td>Tarix formatları:<br># [[Yanvar 20]], [[1990]]<br># [[20 Yanvar]] [[1990]]<br># [[1990]]-[[01-20]]<br># [[1990-01-20]]</td></tr>
</table>



Mətnə digər səhifələrə keçidlər də daxil edə bilərsiniz. Keçidlər əsasən iki növ olur – daxili və xarici. Daxili keçidlər Vikipediada mövcud olan və olmayan məqalələrə aparır. Mövcud olmayan məqalələrə aparan keçidlər bu məqaləni yaratmağı təklif edəcək. Xarici keçidlər isə digər İnternet ünvanlarına işarə edir.

<table>
<tr><th>Alınan Nəticə</th><th>Yazılan Mətn</th></tr>
<tr><td>Azərbaycanın paytaxtı Bakı şəhəridir</td><td>Azərbaycanın paytaxtı [[Bakı]] şəhəridir</td></tr>
<tr><td>Bakı şəhəri Azərbaycanın paytaxtıdır</td><td>Bakı şəhəri [[Azərbaycan|Azərbaycanın]] paytaxtıdır</td></tr>
<tr><td>Bir sözün bir neçə yazılış forması ola bilər. O zaman onları bir yerə yönəltmək zəruriyyəti yaranır.<br><br>"ABŞ" başlıqlı məqaləni "Amerika Birləşmiş Ştatları" başlıqlı məqaləyə yönləndirmək üçün, birincini sağdakı mətn ilə əvəz edin.</td><td>#REDIRECT [[Amerika Birləşmiş Ştatları]]</td></tr>
<tr><td>Başqa dildə mövcud olan eyni başlıqlı məqaləyə keçid əlavə etmək üçün aşağıdakı keçid növündən istifadə edin:<br>[[dilin kodu:Başlıq]]</td><td>[[ar:باكو]]<br>[[en:Baku]]<br>[[ru:Баку]]</td></tr>
<tr><td>Məqaləni bu və ya digər kateqoriyaya aid etmək üçün sağdakı nümunədən istifadə edin.</td><td>[[Category:Azerbaycan]]</td></tr>
<tr><td>Məqalədə bu və ya digər kateqoriyaya keçid əlavə etmək üçün sağdakı nümunədən istifadə edin.</td><td>[[:Category:Azerbaycan]]</td></tr>
<tr><td>Xarici, qeyri-viki keçidlərini əlavə etməyin üç yolu:<br>1. Görünən keçid: http://code.az/ (tərcih olunmur)<br>2. Adsız keçid: [1] (yalnız mətnin daxilində)<br>3. Adlı keçid: Code.az</td><td>#Görünən keçid:<br>http://code.az/ (tərcih olunmur)<br>#Adsız keçid:<br>[http://code.az/] (yalnız mətnin daxilində)<br>#Adlı keçid:<br>[http://code.az/ Code.az]</td></tr>
<tr><td>Mətn və şəkil keçidlərindən əlavə olaraq daxili "media" bağlantıları da mövcuddur.</td><td>[[media:sound.mp3|Səs]]</td></tr>
</table>

Şəkilləri və media fayllarını mətnə əlavə etməzdən öncə onları Vikipediaya yükləmək lazımdır. Bunun üçün xüsusi **Qarşıya yükləmə** funksiyasından istifadə edib şəkil, audio və ya hər hansı başqa bir media faylını yükləyin və onun daxili ünvanını məqalənizə əlavə edin. Yükləyərkən mümkün qədər yüksək keyfiyyətli şəkillərdən istifadə edin və yüklədiyiniz şəkillərin müəllif hüquqlarına diqqət yetirin. Şəkilləri əlavə edərkən nümunə üçün mövcud məqalələrdən və ya aşağıdakı misallardan birini istifadə edə bilərsiniz:

| Alınan Nəticə | Yazılan Mətn |
|---|---|
| Şəkil:<br><br> | Şəkil:<br>[[Image:wiki.png]] |
| Sağ tərəfdə yerləşən və başlığı olan şəkil:<br><br><br>Vikipedia Ensiklopediyası | Sağ terefde yerleşen ve başlığı olan şekil:<br>[[Image:wiki.png\|frame\|Vikipedia Ensiklopediyası\|right]] |
| Sol tərəfdə yerləşən, başlıqlı, kiçildilmiş şəkil:<br><br><br>Vikipedia Ensiklopediyası | Sol terefde yerleşen, başlıqlı, kiçildilmiş şekil:<br>[[Image:wiki.png\|thumb\|left\|90px\|Vikipedia Ensiklopediyası]] |

Mətndə başlığı olan və ehtiyac olduqda kiçildilmiş şəkillərdən istifadə etməyə çalışın. Tələb olunarsa, məqalənizdə adi HTML dilindən də istifadə edə bilərsiniz.



Burada göstərilən nümunələr bir çox məqalələrin yaradılması üçün kifayət olduğuna baxmayaraq, viki dilinin yalnız bir hissəsidir. Vikipedianın bütün imkanlarını öyrənmək istəyirsinizsə, "Ədəbiyyat" bölümündəki ingilis və rus dillərində bənzər məqalələrə müraciət edə bilərsiniz.

## Biliklərimizi paylaşaraq...

Ölkə Prezidentinin 2004-cü il yanvarın 12-də imzaladığı Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında sərəncama baxmayaraq, bu gün ensiklopediyanın heç bir cildinə də satışda rast gəlmək mümkün deyil. İnanırıq ki, azad ensiklopediyaya əlavə ediləcək hər bir kiçik məlumat onu dinamik, pulsuz və MEA-nın hazırladığı ensiklopediyadan daha populyar edəcək.

İnformasiyanı azad paylaşmaq prinsipi hələ Tim Berners Li tərəfindən 1989-cu ildə veb-texnologiya (World Wide Web) yaradılarkən nəzərdə tutulmuşdur. Məhz bu səbəbdən ilk yaradılan **Səyyah (Browser)** həm veb-səhifələri göstərmək, həm də onları redaktə etmək imkanına malik idi. Lakin sonrakı dövrdə İnternetin daha çox elektron kommersiya istiqamətində inkişaf etməsi veb-mediasını ilkin fəlsəfəsindən uzaqlaşdırdı. Tim Berners Linin özünün də etiraf etdiyi kimi, 2005-ci il ideyasının həyata keçdiyi il kimi yadda qaldı. Belə ki, məhz həmin il fikirlərini və biliklərini paylaşmaq arzusunda olan milyonlarla yaradıcı insan bloqlar, vikilər və podcastlar vasitəsilə İnternetdə sunami meydana gətirmişdir.

## İnternetdə şəxsin axtarılması




İnternetdə təkcə informasiya resurslarını deyil, həm də insan axtarışını da həyata keçirmək olar. Bu məqsəd üçün müxtəlif proqramlar mövcuddur.

"Windovs XP" əməliyyat sistemində **Start** düyməsini basaraq **Search** menyusunun **For People** bəndini seçməklə bu cür axtarışı həyata keçirmək olar.

Bunu "Outlook Express" proqramı vasitəsilə də etmək mümkündür.

Bunun üçün:

"Outlook Express" proqramında **Edit** menyusunda **Find** bəndini və bu bəndin **People...** altbəndini seçin;

**Look in** sətrinin qarşısında İnternet qovluq xidmətlərindən birini seçin;

Axtardığınız şəxsi təyin edən məlumatlardan (ad, e-mail, ünvan, telefon, digərləri) birini yazın.

Bütün bunlardan sonra **Find Now** düyməsini basmaq lazımdır.

## İnternetdə şəkil axtarışı




"İnternet Exploler"də məxsusi olaraq şəkil axtarılması üçün imkanlar nəzərdə tutulub. Bunun üçün **Search (Axtar)** düyməsini basmaq və sol tərəfdə çıxan pəncərədə **Find a picture** menyusunu seçərək müvafiq sözü qeyd etmək lazımdır.

http://www.www.ditto.com axtarış serveri isə şəkil axtarmaq istəyənlər üçün göydəndüşmə sistemdir. Hansısa bir sözü yazmaq kifayətdir ki, onunla bağlı yüzlərlə, minlərlə şəkil ekrana çıxsın.

**Google**nin də təsvirlərin axtarılması sahəsində imkanları xeyli genişdir. Bunun şahidi olmaq üçün www.google.az-da əvvəlcə sorğu yazmaq üçün nəzərdə tutulan sətrin yuxarısında **Şəkil** menyusunu seçmək, sonra əldə etmək istədiyiniz şəklə uyğun sözü yazmaq və **Go** düyməsini basmaq kifayətdir.

### İnternet resursu fiziki olaraq harada yerləşir

İnternetdə hansısa web-serverin fiziki olaraq harada yerləşməsini, kimə məxsus olduğunu, sizin kompüterinizdən göndərilən sorğunun (siqnalın) bu serverə haradan keçərək və hansı müddətə çatdığını müəyyən etmək üçün xeyli sayda proqram var. Bu tip proqramlar içərisində **NeoTrace** (http://www.neoworx.com) öz






orijinallığı və imkanları ilə fərqlənir. Axtarış üçün proqramın **Adress** bəndinin qarşısına axtardığınız resursun domenini və ya IP-ünvanı daxil edib **Enter** düyməsini basmaq lazımdır.

Qabaqcadan **View** menyusundan **Nodes** bəndini seçsəniz, göndərdiyiniz siqnalın bütün hərəkətini əyani şəkildə müşahidə edə bilərsiniz.

Bu proqramda prosesi xəritə üzərində izləmək imkanı da nəzərdə tutulub.

## PING və TRACERT komandaları

İnternetdə, həmçinin, lokal şəbəkələrdə kompüterinizin serverlə və şəbəkə ilə bağlı problemlərini aşkara çıxarmaq üçün PING komandasından istifadə edə bilərsiniz. PING kompüterinizin server tərəfindən "görünməsini" və sorğularınıza cavab verilməsini aşkara çıxaracaq. PING vasitəsilə şəbəkənin digər kompüterinə sorğu göndərilir və əgər şəbəkədə bir problem yoxdursa və normal işləyirsə, onda siz sorğunuza dərhal cavab alırsınız. Bu cavabda, həmçinin, sorğu-cavab prosesinin neçə milli-saniyə davam etdiyi də göstərilir.

"Windows" sistemində bu proses aşağıdakı qaydada həyata keçirilir. **Start** düyməsini basmaqla **Run** bəndi seçilir və ekrana çıxan pəncərədə **command** yazılaraq **Ok** düyməsi basılır.




Bu zaman ekrana müvafiq komandanın daxil ediləcəyi bənd olan qara rəngli pəncərə açılır. Komanda yerində PING X.X.X.X və ya PING DOMEN ADI yazılır. Burada X sorğu göndərilən serverin IP-ünvanıdır. Məsələn, www.aif.az serveri üçün PING www.aif.az komandası vasitəsilə verilir.




TRACERT komandası yuxarıdakı prosesi daha incəliklə həyata keçirir. Bu komanda ilə serverə göndərilən sorğunun keçdiyi bütün mərhələlər və hər bir mərhələnin (sorğu-cavab) davam etdiyi müddət ekrana çıxarılır.

Beləliklə aydın olur ki, pinq əslində şəbəkə daxilində informasiya mübadiləsinin hansı keyfiyyətdə (sürətdə) olduğunu nümayiş etdirir.

**Diqqət.** Bir sıra serverlərdə yuxarıda qeyd olunan komandalar vasitəsilə göndərilən sorğulara cavab verilməsinə serverin sahibi tərəfindən qadağa qoyulur. Bu halda sorğu-cavab prosesində alınan cavab şəbəkənin qeyri-normal fəaliyyəti kimi qiymətləndirilə bilməz.



## Səmərəli axtarışla bağlı bir neçə məsləhət

Tapmaq istədiyiniz informasiyanı dəqiq ifadə etməyə və axtarış proqramında bunu dəqiq yazmağa çalışın. Yalnız bir söz deyil, bir neçə söz də daxil etmək olar. Rus dilində hansısa sözün yazılması rus axtarış serverlərində bu dildə olan web-səhifələrin tapılmasına kömək edir.

**Diqqət:** *Sözün yazılışında cüzi səhv axtarışın keyfiyyətinə ciddi təsir göstərir. Bu sətirlərin müəllifi vaxtilə Atilla haqqında sənəd axtararkən bunun şahidi olub. "Atilla" sözünü yazdıqda axtarış maşını cəmi bir neçə əhəmiyyətsiz səhifə tapdı. Xeyli çalışandan sonra başa düşdüm ki, nəyisə düz etmirəm. Təsadüfən tapdım ki, İnternetdə Atilla ilə bağlı nəhəng informasiya "Attila" (iki "t" və bir "l" hərfi ilə) adı altında daxil edilib. "Attila" sözünü axtarış maşınına daxil etdikdə isə az qala bir milyon səhifə tapıldı.*

Bütün əsas axtarış sistemlərində eyni vaxtda nəsə axtarmaq üçün ən yaxşı vasitə "Copernic–2000" proqramıdır (www.copernic.com). Bu proqram *AltaVista, Excite* (www.excite.com), *Yahoo, Hot Bot* (www.hotbot.com), *İnfoseek* (www.infoseek.com), *Lycos* (www.lycos.com) və s. axtarış sistemlərində eyni anda axtarış aparır. Tapılan saytın birdən artıq axtarış sistemlərində adı varsa, yalnız bir dəfə göstərir.

Sorğu nəticəsində tapılan ilk 5-10 sənəd içərisində axtardığınızı tapa bilməmisinizsə, vaxt itirməyə dəyməz, dərhal sorğunuzu dəyişin və yenidən axtarışa başlayın.

Bir axtarış sistemində nəyisə tapa bilməyəndə digərindən də istifadə edin.

Ümumiyyətlə heç bir şey tapa bilmədikdə isə **Chat** və forumlara baş vurun. Düşünürəm ki, sizə kömək edən tapılar.

**Promt** proqramının köməyi ilə ingilis dilində olan web-səhifələrdəki mətni rus dilinə çevirə bilərsiniz. Azərbaycanca mətni ingilis dilinə çevirən milli proqram xidməti təzə-təzə yaranmağa başlanıb. **Dilmanc** adlanan bu proqramı http://www.inkotex.az/

İnternet səhifəsindən yükləmək olar, hələlik bu azərbaycancadan ingilisə ilk maşın tərcümə sistemi qüsurlardan xali deyil, lakin yerli mütəxəssislər bu layihə üzərində çalışırlar.

Azərbaycan dilində informasiya axtarışının bir sıra spesifik xüsusiyyətləri var (Bax: 2-ci fəsil. Azərbaycan dilində informasiya axtarışı).

Xarici serverlərdən informasiya axtaranlar üçün, güman ki, aşağıdakı resurslar xeyli faydalı olacaq:

**Türkiyənin arama motorları**

Arabul, www.arabul.com
List2000, www.list2000.com
TTT, www.ttt.com.tr

**Rusiyanın axtarış sistemləri**

Rambler, www.rambler.ru
Yandex, www.yandex.ru
Aport www.aport.ru

**Uşaqlar üçün axtarış sistemi**

http://www.ajkids.com
http://www.yahooligans.com
http://www.kids.net.au/

**Elektron kommersiya üzrə axtarış sistemi**

http://www.bizbot.net

2007-ci ildə ən populyar axtarış sistemləri aşağıdakılar olub:

Google
Yahoo
Baidu.com
eBay
Time Warner Network
Ask Network (İngiltərə)
Yandex
Alibaba.com (Çin)



## İnternet statistikası

İnternetdə çox asanlıqla sizin web-saytınızla maraqlananlar və səhifənizə baş çəkənlər haqqında məlumat əldə edə bilərsiniz. Bunun üçün bu cür statistika xidməti göstərən proqramlarda qeydiyyatdan keçməlisiniz. Həmin resurs sahiblərinin sizə verdiyi xüsusi HTML kodunu saytınıza yerləşdirdikdən sonra saytınızın baxılan səhifələri, baxanların sayı, digər saytlardan sizin sayta verilən keçidlər, saytınıza hansı ölkədən baxılıb, onlar hansı provayderdən İnternetə daxil olublar və s. bu kimi məlumatları əldə edə bilərsiniz.

Məlumatları əldə etmək üçün qeydiyyat zamanı sadəcə e-poçtunuzu qeyd edirsiniz və hər gün bu ünvana yuxarıda qeyd olunan məlumatlar daxil olacaq. Yuxarıda qeyd olunan kodun web-səhifənizdə qoyulduğu yerdə sayğac yaranacaq. Bu sayğac səhifədə qoyulduğu andan məlumatların bir qismi elə sayğacın üzərində əks olunmağa başlayır.

Ölkədə bu cür İnternet statistikası xidməti təklif edən serverlərin ən populyarı ilk10.com -dur. Digər bu cür pulsuz serverləri İnternetdən əldə edə bilərsiniz.

## Çat. Audio və videokonfranslar

İnternetdə xeyli sayda proqram var ki, onların vasitəsilə eyni anda İnternet üzərindən yüzlərlə insan bir-biri ilə yazışa və danışa bilər. Buna qısaca IRC (Internet Realy Chat – İnternet bağlantılı söhbət) və ya qısaca **Çat** (Chat) deyirlər. Sadə dildə izah etsək, çat real bir vaxtda həyata keçirilən söhbətləşmədir. Yeganə fərq ondan ibarətdir ki, bu söhbətləşmə elektron formada, kompüterdən istifadə etməklə həyata keçirilir. Yeni tanışlar tapmaq üçün unikal vasitədir. Ən geniş yayılan və geniş imkanlara malik olan çat vasitələrindən biri ICQ proqramıdır.

Proqramı www.icq.com/download səhifəsindən yükləyə bilərsiniz. Azərbaycan İnternetində xeyli sayda milli Çat proqramları fəaliyyət göstərir. Geniş məlumatı kitabın 2-ci və 3-cü fəsillərindən əldə edə bilərsiniz.

Bu xidmətdən yararlanmaq üçün əvvəlcə bu cür proqramlardan birisini kompüterinizə yükləməlisiniz. Qeydiyyatdan keçərkən vacib deyil ki, özünüz haqqında həqiqi olan məlumatları daxil edəsiniz. Adətən söhbətləşmək üçün əsl ad əvəzinə ləqəb (Nick name) məqbul hesab edilir.

Bir sıra proqramlar var ki, bunlar İnternet üzərindən səsli telefon əlaqəsi qurmağa, həmçinin görüntülü və səsli telefon bağlantısı qurmağa imkan verir. Bu cür proqramlar çox vaxt konfrans proqramları adlanır. Filialları bütün dünyaya səpələnmiş böyük şirkətlər, beynəlxalq qurumlar bu cür audio, videokonfranslar, eləcə də telekonfranslar vasitəsilə gündəlik iş prosesini tənzimləyir. Audiokonfrans – müxtəlif coğrafi nöqtələrdə olan bir neçə şəxsin kommunikasiya sistemləri, kompüter texnologiyası və ya telefon və s. vasitəsilə səsli rabitəsidir.

Geniş yayılmış bu cür proqramlardan biri də Azərbaycan istifadəçilərinin də çox yararlandıqları **"Paltak"** (www.paltalk.com) proqramıdır.

Videokonfrans – adi fərdi kompüterin imkanları ilə interaktiv rejimdə insanların bir-birini eşidib görməsinə, verilənlərin mübadiləsini etməyə, onlara birlikdə işləməyə imkan verən rabitə növüdür. Bu cür konfranslar üçün ilkin zəruri şərt İnternet bağlantısının sürətidir. Ölkəmizdə hələlik yalnız bir neçə böyük şirkət və telekommunikasiya qurumu bu xidmətdən yararlana bilir.

İki İnternet istifadəçisinin bu cür konfranslarda iştirakı üçün sadəcə E-poçt və ya IP ünvanlarının bilinməsi kifayət edər.

Yalnız səsli əlaqə üçün kompüterinizdə mikrofon və səs qurğusunun (səsləndiricinin) olması kifayət edər.

Görüntülü və səsli konfransların qurulması üçün əlavə olaraq sizin web-kameranız da olmalıdır. Ən ucuz vebkameranın qiyməti 25 $-dır. Veb-kamera USB-port vasitəsilə kompüterinizə qoşulur. Normal videokonfranslar üçün sürətli İnternet bağlantısının olması zəruridir.

Bir daha təkrar edirik ki, səsli və görüntülü əlaqə yaratmaq mümkün deyilsə və ya bu əlaqə xeyli keyfiyyətsizdirsə, o zaman yazılı söhbətləşmədən (Chat) istifadə etmək daha məqsədəuyğundur.

Bu cür proqramların köməyi ilə yerində tapa bilmədiyiniz dostunuza mesaj da qoya bilərsiniz.

Söhbətləşmək istədiyiniz şəxs həmin an İnternetdə deyilsə, proqram ona mesaj buraxmaqla bağlı sizə sorğu verir.

Çat və forumlarda müəyyən davranış qaydaları var və bu qaydalar müvafiq xidmətləri göstərən resursların başlanğıc səhifələrində qeyd olunur. **Bu cür davranış qaydalarını müəyyən edən və ona nəzarət edən şəxs *moderator* adlanır.**



## IP-telefon




IP-telefonun adi telefondan əsas fərqi ondan ibarətdir ki, səs İnternet üzərindən ötürülür. Yəni bu cür əlaqə zamanı beynəlxalq operator bu prosesdə iştirak etmir. IP-telefon əlaqəsini telefondan telefona, kompüterdən telefona və ya telefondan kompüterə zəng vasitəsilə qurmaq olar. Bütün hallarda kompüterin mikrofonu və səs qurğusu, zəruri proqram təminatı olmalıdır.

Ölkəmizdə "Azeurotel" şirkəti bu xidməti təklif edir.

www.vonage.com, www.net2phone.com və www.skype.com saytlarına daxil olsanız beynəlxalq danışığın necə ucuz olduğunu hiss edərsiniz.

Səsin İnternet Protokolu (IP) vasitəsilə ötürülməsi xeyli müddət ciddi müzakirə mövzusu olub. Klassik telefon xidmətinə alternativ yaradılan bu xidmət növü bir sıra ölkələrdə hökumətlər tərəfindən əngəllənirdi.




Son dövrlərdə Qlobal Şəbəkənin qısa müddətdə populyarlıq qazanan proqramlarından ən məşhuru dünyanın istənilən yerilə pulsuz danışmaq imkanı verən "Skype" proqramıdır.

2003-cü ildə yaranan və hazırda 3-cü versiyası istifadəyə buraxılan bu proqram adi telefonların yaxın vaxtlarda arxivə göndəriləcəyini düşünməyə əsas verir. Bu proqram vasitəsilə mikrofon və səsucaldan qurğu (və ya qulaqcıq) ilə təmin edilən istənilən coğrafi ərazidə olan kompüterə zəng pulsuzdur.

Adi telefona isə "Skype" vasitəsilə 2-3 sentə zəng etmək olar. Əgər kompüterdə veb-kamera varsa, danışıq zamanı bir-birinizi izləyə də bilərsiniz. Proqram istifadə üçün olduqca sadədir.

## Spam (Tullantı)

Hazırda elektron poçt xidməti sahiblərinin ciddi problemlərindən biri də spamdır. Spam sizin arzulamadığınız, gözləmədiyiniz bir məktubdur. Son məlumatlara görə, əhəmiyyətsiz, bezdirici, reklam xarakterli spam artıq "poçt" trafikinin 60-70 %-ni təşkil edir. Yəni hər 10 məktubdan 6-7-si birbaşa "zibilliyə" atılmalıdır. Bir sıra hallarda spamın haradan göndərildiyini müəyyən etmək çox çətin olur. Bir dəfə hansısa serverdən göndərilən spam ikinci dəfə hansısa İnternet klubundan gəlir. Özünüzə e-mail açarkən "yağış kimi" naməlum məktublar almağa başlasanız, çox da təəccüblənməyin. Mail proqramınızın imkanlarından istifadə etməklə özünüz spama qarşı mübarizə apara bilərsiniz.

Gələn məktublara **Block (Qadağa)** qoymaq üçün "Outlook Express" proqramının **Tools** menyusundan **Message rules** bölməsinin **Blocked Senders List** bəndini seçmək lazımdır. Sonra qarşınıza çıxan pəncərədə **Mail rules** menyusundan **New** bəndini seçin. Ekrana çıxan pəncərənin 1-ci bölməsində haradan və kimdən gələn məktublara blok (qadağa) qoymaq istədiyinizi, 2-ci bölmədə həmin məktubları nə etmək istədiyinizi (birbaşa oxumamış silmək, avtomatik ayrıca qovluğa yığmaq və s.), 3-cü bölmədə isə hansı qovluğa yığmaq lazım olduğunu və s. qeyd edirsiniz. Bu prosedurları başa çatdırdıqdan sonra **Message rules** Pəncərəsində **New Mail Rule #1** yazısı qeyd olunacaq. Bu isə artıq sizin blok qoymaq istədiyiniz mesajların xarakteristikası ilə bağlı birinci






seçiminizi göstərir. Onu hər an **Modify** düyməsi vasitəsilə dəyişə bilərsiniz.

Bir sıra mail provayderləri spamlara qarşı amansız mübarizə aparırlar. Xeyli sayda poçt serveri var ki, öz aralarında razılaşaraq antispam serverləri yaradırlar. Bu halda razılaşmanı imzalayan serverlərdə spamların sayı yarıbayarı azalır. Çalışın bu cür **mail** xidmətlərindən istifadə edin.

Təəssüf ki, ölkə provayderlərinin web-saytlarında antispamla bağlı yerli istifadəçilər üçün sanballı bir vəsait tapmaq hələlik mümkün deyil.

Artıq ABŞ-da, Avropa ölkələrində rəsmi surətdə spamla mübarizə istiqamətində tədbirlər görülür. 2004-cü ildə ABŞ-da bununla bağlı qəbul edilən qanun hələlik gözlənilən nəticəni verməyib. Ötən il bir ay ərzində 10 milyon spam göndərməklə 1 milyonadək gəlir əldə edən ABŞ vətəndaşı Ceremi Ceyns Virciniya Ştatı məhkəməsinin hökmü ilə 9 il azadlıqdan məhrum edilib. Avropa Birliyinin rəhbərliyi quruma üzv ölkələrə spamla mübarizə istiqamətində tədbirləri gücləndirmək barədə xəbərdarlıqlar etməkdədir.

## İnformasiya təhlükəsizliyi

İnternetdə işləyərkən sizi gözləyən ən ciddi təhlükə virus vasitəsilə kompüterinizin, daha doğrusu, kompüterinizdəki informasiyanın sıradan çıxmasıdır.

### Virus nədir?

Virus kompüterdə icra edilə bilən bir proqramdır, yəni kompüterinizin əməliyyat sistemində olan imkanlardan istifadə edən əmrlər ardıcıllığıdır. İlk kompüter virusları bir neçə sadə əməliyyatdan ibarət idi. Məsələn, müəyyən bir şərti yoxlayan əməliyyat (məsələn, tarix və ya vaxtı) və şərtdən asılı olaraq məlumatı ləğv edən (məsələn, diski yenidən formatlayan) əməliyyat.

İlk viruslardan bir çoxu özlərini digər fayllara köçürürdü və bu, fayl və disket mübadiləsi zamanı müxtəlif kompüterlərin yoluxmasına gətirirdi. Bu gün isə ən təhlükəli yoluxma üsulu İnternet vasitəsilə hesab olunur. Lakin erkən viruslardan fərqli olaraq, müasir viruslar sadəcə məlumatın silinməsi ilə kifayətlənmir: onlar kompüterinizdəki bütün elektron ünvanları tapıb öz nüsxələrini bütün tanışlarınıza yayacaqlar.




Ümumiyyətlə, **Virus** bir termin kimi sisteminizə zərər yetirən hər hansı proqram təminatı anlayışını verir. Yayılma mexanizmindən asılı olaraq viruslar ciddi təhlükə təşkil edir.

Viruslardakı təhlükə ehtimalı bəzən real təhlükədən qat-qat böyük olur. Bunun obyektiv səbəbləri və faydaları olsa da (istifadəçilərin "həddən artıq" təhlükəsizlik meylinin faydası), bir sıra subyektiv səbəbləri də ola bilər. Məsələn, sırf sınaq üçün yaranmış və yalnız tədqiqat şəraitində mövcud olan bir sıra virusların qorxulu potensial "əməlləri" dərhal ictimaiyyətə çatdırılır və bu virtual təhlükədən istifadə edərək antivirus istehsalçıları öz məhsullarını daha müvəffəqiyyətlə satmaq imkanı əldə edirlər.

Son zamanlar viruslar daha çox məlumat itkisi deyil, sadəcə vaxt itkisinin səbəbinə çevrilməkdədir. Yəni, virus məlumata zərər yetirməsə də, normal işə mane olur və virusun təmizlənməsinə müəyyən vaxt sərf olunmasını tələb edir. Bu cür viruslar daha çox yeni, təcrübəsiz istifadəçilərin sistemlərini yoluxdurmaqdadır.

**Virusların iş prinsipi**

Virus faylları sizin kompüterinizə yalnız icra edilən fayllarla birlikdə daxil ola bilər. Mətn sənədləri, rəsmlər, arxivlər, cədvəllər və s. risk obyekti hesab oluna bilməz. Yeganə istisna bir sıra ofis proqramlarındakı ssenarilərdir ki, bunlara "makrovirus" deyilir (makroviruslar hazırda böyük təhlükə təşkil etmir, bu, daha çox proqramların xətalarından irəli gələn problemlərdən qaynaqlanır).

**Virus kompüterinizə necə keçir?**

♦ İnternetdən götürülmüş və daxilində virus olan proqramlar və digər informasiya ilə. Bunun qarşısını almaq üçün İnternetdən yüklənən hər bir informasiyaını əvvəlcədən antivirus proqramları ilə yoxlayın.



♦ Proqramın və ya informasiyanın disketdən və ya fləş-yaddaşdan kompütərə köçürülməsi zamanı. Bunun qarşısını almaq üçün bütün disket və fləş-yaddaşları əvvəlcədən yoxlayın.

♦ Mürəkkəb sənədlərin daxilində makrosların icrasına icazə verilərkən. Tanımadığınız makrosların icrasına icazə verməyin.

**Viruslardan əsas müdafiə üsulları**

Viruslardan müdafiə olunmaq üçün bir neçə əsas təhlükəsizlik qaydası mövcuddur:

İnternetdə işləyərkən ehtiyatlı olun:

♦ əlavə olunmuş faylları dərhal açmayın.

♦ Word proqramında makrosları qeyri-aktiv edin.

♦ Javascript-i qeyri-aktiv edin.

♦ Səyyah proqramınızı proqramları işə salmayan rejimə keçirin.

♦ E-mail üçün təhlükəsiz proqramlardan istifadə edin.

♦ Məktubların daxilindəki proqram və faylların açılmasına qadağa qoyun.

♦ Əldə etdiyiniz bütün faylları xüsusi antivirus proqramları ilə yoxlayın.

**Kompüterlərlə iş təcrübəniz daha çoxdursa, aşağıdakılara da əl ata bilərsiniz:**

♦ Sisteminizi bütün fayl uzantılarını göstərəcək hala gətirin. Bu, icra oluna biləcək faylları ayırd etmək üçün əlavə vasitədir. Bu, habelə ikili uzantılı faylları da (məs. "picture.jpeg.vb") müəyyənləşdirməyə kömək edəcək.

♦ Əldə etdiyiniz hər hansı bir icra oluna biləcək faylı xüsusi proqramlarla yoxlamamış işə salmayın. Bu, habelə hər hansı bir arxivdəki fayllara və ssenari fayllarına (vbs, js) aiddir.

♦ İnternet səyyah proqramlarınızda (brauzerdə) icra olunan fayllar üçün qadağa və ya sual verərək icra olunması rejiminin aktiv olduğunu yoxlayın. Bu, İnternet səhifələrində olan viruslarla müdafiə üçün lazımdır.

♦ Sistemin BIOS-unda **boot-sektor** müdafiəsi rejiminin aktiv olmasını yoxlayın, bu, köhnə virusların kompüterin diskini yoluxdurmasının qarşısını ala bilər.

♦ BIOS-da yüklənmə ardıcıllığının '**C: only**' (yalnız **C:** diskindən) olmasını təmin edin. Bu mümkün olmasa, ilk yüklənmənin sərt diskdən edilməsini təmin edin. Bu, disket və ya CD-lərdə yüklənmə zamanı icra edilən proqramların qarşısını ala bilər.

- Poçtla gələn faylların ayrıca, sistem qovluqlardan xaric qovluqların daxilinə açılmasını yoxlayın.
- Ən effektiv müdafiə yollarından biri bütün sistemin xüsusi antivirus proqramları ilə vaxtaşırı yoxlanılması hesab oluna bilər. Başqa alqoritmlərlə bərabər, bu yoxlama faylların tərkibinin dəyişilməsinə də əsaslanır (virusla yoluxmuş proqram faylının tərkibi və həcmi dəyişir).
- Hətta antivirus yoxlanmasını müvəffəqiyyətlə keçən, lakin etibarlı olmayan mənbələrdən əldə edilmiş proqramları işə salmayın. Antivirus heç də 100% zəmanət vermir.
- Sistem diskinin işlək variantının ehtiyat nüsxəsini saxlayın, bu halda virusa yoluxmuş sistemi ehtiyat nüsxəsindən bərpa edə bilərsiniz.
- Sisteminizin disklərini mütəmadi olaraq **ScanDisk**lə yoxlayın. Bu, birbaşa viruslara aidiyyəti olmayan bir əməliyyat olsa da, nəticədə bir çox lazımsız faylları ləğv edəcək. Sistemdə lazımsız faylların sayı minimuma gətirilsə, viruslarla mübarizə də asan və daha sürətli ola bilər.

### Haker hücumları

Qlobal şəbəkədə haker adlandırılan xeyli sayda İnternet istifadəçisi var ki, gecə-gündüz zərərli və dağıdıcı proqramlar yazmaq və İnternetdə yaymaqla məşğuldurlar. Məqsədyönlü şəkildə, müəyyən qrupların təsiri altında fəaliyyət göstərən hakerlər İnternetin normal fəaliyyəti üçün təhlükə mənbəyidirlər və onlarla mübarizə aparmaq xeyli çətindir. Özlərini təsdiqləmək üçün hakerliyə meyil edənlər isə sonda ciddi şirkətlər tərəfindən işə qəbul edilərək faydalı fəaliyyətlə məşğul olurlar.

Ən geniş yayılan haker hücumları adətən başqasının İnternetə daxil olmaq və e-mail qəbul etmək üçün istifadə etdiyi parolunun ələ keçirilməsi ilə bağlıdır.

Müxtəlif proqramlardan istifadə edərək kompüterlərin IP-ünvanlarını öyrənən hakerlər başqa kompüterdə olan və parolla qorunmayan ümumi istifadəli fayllara (sharing) asanlıqla daxil olurlar.

Son dövrlərdə daha geniş vüsət alan təhlükə isə kəşfiyyatçı proqramlar adlanan script və ya viruslardır. Müxtəlif üsullarla (e-poçt vasitəsilə, İnternetdə təhlükəli hesab edilən saytlarda gəzişmələr edərkən və s.) kompüterinizə daxil olan bu cür proqramlar, sözün həqiqi mənasında, əsl kəşfiyyatçı rolunu oynayırlar. Bu cür proqra-



mın daxil olduğu kompüterdəki bütün informasiyalar və istifadəçinin kompüterdəki bütün hərəkətləri həmin proqram vasitəsilə İnternet üzərindən gizli olaraq onu hazırlayana göndərilir. Kəşfiyyatçıları kompüterinizdə aşkara çıxarmaq və qarşısını almaq üçün **Ad-Aware** (www.lavasoftusa.com) proqramından istifadə edə bilərsiniz. Bu proqram əməli yaddaşı, sərt diski və "Windows"un reyestrini yoxlayır və kəşfiyyatçı proqramları aşkarlayır.

Ümumiyyətlə, İnternetdə informasiya təhlükəsizliyini təmin etmək istəyirsinizsə, antivirus proqramlarından birinin kompüterinizdə olması və onun daim yeniləşdirilməsi zəruri şərtlərdəndir. Tanınmış antiviruslardan bəziləri bunlardır: **Norton Antivirus** (www.symantec.com), **McAfee** (www.mcafee.com), **Kaspersky Antivirus, Doctor Web** və s.).

Kompüterinizi kənar müdaxilədən qorumaq, ümumiyyətlə sizdən icazəsiz heç bir əməliyyatın baş verməməsini istəyirsinizsə, "ZoneAlarm" (http://www.zonelabs.com) proqramından (pulsuz versiyası da var) istifadə edə bilərsiniz. Lakin bütün bunlar heç də tam təhlükəsizlik təminatı demək deyil.

## Uşaqların təhlükəsizliyi

İnternet cəmiyyətin bir hissəsi olduğundan burada lazımsız, zərərli və hətta zorakılığı, pornoqrafiyanı, terrorizmi təbliğ edən səhifələrə də rast gəlmək mümkündür. Bu cür halların qarşısını almaq üçün müxtəlif dövlətlər, beynəlxalq qurumlar və ictimai təşkilatlar tərəfindən tənzimləyici və özünütənzimləyici tədbirlər görülür. İnternet arxitekturasının mürəkkəbliyi səbəbindən bəzən bu cür inzibati-texnoloji tədbirlər o qədər də effektli olmur. Odur ki, İnternetdə bu cür qeyri-qanuni, mənəvi-əxlaqi dəyərlərə zidd olan hərəkətlərin qarşısını almaq üçün hər bir İnternet istifadəçisi də mübarizə aparmalıdır. Xüsusən uşaqları bu cür səhifələrin təcavüzündən qorumaq üçün valideynlər mühüm rol oynamalıdırlar

Valideynlərin və həmçinin ictimai İnternet mərkəzlərinin rəhbərlərinin İnternetdəki bu cür qeyri-qanuni səhifələrdən uşaqları qoruması üçün "Internet Explorer" proqramında da xeyli imkan nəzərdə tutulub. Bunun üçün proqramın **Tools** menyusundan Internet **Options/Content (Məzmun)** bəndini seçməklə müxtəlif səhifələrə məhdudiyyətlər qoymaq olar.

Bu məqsədlə müxtəlif çeşidləyici (filter) proqramlardan da istifadə etmək olar. Hətta burada parametrlərin dəyişdirilməsinin qarşısını almaq üçün şifrə də qoymaq nəzərdə tutulub. *Sex, Erotika, Porno* sözünün qeyd olunması o deməkdir ki, bu məzmunlu səhifə heç vaxt açılmayacaq.

Bu istiqamətdə ən geniş yayılan proqramlardan "NetNanny" (www.netnanny.com), "CyberPatrol" (www.cyberpatrol.com), rus versiyalı "Little Brother" və "Cyber Sneep"i göstərmək olar. Qeyd olunan proqramları testdən keçirmək və müəyyən müddət pulsuz işlətmək mümkündür.

Ümumiyyətlə, informasiya təhlükəsizliyi və İnternetin özünün təhlükəsizliyi, normal fəaliyyəti məsələsi artıq inkişaf etmiş ölkələrin və bir sıra beynəlxalq qurumların diqqət mərkəzində olan problemə çevrilib. 2004-cü ilin martında Polşada Azərbaycan da daxil olmaqla 40 Avropa ölkəsinin iştirakı ilə bu problem ətrafında Ümumavropa Forumu keçirilib. Artıq Avropa ölkələrinə kibertəhlükəsizlik sahəsində müvafiq məsləhət xidmətləri göstərən İnternet və İnformasiya təhlükəsizliyi üzrə Avropa Agentliyi (ENISA) fəaliyyətə başlayıb.

## Bunları yadda saxlayın:

İnternetə daxil olmaq üçün istifadə etdiyiniz parolu **Save password** və ya rusdilli saytlarda **Автосохранение пароля** menyularından istifadə edərək yadda saxlamayın (bu tövsiyə daha çox İnternet klublarından və ictimai İnternet mərkəzlərindən istifadə edənlərə aiddir).

İnternetə qoşulmuş kompüterdəki ümumi istifadəli **(sharing)** fayllara parol qoyun.

İnternet səhifələrinə daxil olarkən bəzən ekrana tanımadığımız, şübhəli görünən pəncərə çıxır. Bu cür pəncərələrdə heç vaxt **Yes** düyməsini basmayın. Əks halda kompüterinizə müxtəlif lazımsız proqramlar və ya **Script**lər yüklənə bilər. **Dialer** adlanan bu cür proqramlar son dövrlərdə bir çox İnternet istifadəçisinə, o cümlədən rabitə qovşaqlarına başağrısı gətirib. Belə proqramlar əsasən porno, videoporno saytları vasitəsilə yayılır. Əgər bu tip



proqramlar İnternetə qoşulmuş kompüterinizə yüklənibsə və telefon xəttinizdə beynəlxalq kanal açıqdırsa, onda kompüterinizin sizdən xəbərsiz digər beynəlxalq bir "xidmətlə" əlaqə yaratmaq ehtimalı böyükdür.

İnternetdə hər hansı bir keçidi vuran zaman müəyyən səhifənin açılması əvəzinə bir pəncərə görünə bilər. Pəncərədə **Open** və **Save** sözü qeyd edilir. Bu zaman birbaşa **Open** sözünü qeyd etməmək məsləhət görülür. Çünki **Save** menyusunu seçməklə əldə etmək istədiyiniz faylı kompüterinizin hansısa kataloqunda saxlaya, onunla yaxından tanış ola bilərsiniz. **Open** düyməsi vasitəsilə birbaşa açılan faylda virus olarsa, onda kompüteriniz də virusa yoluxacaq.

E-mail vasitəsilə kimsə sizə məktubla bərabər əlavə olunmuş (attachment) faylı da göndərmişsə, yenə də **Save** menyusundan istifadə etmək məsləhət görülür. Göndərilən faylda virus ola bilər!

Pulsuz E-mail xidmətlərindən istifadə edərkən poçtunuzu yoxlamaq üçün, təbii ki, şifrə daxil etməlisiniz. Bu zaman **Save passvord,** rusdilli saytlarda **Автосохранения пароля** tipli sözlər çıxa bilər. Heç vaxt **Yes** düyməsini basmayın. Əks halda kənar bir şəxs tərəfindən səhifəniz vasitəsilə məktublarınız asanca oxuna bilər. Məktublarınızı oxuyub qurtardıqdan sonra E-mail proqramını bağlamağı **(Çıxış, Log out** düyməsi vasitəsilə) unutmayın. Yadda saxlayın ki, bu düyməni basmadan pəncərəni bağlamaq bu cür E-mail proqramından çıxmaq demək deyil.

Alış-veriş etdiyiniz saytların təhlükəsizlik qaydalarını diqqətlə yoxlayın. İnternet vasitəsilə birinci alış-verişi təcrübəli dostlarınızın köməyilə etməniz tövsiyə olunur.

Tanımadığınız, şübhəli görünən e-mailləri əlavə olunmuş faylları açmadan məhv edin.

İnternetin hansısa xidmətindən istifadə zamanı problem yaranarsa, həmin xidməti göstərən resursda FAQ yazısı varsa, ləngimədən ora baş vurun.

FAQ (Freduently Asked Questions) – tez-tez soruşulan suallar anlamını verir. Burada xidmət göstərilməsi ilə bağlı yaranacaq problemlərin aradan qaldırılmasını nəzərdə tutan suallar və onların cavabları olur.

## İnternetin gələcəyi. Veb 2.0

Hazırda özünün potensial texnoloji parametrlərinə və mövcud imkanlarına görə İnternetin ən yüksək inkişaf səviyyəsinə çatdığı bildirilir. Ekspertlər 2006-cı ildə dünya əhalisinin 15 %-nin İnternetdən istifadə etdiyini qeyd edirlər.

2012-ci ilədək dünya əhalisinin 25-30%-nin İnternetə qoşulacağı proqnozlaşdırılır. Viruslar və spam bir daha İnternetin ən qatı düşməni hesab edilir. Təhlükəsizlik probleminin İnternet üçün yenə də ən ciddi problem olaraq qalacağı bildirilir.

İnternetin genişlənməsi, yeni tələblərə cavab verməsi üçün onun arxitekturasında bundan sonra da ciddi keyfiyyət dəyişikliyinin edilməsi təklif olunur.

Hazırda uzun illər istifadə olunan klassik İnternet texnologiyalarının tam sürətlə təkmilləşdirilməsi prosesi gedir.

Bu istiqamətdə artıq bir neçə təklif üzərində iş aparılır: İnternet-2 layihəsi, yeni web-xidmətlərin yaradılması, İnternetdə yeni informasiya-məlumat bazalarının yaradılması və s.

**Yeni nəsil İnternet saytları – Veb 2.0**

Veb 2.0 nədir?

Veb 2.0 texnologiyaları deyildikdə bura həm yeni veb-dizayn, brauzer-server arasında məlumatın yeni ötürülmə texnikası və nəhayət, insanların İnternet saytlarında cəmiyyət yaratmasını aid etmək olar. Buna baxmayaraq Veb 2.0 heç də İnternetin texniki baxımdan dəyişməsini nəzərdə tutmur, Veb 2.0-da isitifadə olunan texnologiyalarin bir çoxu Veb-in ilk günlərindən movcuddur.

2004-cü ildə “O'Reilly” və “MediaLive International” arasında keçirilən konfrans zamanı “Dale Dougherty” tərəfindən ortaya atılan Veb 2.0 termini yeni yaranan İnternet texnologiyalarının ümumi adı kimi qısa zamanda populyarlıq qazandı.

Veb 2.0 saytların köhnə saytlardan (adətən Veb 1.0 kimi adlandırılan) əsas fərqlərindən biri onların öz ətraflarında istifadəci cəmiyyətləri yaratmasıdır. Əgər köhnə saytlarda əsasən bir istifadəci (saytın sahibi) digər istifadəcilərə məlumatı çatdırırdısa, Veb 2.0-da butün istifaçilər bir-birinə məlumatı otürərək paylaşırlar. Aydınlıq gətirmək üçün bir misal göstərək:

Veb 1.0: İnternet istifadəçisi çəkdiyi videonu öz saytında nəşr edir(yerləşdirir) və digər istifadəcilər onun saytına daxil olaraq onu izləyir (bir-çoxluq).



Veb 2.0: İnternet istifadəçiləri çəkdikləri videoları *YouTube.com* saytında nəşr edərək *YouTube* və İnternet istifadəçilərilə paylaşır (çoxluq-çoxluq). Cavab olaraq paylaşdığı insanlar video haqda öz rəylərini mətn və ya video ilə bildirirlər. Nəticədə bir qrup istifadəçi bu video ətrafında kiçik bir cəmiyyət yaradırlar.

Bu cur misalları başqa medialar üçün də göstərmər olar, məs: şəkillər üçün ***Flickr.com***, *bookmarking* ***Del.isio.us***, *ensiklopediya* ***Vikipedia***, *xəbərlər* ***Digg.com***.

Veb 2.0-a təkan verən texnologiyalar: **vebbloq, viki, podcast, RSS feeds.**

Ümumiyyətlə, Veb 2.0 daha dinamik və interaktivdir.

Bütün bunlara baxmayaraq, heç kim Veb 2.0-ın dəqiq mənasını bilmir, bu termin əsasən yeni nəsil saytları adlandırmaq üçün ümumiləşdirilmiş jarqon sözdür.

İnternetin gələcəyi ilə bağlı son təkliflərdən biri də “Intel” şirkəti tərəfindən təqdim edilən “PlanetLab” sisteminin qurulmasıdır. Bu sistem İnternetdə yaradılacaq xeyli sayda yeni xidmət üçün platforma rolunu oynamalıdır.

Sistemin aşağıdakı keyfiyyətlərinin olduğu bildirilir: İnternetdəki trafikin optimal üsulla paylaşdırılaraq ötürülməsi (bu halda real vaxtda videoötürmə TV-də olduğu kimidir), Qlobal şəbəkədə virus hücumlarının monitorinqi və s. “PlanetLab” sistemi bütün İnternet trafikini ani olaraq monitorinq edir – virus hücumları ilə bağlı vəziyyəti, konkret haradan-haraya hücum olduğunu real bir vaxtda xəritə şəklində ekrana çıxarır.

Hazırda “Planetlab” texnologiyasının təkmilləşdirilməsi üzərində iş aparılır.

İnterneti öyrənməyin ən asan və səmərəli yolu elə İnternetə səyahətə çıxmaqdır. Bu sətirləri oxuyursunuzsa, deməli, hər bir səyahət üçün zəruri olan BƏLƏDÇİ sizinlədir.

# II FƏSİL

# Azərbaycan İnterneti



## Azərbaycan İnternetinin tarixi

Azərbaycanda ilk dəfə olaraq 1991-ci ildə elektron poçt xidmətindən istifadə edilməyə başlanıb. Beynəlxalq şəbəkəyə bağlantı Rusiyanın "Relcom" şirkətinə məxsus kanallar vasitəsilə həyata keçirilirdi. Bağlantının sürəti isə cəmi 9600 Kbit/s olub. "Relcom" da öz növbəsində cəmi 2 Mbit/s sürətlə Avropanın nəhəng EUnet şəbəkəsi vasitəsilə Qlobal Şəbəkəyə bağlanırdı. Azərbaycanda o dövrdə istifadə edilən e-poçt ünvanlarının forması indi çoxlarında nostalji hisslər də oyada bilər: postmaster2@azerbaijan.su (su – Soviet Union).

1994-cü ilin əvvəllərində Elmlər Akademiyasının AİS (Avtomatlaşdırılmış İdarəetmə Sistemləri) şöbəsində (indiki AMEA İnformasiya Texnologiyaları İnstitutu) Azərbaycanda ilk dəfə İnternetə qoşulma həyata keçirilib. Qlobal Şəbəkəyə bağlantı üçün Avropa (Türkiyə) kanallarından istifadə edilib. Bağlantının sürəti 9600 Kbit/s olub. Hazırda ölkənin xeyli sayda elmi-tədqiqat institutlarını, digər elm və təhsil qurumlarını birləşdirən AzRENA şəbəkəsinin özəyi də EA-nın məhz həmin qurumu tərəfindən qoyulub. AİS-in o vaxtkı rəhbərinin isə indiki rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov olduğunu burada qeyd etmək, yəqin ki, yerinə düşər.

1996-cı ildə **"İntrans"** şirkəti tərəfindən Azərbaycanda ilk dəfə olaraq kommersiya məqsədilə İnternet xidmətləri təklif edilməyə başlanıb. İnternetə qoşulmaq üçün Rusiyanın kanallarından istifadə edilib. İlkin dövrlərdə sürət 64 Kbit/s olub.

Uzun müddət İnternet ölkəmizdə bahalı bir xidmət növü olaraq qalıb. İlkin dövrlərdə ölkəmizdə İnternetin 1 saatının qiyməti təxminən 12 $ olub. "Azerbaijan Internet Service" (AIS) və "Sinam-İnvest" provayderləri fəaliyyətə başladıqdan sonra (1997-ci ildə) bu qiymət 6 $, Azerin provayderi fəaliyyətə başladıqdan sonra (1998-ci ildə) qiymət sahəsində ciddi islahat baş verdi və İnternetdən 1 saatlıq istifadə haqqı 3 $ oldu.

İnternetin formalaşması ilə bu istiqamətdə ictimai institutlaşma da inkişaf etməyə başlayıb. 1997-ci ildə yaranan və 1998-ci ildə informasiya texnologiyaları sahəsində ictimai qurum kimi ilk rəsmi dövlət qeydiyyatına alınan "Multimedia" İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzi İnternetin populyarlaşması, onun müxtəlif subyektləri arasında münasibətlərin, ümumiyyətlə İnternetin tənzimlənməsi və özünütənzimləməsi sahəsində fəaliyyətə başlayıb.

2001-ci ildə yaradılan və 2005-ci ldə dövlət qeydiyyatından keçən

Azərbaycan İnterent Forumu Azərbaycan İnternetinin bir infrastruktur kimi formalaşmasında, populyarlaşmasında, tənzimləmə və özünütənzimləmənin inkişaf etdirilməsində mühüm rol oynayıb.

Obyektivlik naminə qeyd etmək lazımdır ki, İnternet xeyli müddət ölkəmizdə əsasən yerli və xarici şirkətlərin, beynəlxalq qurumların dəstəyi ilə inkişaf edib. İlkin dövrlərdə Azərbaycanda İnternetin inkişafında Açıq Cəmiyyət İnstitutu – Yardım Fondunun (Soros Fondu) xüsusi rolu olub, sonralar isə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Avrasiya Fondu, IREX və digər beynəlxalq qurumlar tərəfindən dəstəklənən layihələr bu sahədə əhəmiyyətli rol oynayıb.

2004-cü ilin əvvəllərindən etibarən ölkədə ilk dəfə olaraq İnternetin inkişafına məsul olan dövlət qurumu müəyyənləşdirilib, Azərbaycanda İnternetin inkişafına birbaşa dövlət dəstəyi göstərilib. Büdcədən bu sahənin inkişafına yönələn maliyyə vəsaitləri ayrılıb və büdsə strukturunda dəyişiklik edilərək dövlət qurumlarının xərclər bölməsində ayrıca İnternet xərcləri bəndi əlavə olunub. Dövlət strukturlarının rəsmi saytlarının formalaşdırılmasına, təhlükəsizliyinin təmin edilməsinə ciddi diqqət yetirilməyə başlanıb.

## Azərbaycan İnternetinin ilkin inkişaf dövrü. Azərbaycanda "İnternet məhkəməsi"

Təəssüflə qeyd olunmalıdır ki, rabitə sahəsində dövlət siyasətinin həyata keçirilməsinə cavabdeh qurum ilk vaxtlarda Azərbaycan İnternetinin inkişafına lazımınca diqqət yetirməyib. Hətta bir çox halda məhdudiyyətlər də tətbiq edilib. Məsələn, ölkə qanunvericiliyində nəzərdə tutulmadığı halda keçmiş Rabitə Nazirliyi (RN) İnternet xidmətlərinin göstərilməsi üçün lisenziya tələb edib. Monopoliya altında saxlamaq üçün İnternet xidməti rabitə xidməti kimi təqdim olunurdu. 1996-cı ilin sentyabrında ölkədə ilk dəfə olaraq İnternet sahəsində lisenziya alan "SinamInvest" birgə müəssisəsinin lisenziyasında fəaliyyət növü olaraq məhz "İnternet-data rabitə xidməti" qeyd edilib. Provayderlərə tətbiq olunan ayrı-seçkilik siyasəti, güclü dövlət monopoliyası sonda ölkənin milli İnternet infrastrukturunun formalaşmasını ləngitdi. Rabitə Nazirliyinin az qala bütün telekommunikasiya operatorları ilə məhkəmə çəkişmələri adi hala çevrilmişdi. Uzun müddət ölkədə provayderlər arasında trafik ötürülməsi üzrə şəbəkələrarası mərkəz yaradılmadı. Yəni, bir provayderin xidmətindən istifadə edəcək İnternetə daxil olan istifadəçinin küçənin o biri tayında olan provayderin müştərisinə göndərdiyi məktubun ünvana çatması üçün bütün dünyanı fırlanması lazım gəlirdi.

2001-2002-ci illərdə RN tərəfindən Azərbaycan İnternetinin inkişafını ləngidən daha bir addım atılıb. RN-in əmri ilə ümumi telefon şəbəkəsindən istifadə edərək İnternetə qoşulmaq istəyənlərdən aylıq abunə haqqından başqa 20.000 manat (4 manat) da əlavə haqq tələb olunur. Bu məhdudiyyət dövlət provayderinin istifadəçilərinə tətbiq edilmirdi. Bu qeyri-qanuni "İnternet haqqını" ödəməyənlərin telefonu dərhal kəsilirdi. Səlahiyyətli dövlət qurumlarının razılıq vermədiyi, bir sıra ali hakimiyyət nümayəndələrinin qəti etiraz etdiyi RN-in həmin aktı il yarım məhkəmə çəkişmələrinin predmetinə çevrildi. Bir sıra ictimai qurumlar, media vasitələri uzun müddət RN ilə mübarizə aparmalı oldular. Azərbaycan İnternetində heç bir siyasi-ideoloji senzura olmadığı halda, RN tərəfindən "texnoloji-inzibati" senzuranın tətbiqi o dövrdə bir sıra beynəlxalq təşkilatların da diqqətini cəlb etmişdi. Üst-üstə 20-dək hakim bu "İnternet məhkəməsi"nin işlərinə baxıb. Nəhayət 2002-ci ilin sonunda Tarif Şurası "İnternet haqqı"nın 6-7 dəfə azaldılması haqqında qərar qəbul etdi.

2003-cü ildə Azərbaycan İnternet Forumunun müraciətindən sonra, yeni yaradılmış RİTN-in təklifi əsasında qeyri-qanuni "İnternet haqqı" birdəfəlik ləğv edildi. Ədalət naminə qeyd etmək lazımdır ki, həmin dövrdə ölkədə bir sıra dövlət orqanlarının və dövlət məmurlarının, qeyri-hökumət təşkilatlarının və KİV-in birgə apardığı mübarizə Azərbaycan İnternetinin formalaşmasında, ümumiyyətlə ölkədə İnternetin populyarlaşmasında və ictimailəşməsində olduqca mühüm rol oynadı.

## Uğurlar. Dövlət dəstəyi

Ötən illər ərzində Azərbaycan İnternetində ciddi keyfiyyət və kəmiyyət dəyişiklikliyi baş verib. Xüsusən son illərdə Azərbaycan İnternetinin inkişaf tempi xeyli artıb.

2003-cü ilin fevralında Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycanda İnformasiya və Kommunikasiya Texnologiyalarının inkişafı üzrə Milli Strategiya"nın təsdiq edilməsi Azərbaycan İnternetinin inkişafında dövlətin rolunu önə çəkdi.

2004-cü ilin fevral ayında ölkə Prezidentinin RN-in ləğvi və onun bazasında Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaradılması haqqında fərmanı informasiya texnologiyaları (İT) ilə bağlı dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi sahəsinə kifayət qədər aydınlıq gətirdi. Bu sənəd qəbul edilənədək İT bazarının iştirakçıları arasında bu sahə ilə bağlı dövlət qurumlarından və məmurlarından kimin rəyinin əsas götürülməsində birmənalı mövqe yox idi.

Ölkə Prezidentinin 10 avqust 2004-cü il tarixli fərmanı ilə ölkənin İT tarixində ilk dəfə olaraq "İnternetə dövlət dəstəyi" ifadəsi ölkənin rəsmi sənədlərində öz əksini tapdı. Sənəddə ölkədə İnternetin inkişafı üçün RİTN-in dövlət qurumu olaraq məsuliyyət daşıdığının qeyd edilməsi Azərbaycan İnternetində yeni bir dövrün başlanğıcı deməkdir. Fərmanda informasiya texnologiyalarının, o cümlədən İnternetin inkişafı istiqamətində dövlət proqramının hazırlanması nəzərdə tutulurdu. 2005-ci ilin oktyabrında belə bir dövlət proqramı qəbul edildi.

Prezidentin 5 noyabr 2004-cü il tarixli fərmanı ilə dövlət orqanlarının İnternet şəbəkəsinin yaradılması, inkişaf etdirilməsi və təhlükəsizliyinin təmin edilməsi Xüsusi Dövlət Mühafizə Xidmətinə həvalə olunub. Nazirlər Kabinetini 16.02.2007-ci il tarixli qərarı ilə "Dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması formaları və qaydaları" təsdiq edilib.

Hazırda bilavasitə dövlətin dəstəyi və beynəlxalq qurumların iştirakı ilə ölkədə İT və İnternetin inkişafına yönələn bir neçə layihənin həyata keçirilməsinə başlanılıb.

Hər il keçirilən "BakuTel – telekommunikasiya və informasiya texnologiyaları" sərgisi ölkədə İnternetin və ümumiyyətlə informasiya texnologiyalarının inkişafında xüsusi rol oynayır.

2005-ci ildən başlayaraq Azərbaycan İnternetində ən yaxşı İnternet resurslarının müəyyən edilməsi məqsədilə keçirilən "Netty" (www.netty.az) müsabiqəsi ölkə İnternetinin inkişafında müsbət rol oynayıb.

2008-ci ilin martında TQDK tərəfindən abituriyentlərin ərizələrinin İnternet üzərindən qəbul edilməsini gerçəkləşdirən sistemin təqdimatı keçirilib. Bu xidmətin internet vasitəsilə həyata keçirilməsi, şübhəsiz ki, internetin populyarlaşmasında mühüm rol oynayacaq.

2006-cı ildən etibarən hər il xüsusi metodika əsasında dövlət qurumlarının rəsmi İnternet resurslarının monitorinqi aparılır, informasiya açıqlığı üzrə reytinq cədvəli hazırlanır (www.informasiya.org). Bütün bunlar milli İnternet resurslarının inkişafında mühüm rol oynayır.



## Azərbaycan İnternetinin statistikası

Ötən illər ərzində Azərbaycan İnternetinin inkişafı istiqamətində dövlətin dəstəyi ilə bir sıra uğurlu layihələr gerçəkləşib. Dövlət, özəl və vətəndaş cəmiyyətinin birgə iştirakı ilə "AzNet"in inkişafı, İnternetin populyarlaşdırılması istiqamətində müəyyən addımlar atılıb.

2005-ci ilin sonunda ölkə rəhbəri tərəfindən çoxdan gözlənilən "İnformasiya əldə edilməsi haqqında" qanunun imzalanması Azərbaycan İnterneti üçün olduqca ciddi bir hadisə idi. Ölkə qanunvericiliyi tarixində ilk dəfə olaraq informasiyanın açıqlanması üçün dövlət qurumları tərəfindən İnternet resursunun yaradılmasının məcburiliyi qeyd edilib. Ötən dövr göstərir ki, bu qanunun qəbulu dövlət qurumlarının İnternet resurslarının formalaşmasına və inkişafına, ümumiyyətlə ölkədə İnternetin inkişafına ciddi təsir göstərib.

Ümumiyyətlə, son dövrlərdə ölkədə İnternet istifadəçilərinin və web-resursların sayının hissolunacaq dərəcədə artması müşahidə edilir. Rəsmi rəqəmlərə görə, hazırda ölkədə bir milyonadək insan İnternetdən istifadə edir. Müstəqil ekspertlər isə İnternetdən müntəzəm istifadə edənlərin sayının bu rəqəmdən az olduğunu bildirirlər

2005-ci ildə Heydər Əliyev Fondu tərəfindən yaradılan nəhəng milli informasiya resursunun – www.azerbaijan.az portalının ən yüksək səviyyədə təqdimatının təşkili mühüm hadisə idi və "AzNet"ə rəsmi diqqətin artmasından xəbər verirdi.

2007-ci ilin sonunda Prezidentin rəsmi saytında, eləcə də bir sıra digər rəsmi dövlət saytlarında vətəndaşların birbaşa müraciət etmək imkanlarının yaradılması mühüm bir addım idi.

Müxtəlif sosial təbəqələr, qruplar arasında İnternetdən istifadənin səviyyəsi müxtəlifdir. Telekommunikasiya və İT sektorunda, media sahəsində, iri xarici şirkətlər və beynəlxalq qurumlar arasında, şou-biznesdə, son dövrlərdə isə yüksək dövlət qurumlarında İnternet daha geniş tətbiq edilir. Son dövrlərdə dövlət və QHT sektorunda, yerli biznes və bank sektorunda, təhsildə İnternetdən istifadənin tempi sürətlə artmaqdadır, həmçinin təhsil sektorunda birbaşa İnternetin inkişafına yönələn dövlət proqramının qəbul edilməsinə hazırlıq görülür.

Hazırda müxtəlif nazirlik və dövlət komitələrinə məxsus 50-dək web-sayt fəaliyyət göstərir. Vergilər Nazirliyi, Daxili İşlər Nazirliyi, RİTN vətəndaşlarla və hüquqi şəxslərlə əlaqələrin qurulmasında, interaktiv xidmətlərin təşkilində İnternetin imkanlarından da-

ha səmərəli istifadə edir. Bir sıra rəsmi qurumlar tərəfindən informasiya texnologiyalarından istifadə ilə bağlı rəsmi tədbirlərin keçirilməsi uğurlu perspektivdən xəbər verir.

Hələlik ölkədə hökumət qurumlarının vahid İnternet portalı yaradılmayıb.

Media Azərbaycan İnternetində ən aktiv inkişaf edən sahələrdən biridir. Kütləvi informasiya vasitələri ilə bağlı 150-dən çox milli web-resurs fəaliyyət göstərir. Çap formasında yayılan qəzet və jurnallara məxsus 100-dən çox İnternet saytı mövcuddur. Deməli olar, bütün populyar qəzetlərin İnternet versiyaları aktiv şəkildə fəaliyyət göstərməkdədir.

Ölkədə fəaliyyət göstərən 500-dək aktiv QHT-nin xeyli hissəsi İnternetdən müntəzəm istifadə edir, 65 QHT-nin web-saytı var. Bu resurslar əsasən xarici donorların dəstəyi ilə yaradılıb.

Eyni zamanda ötən il RİTN və Dünya Bankının dəstəyi ilə ölkədə informasiya cəmiyyətinin inkişafına yönələn müsabiqə çərçivəsində bir neçə QHT də İnternet resursu hazırlanmasına start verib.

Ötən dövr ərzində Azərbaycan İnternetində bloqların inkişafı sahəsində də müəyyən uğurlar əldə olunub. 2007-ci ildə "Multimedia" Mərkəzi tərəfindən ACİ–Yardım Fondunun dəstəyi ilə jurnalistlər üçün bloq texnologiyalarından istifadə ilə bağlı treninqlər təşkil olunub (www.cit.az). Bir sıra istimai-siyasi xadimlər, fərdi şəxslər, jurnalistlər artıq bloqlardan xeyli səmərəli istifadə edirlər.

Stabil maliyyə imkanları olmadığından müxtəlif layihələr çərçivəsində qrantlar hesabına yaradılan İnternet resurslarının yeniləşdirilməsi və texniki dəstəklənməsi layihələri başa çatdıqdan sonra ciddi problemlər yaranır. Bu cür milli informasiya resurslarının inkişafının gələcəkdə dövlət hesabına dstəklənməsi milli kontentin formalaşmasında mühüm rol oynaya bilərdi.

Qlobal Şəbəkənin bütün milli seqmentlərində olduğu kimi, Azərbaycan İnternetində də əyləncə xarakterli milli resursların inkişaf tempi xeyli yüksəkdir.

2002-ci ildə milli İnternet ünvanlarının (domenlərin) qeydiyyatı sahəsində liberallaşma həyata keçirildikdən sonra Azərbaycan domeni ilə sayt yaradanların sayı xeyli artıb. Hazırda təxminən 6000-dək sayt 2-ci və 3-cü səviyyəli Azərbaycan domen adları (*.az* domeni) altında qeydiyyatdan keçsə də, onlardan yalnız az bir hissəsi aktivdir. Çünki xeyli sayda istifadəçi və şirkət öz təşkilatlarına və adlarına uyğun gələn domen adları qeydiyyatdan keçirmələrinə baxmayaraq,



bu ad altında resurs yaratmağa tələsmirlər. Ölkə və dünya üzrə tanınmış az qala bütün şirkətlər *.az* domeni ilə öz adlarına uyğun olan bütün milli domenləri qeydiyyatdan keçiriblər. Yəni tanınmış bir şirkət www.şirkətadı.az domeni ilə bərabər, *www.şirkətadı.com.az*, *www.şirkətadı.net.az*, *www.şirkətadı.org.az* və s. bu kimi bütün ünvanları öz adlarına qeydə aldırıblar.

Hazırda İnternetdə Azərbaycanla bağlı neçə milli resursun olduğunu söyləmək çox çətindir. Bununla belə, müxtəlif araşdırmalar aparmaqla Qlobal Şəbəkədə təxminən 35-45 min Azərbaycan İnternet resursunun fəaliyyət göstərdiyi qənaətinə gəlmək olar. Beynəlxalq domen adı altında fəaliyyət göstərən 2000-dək milli İnternet resursu yerli HOSTİNQ şirkətləri tərəfindən qeydiyyatdan keçirilib. Təxminən 6000-dək milli İnternet resursu *.az* domen adı altında fəaliyyətdədir.

Təkcə Bakı şəhərində 350-dək İnternet klubu fəaliyyət göstərir. Maddi problemlərlə əlaqədar evdə İnternet əlçatmaz olduğundan və RN-in məlum "senzurası" ilə bağlı ev telefonlarının kəsilmə ehtimalı böyük olduğundan bir neçə il öncə İnternet klublarının inkişaf tempi yüksək idi. Bu klubların və İnternet-kafelərin əksərində İnternetin keyfiyyəti xeyli aşağıdır. Tarif sahəsində müəyyən liberallaşma aparılandan sonra ayrılmış xətlərlə işləyənlərin sayı artsa da, İnternet klublarının böyük əksəriyyəti hələ də İnternetə Dial-Up rejimində qoşulub və keyfiyyət qənaətbəxş deyil. İstifadəçilərin böyük əksəriyyətini tələbə və gənclər, şagirdlər təşkil edir. İnternet klublarından daha çox elektron məktublaşma, oyun və çat üçün istifadə edilir.

Ümumiyyətlə, ciddi informasiya ehtiyatları hesab ediləcək azərbaycandilli saytların hələlik yetərincə inkişaf etməməsi, xarici dildə olan saytlardan səmərəli istifadənin mümkünsüzlüyü, zəif bağlantı sürəti, son dövrlərdə evdən İnternetə bağlantı imkanlarının genişlənməsi və s. bu kimi səbəblər ucbatından İnternet klublarına maraq bir qədər səngiyib. İnformasiya əldə edilməsi haqqında qanunda nəzərdə tutulan ictimai informasiya mərkəzlərinin yaradılmaması da vətəndaşların hələ də İnternet klublarından istifadə etməsini şərtləndərən amillərdəndir.

Bir neçə il öncə həyata keçirilən NICTS layihəsi çərçivəsində Yevlax, Göygöl (Xanlar), Şamaxı, Kürdəmir, İmişli, Şirvan (Əli Bayramlı), Şəki, Quba, Gəncə və Mingəçevirdə bu cür mərkəzlər açılıb. Hələlik onların statusuna aydınlıq gətirilmədiyindən və bir

sıra infrastruktur problemlərinə görə, onların daha çox kommersiya istiqamətinə meyil etməsi səbəbindən bu mərkəzlərin çoxu əhalinin, xüsusən tələbələrin və şagirdlərin pulsuz İnternetə giriş əldə etməsində elə də ciddi rol oynamır.

Bir sıra bölgələrdə və təhsil müəssisələrində ACİ–Yardım Fondu, "Projects Harmony" və IREX/IATP layihələri çərçivəsində də qeyri-kommersiya məqsədləri üçün İnternetə giriş əldə etmək mümkündür.

Eyni zamanda, ACİ–Yardım Fondunun xətti ilə "Odlar Yurdu" Universitetində, Beynəlxalq universitetdə, "Xəzər" universitetində və Gəncə Dövlət Universitetində regional CISCO laboratoriyaları yaradılıb və fəaliyyət göstərir.

Azərbaycan İnterneti özünün bütün uğurları ilə bərabər regionda ən bahalı İnternet olaraq qalmaqdadır. Ökədə son dövrlərdə Dial-UP İnternet xidmətlərinin saathesabı qiymətlərində ucuzlaşma baş versə də (hazırda (aprel, 2008) 1 saat İnternet 10-30 qəp. təşkil edir), ölkə əhalisinin böyük əksəriyyətinin istifadə etdiyi "Unlimited" İnternet xidməti (aylıq limitsiz İnternet bağlantısı) digər ölkələrlə müqayisədə hələ də baha olaraq qalmaqdadır (təxminən 20-25 manat). Xidmətin keyfiyyəti isə kifayət qədər aşağıdır.

Genişzolaqlı qoşulmaların qiymətlərindəki vəziyyət isə daha acınacaqlıdır. Limitsiz ADSL İnternet xidmətlərinin qiymətlərinin digər ölkələrlə müyayisəsi ölkədə bu sahədə problemin kəskin olduğunu bir daha göstərir.

**Müxtəlif sürətlər üzrə ADSL İnternet xidmətinin (Unlimited) qiymətlərinin (ABŞ $ ilə) MÜQAYİSƏSİ** (yanvar-fevral, 2008)

| Sürət kbit/s | Azərbaycan | Rusiya | Danimarka | Türkiyə | İran | Ermənistan | Ukrayna | Qırğızıstan |
|---|---|---|---|---|---|---|---|---|
| 64 | 50 | 5-10 | | | | | | |
| 128 | 100 | 5-10 | | 15-20 | | | | 51 |
| 256 | 170 | 10-15 | | 15-30 | | | 25 | |
| 512 | 400 | 10-15 | 5-10 | 50 | | | | 95 |
| 1028 | 700 | 25-280 | 10 | 50 | 450 | 580 | | |
| 2048 | 1500 | 30-45 | 10-15 | 75 | | | | |
| 4 Mbit | 3000 | 25 | 40 | 95 | | | | |



2008-ci ilin fevral ayında AİF-in geniş toplantısında ölkədə İnternetin qiymətlərinin endirilməsi və keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı məsələ müzakirə olunmuş, bu sahədə problemin aradan qaldırılması istiqamətində təkliflər hazırlanaraq RİTN-ə təqdim edilmişdir.

Təkliflərdə ölkədə İnternetin inkişaf tempinin daha da artırılmasına, İnternet xidmətlərinin qiymətlərinin endirilməsinə, İnternet bazarında sərbəst və azad bazar rəqabətinin formalaşmasına, dövlət rabitə müəssisələri və özəl provayderlər arasında münasibətlərin ədalətli qurulmasına kömək edəcək müddəalar öz əksini tapıb.

Təkliflərdə dövlət rabitə müəssisələri tərəfindən özəl provayderlərdən hər müştəriyə görə əsassız olaraq tutulan aylıq ödənişlərin dərhal ləğv edilməsi, özəl provayderlərin ATS-lərə ödədikləri avadanlıq və kanal xərclərinin azaldılması istiqamətində RİTN tərəfindən ciddi tədbirlərin görülməsi zəruri sayılıb.

Həmçinin provayderlərin Qlobal Şəbəkəyə bağlantı kanallarının qiymətlərinin endirilməsi imkanlarının bir daha davam etdirilməsi məqsədəuyğun hesab olunub. Bu istiqamətdə hökumətin yardımlarının da nəzərdən keçirilməsinin səmərəli ola biləcəyi vurğulanıb.

Təkliflərdə ölkədə İnternetin kütləviliyinin və populyarlığının artırılmasına, ADSL modemlərinin güzəştli qiymətlərlə satılmasına, ictimai informasiya mərkəzlərinin formalaşdırılmasına xidmət edən proqramların və layihələrin dövlət tərəfindən dəstəklənməsinin vacibliyi qeyd olunub.

Rabitə və informasiya texnologiyaları naziri Əli Abbasova ünvanlanan təkliflərdə həmçinin provayderlərin fəaliyyətində şəffaflığın təmin edilməsi istiqamətində, eyni zamanda İnternet xidmətlərinin keyfiyyətinin və qiymətlərinin vəziyyətinin öyrənilməsi məqsədilə dövlət, biznes və vətəndaş cəmiyyəti qurumlarının iştirakı ilə monitorinqlərin keçirilməsinin əhəmiyyətli olacağı bildirilib.

Kitab yazılan ərəfədə RİTN-də təkliflərin gerçəkləşdirilməsi ilə bağlı müəyyən addımların atılması nəzərdən keçirilirdi.

Ümumiyyətlə, qiymət problemi xeyli müddətdir ki, Azərbaycan İnternetinin ən ağrılı yerlərindən biri olaraq qalmaqdadır. 2005-ci il də Azərbaycan İnternetində qiymət ətrafında yaranan qalmaqalla yadda qalıb. Bir qrup provayder "Azeronline" provayderi tərəfindən aparılan qiyməti aşağısalma siyasətinə etiraz edərək və bunu haqsız rəqabət kimi qiymətləndirərək Antiinhisar Siyasəti

Departamentinə (ASD) müraciət etmişdi. Bu müzakirələrin gedişində məlum oldu ki, əslində haqsız rəqabətin mənbəyini son 2-3 ildə qiymətləri süni surətdə yüksək həddə saxlayan elə həmin bir qrup provayderdə axtarmaq lazımdır. Doğrudan da son illərdə kanal xərclərinin və digər qiymətə təsiredici xərclərin enməsinə baxmayaraq, *Unlimited* xərclərinin yüksək həddə saxlanılması və eyni həcmdə aşağı-yuxarı qaldırılması bir qrup provayder tərəfindən haqsız rəqabət mühiti yaradılmasına şübhələnmək üçün kifayət qədər əsaslar verir.

Provayderlər "Azeronline" şirkətinə təsir etmək üçün qeyri-qanuni üsullardan da istifadə etməyə cəhd göstəriblər. "Azeronline"ın istifadəçilərinə qarşı digər bir qrup provayder tərəfindən ayrı-seçkilik siyasəti aparılmağa, milli İnternet resurslarına qarşı blok tətbiq edilməyə cəhdlər olub. Blokun götürülməsi ilə bağlı ASD-nin 3 yanvar 2006-cı il tarixli qərarı olmasına baxmayaraq, buna əməl olunmayıb. Yalnız AİF-in müdaxiləsindən, problem AİF tərəfindən ictimailəşdiriləndən sonra həmin il 8 yanvar tarixində provayderlər tərəfindən bloka son qoyulub. Problemin həlli istiqamətində AİF tərəfindən aparılan ictimai müzakirələrdə Azərbaycan İnternetinin maraqlarının əsas götürülməsinin vacibliyi, İnternet bazarında sərbəst və azad rəqabətin inkişafı, dövlət inhisarçılığının qarşısının alınmasının vacibliyi xüsusilə vurğulanıb.

Bu problemin həllində Antiinhisar Siyasəti Departamentinin, həmçinin RİTN-in bəzi məmurlarının tutduğu tərəfli və ədalətsiz mövqe problemin mahiyyəti üzrə vaxtında həllinə kömək göstərməyib. Müstəqil ictimai qurumların prosesdə sonadək iştirakına imkan verilməyib.

İddia irəli sürən provayderlərin bir qismi tərəfindən yetərincə dövlət resurslarından istifadə edilməsi, həmçinin nəhəng dövlət inhisarçılarının tərkibində fəaliyyət göstərən provayderlərin mövcudluğu, ümumiyyətlə sektorda dövlət inhisarçılığının hələlik yetərincə olması iddianın ədalətsiz olduğuna dəlalət edirdi.

2006-ci ilin yanvarında iddia irəli sürənlər sıralarının seyrəlməsi fonunda qiymətlərin endirilməsinin qeyri-mümkünlüyünü sübut etməyə çalışdıqları vaxt "Azeronline" tərəfindən *Unlimited* qiymətlər yenidən 30 % aşağı salınaraq 30 manata endirildi. Beləliklə, AİF-in Azərbaycan İnternetinin ictimai maraqlarını ciddi olaraq müdafiə etməsi, müstəqil medianın bu problemi gündəmdə saxlaması öz bəhrəsini verdi və 2006-cı ilin əvvəlindən etibarən bütün provayderlər tərəfindən qiymətlər xeyli endirildi. Lakin qonşu ölkələrlə müqayisədə İnternet xidmətlərinin qiymətləri yüksək olaraq qalmaqda idi.



Qəribədir ki, ictimaiyyətin ciddi təpkisi ilə bu problem yoluna qoyulandan sonra Antiinhiar Siyasəti Departamenti "Azeronline" ilə məhkəmə çəkişməsindən ehtiyatlanaraq öz qərarına yenidən baxmalı oldu və "Azeronline"ın qiymət siyasətində antiinhisar qanunvericiliyinin pozulması halının olmaması ilə bağlı açıqlama vermək məcburiyyətində qaldı.

## Provayderlər

Hazırda ölkədə İnternet xidməti göstərən 30 provayder fəaliyyət göstərir. Hər provayderin spesifik xüsusiyyəti vardır. Provayderlərin böyük əksəriyyəti İnterneti, "DeltaTelekom" ("AzerSat") Birgə Müəssisəsinin köməyi ilə əldə edir. Yəni Azərbaycan İnternetinin əsas **onurğa (backbone)** sütunu hələlik bu sahədə inhisarçı mövqeyə malik "DeltaTelekom" ("AzerSat") şirkətidir. Ölkənin İnternet trafikinin 85 %-i məhz bu qurumun üzərindən keçir. Son illər bu qurum tərəfindən ölkəyə gətirilən İnternet trafikinin həcmi xeyli artırılıb. Provayderlər üçün ölkədaxili informasiya mübadiləsi trafikinin pulsuz həyata keçirilməsi təmin edilib.

"Azeurotel" provayderinin də Qlobal Şəbəkəyə peyk vasitəsilə əlavə bağlantı kanalları mövcuddur.

Hər bir ölkənin İnternet seqmentində provayderlər arasındakı ölkədaxili informasiya mübadiləsinin optimal qurulması mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Qlobal Şəbəkənin üzvü olan ölkələr milli provayderlər arasındakı informasiya trafikinin xarici kanallar üzərindən keçməsinin qarşısını almaq üçün "Internet Exchanges" yaradırlar.

> **Lüğət:** *Internet Exchanges – provayderlər arasında qarşılıqlı informasiya mübadiləsi (trafik mübadiləsi) məqsədilə yaradılmış sistemdir və Azərbaycan dilində informasiya mübadiləsi mərkəzi kimi anlaşılır.*

2004-cü ilədək Azərbaycan İnternet seqmentində İnternet trafiki iki nöqtədə (mərkəzdə) kəsişirdi: "AzerSat" və "Azeurotel". Yəni, ölkə provayderləri arasındakı qarşılıqlı razılaşmaya görə yerli in-

formasiya mübadiləsinin daha optimal qurulması üçün iki provayderlər bloku yaranmışdı. Hazırda isə provayderlər arasında ölkədaxili informasiya mübadiləsi "DeltaTelekom" ("AzərSat") vasitəsilə həyata keçirilir. Beləliklə, artıq bütün yerli provayderlərin informasiya trafikinin kəsişdiyi vahid bir informasiya mübadiləsi mərkəzi yaradılıb. Artıq müxtəlif provayderlərin müştərilərinin ölkədaxili məktublaşması məktub bütün dünyanı fırlanmadan həyata keçiriləcək.

Provayderlər öz xarici kanallarının gücü haqqında məlumat verməyə o qədər də həvəsli olmurlar. Əslində isə İnternet bağlantısının bütün keyfiyyət göstəricisi məhz bu parametrdən asılıdır. Belə ki, statistikaya görə, İnternet istifadəçilərimizin böyük əksəriyyəti İnternetin sürəti aşağı olduğundan vaxtının 90 %-ni səhifənin açılmasını gözləməyə, yalnız qalan 10 %-ni onu oxumağa və baxmağa sərf edir. Dünya praktikası göstərir ki, adətən istifadəçi cəmi 8-10 saniyə saytın açılmasını, 20 saniyə də saytın tam yüklənməsini gözləyir. Əgər belə nəticə əldə etmirsə, artıq başqa sayta üz tutur. Provayderlərin əsas potensialı Bakı şəhərində cəmləşib.

**Azərbaycan provayderləri:**

1. Azeurotel (http://www.azeurotel.com)
2. Azerin (http://www.azerin.com)
3. Adanet (http://www.adanet.az)
4. Elcell (www.elcell.az)
5. AzCom (http://www.azcom.az)
6. AzerSat (http://www.azersat.net)
7. Aztelekom (http://www.aztelekom.net)
8. Azeronline (http://www.azeronline.com)
9. AzStarNet (http://www.simsiz.net)
10. Bakİnternet (http://www.bakinter.net)
11. QalaNet (Sinam) (http://www.sinam.net)
12. Catel (http://www.catel.az)
13. İntrans (www.az)
14. Bakıtelekom (http://www.liderkart.com)
15. Azintex (http://www.azintex.com)
16. Kosmos-s (Oxygen) (http://www.oxygen.az)
17. Aznetkard (http://www.aznetcard.com)
18. Uninet (http://www.azuni.net)
19. Ultra (http://www.ultra.com.az – Wi-Fi texnologiyası)



20. Nakhchyvan.az (http://www.nakhchyvan.az)
21. AzİnternetServis (http://www.azeri.com)
22. AzNet (http://www.aznet.org) – qeyri-kommersiya yönümlü fəaliyyət göstərir
23. Caspian Elektronics (http://caspel.com)
24. Stream (http://www.stream.az)
25. Smart Systems Tecnology (http://smart.az)
26. ExtraNet (http://extranet.az)
27. SkyNet (www.skynet.az)
28. HotNet (http://www.hotnet.az)
29. Nakhİnternet (http://www.nakhinternet.az)
30. Connect (http://www.connect.az)
31. AvirTel (http://www.avirtel.az)

Provayderlərin əksəriyyəti **Dial-Up** bağlantı, birbaşa xətt, hostinq və s. standart xarakterli xidmətlər təklif edir. Daha çox **Dial-Up** qoşulma (telefon vasitəsilə zəng edərək İnternetə qoşulma) geniş yayılıb. Ölkənin İnternet istifadəçilərinin təxminən 60-70%-i **Dial-Up** vasitəsilə Qlobal Şəbəkəyə qoşulur. Onların da yalnız yarısından da az hissəsi *Unlimited* xidmətindən istifadə edir. İstifadəçilərin çox hissəsi 10, 25 və 50 saatlıq kartlar vasitəsilə bağlantıya üstünlük verirlər.

**Qeyd:** *Əvvəllər hansısa ölkədə İnternetə girişin olub-olmaması, İnternet istifadəçilərinin sayı həmin ölkədə informasiya bərabərsizliyi üçün əsas parametr hesab edilirdisə, indi artıq İnternetə genişzolaqlı (sürətli və müxtəlif xidmətlər almağa imkan verən) girişin olub-olmaması Qlobal dünyada informasiya bərabərsizliyini xarakterizə edən əsas amilə çevrilib.*

Eyni zamanda bir sıra provayder **(Azeurotel, Bakİnternet, AzTelekom, İntrans, Uninet, Azeronline, Ultel, Datacell LLC** və s.) yeni texnologiyalar (ADSL, ISDN və s.) vasitəsilə İnternet bağlantısı xidməti təklif edir. Son dövrlərdə ADSL istifadəçilərinin sayı sürətlə artmağa başlayıb. Təkcə 2007-ci ildə 10.000-dək istifadəçinin bu xidmətdən istifadə ilə bağlı müraciət etdiyi bildirilir. Bir sıra hallarda inhisarçı mövqe tutan BTRİB tərəfindən kanalların çəkilişi və aylıq icarə xərci sahəsində provayderlərə tətbiq edilən ədalətsiz tariflər, köhnə telefon infrastrukturunun keyfiyyətsizliyi

və yeni fiziki xətlərin çəkilişindəki süni əngəllər bu cür texnologiyaların inkişafının qarşısını alır. Xüsusilə bu cür tariflər dövlət provayderlərinə tətbiq edilməyəndə haqsız rəqabət mühiti yaranır ki, bu da sonda "AzNet"in inkişafına ciddi əngəllər yaradır. Son dövrlərdə bu sahədə liberallaşma aparılmasına RİTN tərəfindən ciddi diqqət yetirilməyə başlanıb. ADSL xidmətlərinin qiymətləri ilə bağlı məlumatları həmin qurumların saytlarından əldə etmək olar.

2004-cü ildən etibarən "Azeurotel" Birgə Müəssisəsi və "Bakİnternet" (BTRİB) ən yeni texnologiyalar tətbiq etməklə telefon abunəçilərinin özlərinə məxsus olan adi mis məftil vasitəsilə genişzolaqlı qoşulma (7.5 Mbit/s-dək), kabel TV, IP-telefon, adi telefon, multimedia rabitə xidmətləri təklif etməyə başlayıblar. Dünyada çox geniş yayılan bu cür genişzolaqlı qoşulma zamanı bir telefon xətti vasitəsilə eyni vaxtda İnternetdə işləmək və telefondan da sərbəst istifadə etmək mümkün olur. Sürət isə kifayət qədər yüksək olur.

CATEL şirkəti tərəfindən CDMA texnologiyası ilə rəqəmsal simsiz (naqilsiz) İnternet xidməti təklif edilir. Bu xidmətin əsas üstünlüyü ondan ibarətdir ki, Bakı şəhəri və Abşeron ərazisində eyni bir telefon nömrəsindən, deməli, İnternetdən həm evdə, həm ofisdə, həm maşınınızda istifadə edə bilərsiniz. Sürət 64-153 Kbit/s-dir.

2006-cı ildən həm də mobil operator kimi lisenziya alan CATEL şirkəti artıq Gəncə, Nabran, Xudat və Şəmkirdə də xidmət göstərməyə başlayıb.

Son illərdə ölkədə simsiz İnternet bağlantılarından istifadə edənlərin sayı da artmaqdadaır. "Datacell LLC" şirkəti tərəfindən İnternetə iBurst texnologiyaları əsasında naqilsiz mobil qoşulmaq üzrə göstərilən xidmət (elcell) maksimal 1 Mbit/s sürət əldə etməyə imkan verir. Heç bir telefon xəttinə ehtiyac olmadan bu İnternet xidmətindən istifadə etmək üçün adıçəkilən şirkət tərəfindən təqdim olunan xüsusi modemlərdən (nootbuk və stolüstü kompüterlər üçün fərqli olan) istifadə olunur. Əsasən Bakı və Abşeron zonasını əhatə edən bu xidmət növü haqqında daha geniş məlumatı onun saytından əldə edə bilərsiniz.

Wi-Fi (Wireless Fidelity) – şəbəkə texnologiyası vasitəsilə İnternet xidməti göstərən şirkətlər də artıq Bakı şəhərində fəaliyyətə başlayıblar. Bu texnologiya ilə qurulmuş şəbəkədə adi məftili Hot-Spot qurğusu əvəz edir. Bu texnologiyanı dəstəkləyən cib kompüterləri və noutbuk vasitəsilə müəyyən ərazi dairəsində simsiz olaraq İnternetə daxil olmaq mümkündür. Maksimum məsafə 300 m-dir.



Wi-Fi texnologiyası İnternetə müasirlik və mobil xüsusiyyət verir. İnkişaf etmiş ölkələrdə çox sürətlə yayılan bu texnologiya insanlara bütün ictimai yerlərdə (aeroportlarda, təhsil müəssisələrində, biznes mərkəzlərində və s.) İnternetə daxil olmaq imkanı yaradır. Bakı şəhərində ilk dəfə bu texnologiya "Ultra" şirkətinin xətti ilə Milli parkda (bulvarda) – Biznes Mərkəzində quraşdırılıb. Son dövrlərdə Azərbaycan İqtisad Universitetində, Bakı Dövlət Universitetində və digər ictimai əhəmiyyətli yerlərdə də bu cür mərkəzlər yaradılıb. Hazırda 30-dək yerdə bu texnologiya fəaliyyət göstərir.

Təsəvvür edin ki, bulvarda gəzirsiniz və birdən sizə İnternet lazımdır. Əgər laptopunuz (və ya cib kompüteriniz) özünüzlədirsə və siz Biznes Mərkəzinin 300 m-lik ətrafındasınızsa, onda Wi-Fi vasitəsilə İnternet əlinizin altındadır.

Ötən ildən "HOTNET" provayderi də Wi-Fi texnologiyası əsasında İnternet xidmətləri göstərməyə başlayıb.

Bununla belə, qeyd etmək lazımdır ki, digər ölkələrlə müqayisədə Wi-Fi texnologiyası bizdə xeyli zəif inkişaf edib.

"Azeurotel", "Azintex", "Liderkart", "Oxygen", "Azeronline", "İntrans", "Aztelekom", "Azerin", "Nakhchyvan.az" və s. digər provayderlər müxtəlif saatlar üzrə İnternet kartları vasitəsilə də xidmət təklif edirlər. Qoşulma ilə bağlı şərtlər, provayderlərin tarifləri ilə onların saytlarında ətraflı məlumat verilir.

Son dövrlərədək ölkədə birbaşa xətlə İnternetə qoşulanların sayı da olduqca az idi. Bu sahədə tariflərlə bağlı müəyyən islahatlar aparıldıqdan sonra artım müşahidə edilməkdədir. Ayrılmış xətlə İnternetə giriş istifadəçinin istəyindən və büdcəsindən, onun yerləşdiyi yerdən asılıdır.

## Bölgələrdə İnternet

İnternetin Azərbaycanda coğrafiyası da genişlənməkdədir. 2002-2003-cü illərdə bölgələrə fiberoptik kanalların çəkilişi regionlarda İnternetin inkişafına müəyyən təkan verdi. Artıq ölkənin əksər regionlarında İnternet xidmətləri təklif edilir. Şəhərlərarası beynəlxalq kanallar və beynəlxalq TAE fiberoptik kanalının istismarı hələlik dövlətin inhisarında olduğundan bölgələrdə bu xidməti əsasən dövlət provayderi olan "Bakİnternet" və yeni yaranmış dövlət

provayderi “Aztelekom” təklif edir. 2005-ci ildə RİTN tərəfindən bu istiqamətdə müəyyən liberallaşma aparılmasına cəhdlər edilsə də bölgələrdə sərbəst və azad rəqabət sahəsində ciddi bir irəliləyişə nail olunmayıb.

Gəncədə, Lənkəranda, Mingəçevirdə ACİ–Yardım Fondunun xətti ilə pulsuz İnternet xidməti təklif edən ictimai mərkəzlər fəaliyyət göstərir. Bu mərkəzlər QHT üçün Dial-Up formasında pulsuz İnternet bağlantısı da təşkil edir. Yeganə qüsur ondan ibarətdir ki, kanalların sürəti kifayət qədər zəifdir.

Bölgələrdə də İnternet klublarının açılması prosesi başlayıb. Hazırda Gəncədə, Mingəçevirdə, Şəkidə, Balakəndə, Qubada və s. bölgələrdə xeyli sayda İnternet klubları fəaliyyət göstərir. Ümumiyyətlə, əyalətlərdə 1 saatlıq İnternetin qiyməti təxminən 40 qəpikdir. İstifadəçilərin böyük əksəriyyəti gənclərdir.

2004-cü ildən ölkənin bütün regionları üzrə yeni İnternet xidməti mərkəzləri yaradılmağa başlanıb. Respublika üzrə 6 regional mərkəzdə (Sumqayıt, Şəki, Gəncə, Lənkəran, Mingəçevir, Qubada) quraşdırılmış müasir avadanlıqlar sayəsində Azərbaycanın istənilən nöqtəsindən İnternetə yüksək sürətli və keyfiyyətli qoşulmanın təmin edilməsi nəzərdə tutulub. Layihə “AzTelekom”un xətti ilə həyata keçirilir.

Bir neçə bölgədə “Azeronline” və “Azeurotel” şirkətləri də fəaliyyət göstərir. Hazırda “Azeronline” Culfa, Gəncə, Naxçıvan, Sumqayıt, Qəbələ və Şəkidə İnternet xidməti təklif edir. İnternet bağlantısı yaratmaq istəyən istifadəçilər beynəlxalq çıxışla deyil, xüsusi nömrə ilə “Azeronline” serverinə zəng edirlər.

Gəncədə və Mingəçevirdə “Azeurotel”in də İnternet xidmətlərindən istifadə edilir.

CATEL şirkəti də artıq bölgələrə doğru hərəkət etməyə, 2003-cü ildə bütün Naxçıvan Muxtar Respublikası üzrə xidmət göstərən “Karvan” provayderi fəaliyyətə başlayıb.

Düşünürük ki, telekommunikasiya sahəsində özəlləşmə başa çatdıqdan və stabil inkişaf üçün zəruri şərt olan azad və sərbəst rəqabət yarandıqdan sonra bölgələrdə İnternet yüksək templə inkişaf edəcək və əhalinin xeyli hissəsi informasiya mübadiləsi üçün vacib olan elektron poçt xidmətindən səmərəli istifadə edə biləcək.

Eyni zamanda, dövlət tərəfindən bölgələrdə ictimai informasiya mərkəzlərinin yaradılması İnternetin inkişafında, ciddi bir problem olan informasiya bərabərsizliyinin aradan qaldırılmasında mühüm rol oynaya bilərdi.



## Domen.az

Yuxarıda qeyd olunduğu kimi, İnternetdə adlar zonasının müəyyənləşdirilməsi məsələsi ilə ICANN adlı qeyri-kommersiya təşkilatı (www.icann.org) məşğuldur. Bu qurumun təqdimatı ilə Qlobal Şəbəkədə Azərbaycanın milli İnternet ünvanlarının (*az* domeni) qeydiyyatını 2008-ci ilin əvvəllərinədək “Azerbaijan Communication” (“AzCom”) şirkəti həyata keçirib. Hazırda bu səlahiyyət İntrans şirkətindədir. Bu, əslində, məsələnin hüquqi tərəfidir. Qeydiyyatla elə uzun müddətdir ki, faktiki olaraq “İntrans” şirkəti və onun razılığı ilə “Network Technologies” şirkəti məşğul olur. Obyektivlik naminə qeyd etmək lazımdır ki, indiyədək *az.* domen zonasında domen adlar sisteminin normal işi təmin olunmuş, sistem hakerlərin hücumuna tab gətirmişdir. Bu kitab yazılan ərəfədə milli internet ünvanların qeydiyyatının yerli qanunvericiliyə və beynəlxalq normalara uyğun olaraq legitimləşdirilməsi istiqamətində RİTN və əlaqəli ictimai qurumların iştirakı ilə işlər görülməkdə idi.

Ümumiyyətlə, *domen az*-la bağlı problem uzun müddət həm İnternet ictimaiyyəti, həm də bəzi dövlət qurumlarının diqqət mərkəzində olub. Bir neçə il öncəyədək milli İnternet ünvanlarının qeydiyyatı sahəsində hədsiz dərəcədə dözülməz bir mühit formalaşmışdı. Qeydiyyatla bağlı heç bir qayda mövcud olmadığından, qeydiyyat haqqı da hədsiz dərəcədə baha idi.

> 2001-ci ildən etibarən “Multimedia” Mərkəzinin xətti ilə “Beynəlxalq standartların Azərbaycan İnternet infrastrukturuna tətbiqi” layihəsi çərçivəsində əlaqədar və maraqlı tərəflərin iştirakı ilə ictimai müzakirələr təşkil edildi (http://www.cit.az/domen_az.htm).

“AzCom”un özünün də iştirakı ilə keçirilən bu müzakirələrdən sonra qeydiyyat sahəsində müsbət istiqamətdə müəyyən islahatlar həyata keçirildi. Beynəlxalq təcrübə öyrənildi, müəyyən qaydalar hazırlandı, qeydiyyat haqqı 6-7 dəfə aşağı salındı. Təəssüf ki, keçmiş Rabitə Nazirliyinin tutduğu qeyri-konstruktiv mövqe islahatları sona çatdırmağa, bütün İnternet ictimaiyyətinin maraqlarını ifadə edən kollegial ictimai qurum yaratmağa imkan vermədi. Səbəb isə RN-in qeydiyyat prosesini təklikdə həyata keçirmək istəyi ilə bağlı idi. Buna isə İnternet ictimaiyyəti razılıq vermədiyindən, həmçinin ölkədə İT ilə bağlı dövlət siyasətini həyata keçirən dövlət qurumu formalaşmadığından məsələ “donduruldu”.

NICTS layihəsi (www.nicts.az) fəaliyyətə başladıqdan sonra *az.* domeninin qeydiyyat prosesinin legitimləşdirilməsi üçün şərait yarandı. Qeydiyyat prosesinin beynəlxalq standartlara uyğunlaşdırılması ilə bağlı Azərbaycan İnternet Forumu layihənin kordinatoru M.Abbaszadəyə müraciət etdi. Təəssüf ki, bu dəfə də qeydiyyatın dövlət monopoliyasına alınması üçün daha orijinal üsul tapıldı. TQDK rəhbərinin təşəbbüsü ilə İnternet ictimaiyyətinə dəxli olmayan bəzi şəxslərin iştirak etdiyi İnfotex adlı ictimai qurum yaradıldı və dərhal qeydiyyatdan keçirildi. Plana görə, milli İnternet ünvanlarının qeydiyyatı ilə "İnfotex" deyil, "AzCom" və "İntrans"ın iştirakı ilə yaradılan "AzNIC" MMC məşğul olmalı idi. O zaman bir sıra dövlət və özəl qurumlar, ictimai təşkilatlar yeni qurumun yaradılması prosedurunun qeyri-şəffaf olduğunu, İnternet ictimaiyyətinin maraqlarının təmin olunmadığını və qeydiyyatla bağlı beynəlxalq prinsiplərin kobudcasına pozulduğunu əsas tutaraq bu prosesdə iştirakdan imtina etmişdilər. Süni surətdə yaradılmış hansısa kommersiya və ictimai qurumun İnternet ictimaiyyətinin adından danışmaq səlahiyyətinin olmadığı bəyan edilmişdi. Beynəlxalq qurumların da mövqeyi birmənalı idi: "Lokal qeydiyyat qurumları yerli İnternet ictimaiyyəti qarşısında məsuliyyət daşıyırlar". ICANN bu qurumu tanımaqdan imtina etdi. Əslində, sonradan məlum oldu ki, qeydiyyatla bağlı səlahiyyətli qurum olan "AzCom" tərəfindən "AzNIC"-ə tam səlahiyyət deyil, yalnız adi qeydiyyatçı kimi fəaliyyət göstərməklə bağlı səlahiyyət verilibmiş. Beləliklə, qısa müddət ərzində ölkədə milli ünvanların qeydiyyatını (əgər buna qeydiyyat demək olardısa) heç bir səlahiyyəti olmadığı halda "AzNIC" həyata keçirməli oldu.

Domen adlar bazasının İntransın sərəncamında olması, formal olaraq ünvanyoxlama və ərizə qəbuletmə prosesinin isə M.Abbaszadənin nəzarəti altında olan "İnfotex"də olması, əslində, gülünc və acınacaqlı bir şərait yaratdı. Hansısa domen adını qeydə aldırmaq üçün "İnfotex"ə ərizə təqdim şəxs "İntrans"a gedib çatınca məlum olurdu ki, həmin domen adı artıq qeydə alınıb.

Nəhayət, 2004-cü ilin martında İnternet ictimaiyyətinin ciddi narazılığı və ictimai təpkisi nəticəsində "AzNIC" tərəfindən qeydiyyata son qoyuldu.

Rabitə Nazirliyinin ləğvi və İT sahəsində dövlət siyasətinin aparılmasına cavab verən dövlət qurumunun yaradılması yenidən milli İnternet ünvanlarının qeydiyyatının legitimləşdirilməsi məsələsini gündəmə gətirdi. AİF, "Multimedia" Mərkəzi və özəl şirkətlər tərəfindən bununla bağlı yeni yaradılmış rabitə və informasiya texnologiyaları naziri Əli Abbasova müraciət edildi. Nazirliyin mövqeyi isə kifayət qədər demokratik oldu: Azərbaycanın informasiya fəzasının formalaşmasında ciddi strateji əhəmiyyəti olan milli İnternet ünvanlarının qeydiyyatı prosesi beynəlxalq standartlara uyğunlaşdırılmalıdır. Beləliklə, dövlət, özəl, ictimai və elm təşkilatların iştirakı ilə İnternet ictimaiyyətinin maraqlarını ifadə edən kollegial bir qeydiyyat qurumunun yaradılması ilə bağlı razılıq əldə edildi. Şəffaf və mükəmməl online qeydiyyat mexanizminin yaradılması, qeydiyyat qurumlarının sayının bir neçə sayda olması nəzərdə tutulur.

2005-2006-cı illərdə bu qurumun yaradılması istiqamətində RİTN-də Azərbaycan İnternet Forumunun, AİC-in, AMEA İTİ-nin, "İntrans"ın iştirakı ilə bir neçə dəfə müzakirə aparılıb və Azərbaycan İnternet Qeydiyyat Qurumunun (AİQQ) Təşəbbüs Qrupu yaradılıb.

21 sentyabr 2006-cı il tarixdə Azərbaycan İnternet Qeydiyyat Qurumu tərəfindən "Milli İnternet ünvanları və Azərbaycan İnternetinin inkişafı" mövzusunda keçirilən müzakirədə bu haqda ictimaiyyətə məlumat verilib.

AİQQ-in təşəbbüsü ilə 1 oktyabr 2006-cı il tarixdən milli İnternet ünvanlarının qeydiyyat xərci 30 % endirilərk 20 manat müəyyən olunub və beynəlxalq domenlər altında fəaliyyət göstərən milli İnternet resursların pulsuz olaraq *.az* domeni ilə də qeydə alınacağı bildirilib.

Bununla belə, müxtəlif səbəblərdən, xüsusilə də yaranacaq qurumun səlahiyyətləri, tərkibi, səlahiyyətin "AzCom"dan yeni quruma keçirilməsi ətrafında fikir ayrılıqları olduğundan, son dövrlərdə isə bu məsələdə RİTN elə də ciddi prinsipiallıq göstərmədiyindən AİQQ-in hüquqi status qazanması istiqamətində real nəticəyə gəlmək mümkün olmayıb.

Bir daha qeyd etmək istərdik ki, kitab çapa hazırlanarkən bu istiqamətdə işlərin davam etdirilirdi və bu məqsədlə RİTN-ə yenidən rəsmi təkliflər göndərilmişdi.

Məlum olduğu kimi, beynəlxalq aləmdə artıq ayrı-arı ölkələrə məxsus milli əlifbalar üzrə domen adların qeydiyyatı prosesi başlanıb. Azərbaycan İnternet Forumunun 11 aprel və 16 iyul 2007-ci il tarixli toplantılarında milliləşdirilmiş domen adların (*azər.net, xəbər.az* və s.) Azərbaycan İnternetində istifadəsinin mümkünlüyü və iki hərfdən ibarət milli domenlərin (*ms.az, ah.az* və s.) qeydiy-

yatı ilə bağlı məsələlər müzakirə edilib. Milliləşdirilmiş domen adlardan istifadə zamanı milli İnternet seqmenti və xarici İnternet istifadəçiləri üçün müxtəlif yanaşmalar ola biləcəyi vurğulanıb. Milliləşdirilmiş domenləri yalnız alternativ, əlavə domen adı kimi istifadəsinin əhəmiyyətli olacağı haqqında fikirlər səslənib. Bu məsələdə Azərbaycan İnternetinin maraqlarının əsas tutulmasının zəruriliyi qeyd edilib.

AİF-in toplantısında milli domen qeydiyyatçıları tərəfindən ikihərfli domen adların qeydiyyatının aparılmamasına münasibət bildirilib. Bu sahədə bəzi şirkətlərin iki və ya üçhərfli domenlərin mövcudluğunun hazırda İnternet bazarında haqsız rəqabət mühiti yaratdığı qeyd olunub. Bu tip domenlərin sayının kifayət qədər məhdud olması, məxsusi qeydiyyat prosedurunun vacibliyi, ticarət nişanlarına malik qurumlar üçün bu tip domenlərin qeydiyyatının mümkünlüyü ətrafında müzakirələr aparılıb. Toplantıda mövcud qanunvericiliyə uyğun qeydiyyat qurumu formalaşanadək yalnız ticarət nişanlarına malik ikihərfli domen adların qeydiyyatının məqsədəuyğun olması və bununla bağlı müvafiq qurumlara müraciət edilməsi haqqında qərar qəbul olunub.

İnternetdən çox istifadə edənlər bilirlər ki, ad məsələsi İnternetdə hər şeyi həll etməsə də, çox şeyi həll edir. İnternetin yazılmamış qanununa görə, İnternetdə nəsə axtararkən brauzerdə müvafiq ünvan yerinə ilk növbədə onun adına uyğun gələn bir ad (ünvan) daxil edilir. Məsələn, Azərbaycan haqqında məlumat almaq istəyən hər kəs ilk növbədə fikirləşmədən www.azerbaijan.com, www.az və s. bu kimi domen adlara müraciət edəcək. Təsəvvür edin ki, İnternetdə hansısa bir məşhur adam haqqında məlumat axtarırsınız. Təbii ki, ilk növbədə onun adına uyğun gələn bir domen ada müraciət edirsiniz. Qarşınızda pornoqrafik bir səhifə açılır. Və yaxud da hansısa bir tanınmış biznes qurumunun adına uyğun olan bir domen ada müraciət edirsiniz ki, onun məhsulları ilə tanış olasınız. Qarşınızda eyni bir məhsul buraxan tamam başqa bir biznes qurumunun səhifəsi açılır. Bu isə artıq o deməkdir ki, İnternet ünvanları yalnız ad mahiyyəti daşımır, onun siyasi və iqtisadi əhəmiyyəti də danılmazdır.

Bu sətirlərin müəllifi bir neçə il öncə domen adlar sahəsində apardığı araşdırma nəticəsində olduqca maraqlı və təəccüblü faktlarla qarşılaşmışdı. Məlum olmuşdu ki, ölkəmizdəki bütün tanınmış adamların, hətta onların ailə üzvlərinin də adlarına uyğun olan domen adlar xarici (ola bilər ki, yerli) istifadəçilər tərəfindən artıq qeydə alınıb. Onların marağı isə əsl ad sahiblərindən domen adının geri qaytarılması üçün xeyli pul qoparmaqdır. Bəzən bu cür tanınmış adamları şantaj etmək üçün onların adı altında fəaliyyət göstərən İnternet resurslarına cürbəcür əxlaqsız informasiyalar da yerləşdirilir.

Ümumiyyətlə, İnternetdə həmişə gözəl, qısa və tanınmış adlar uğrunda mübarizə gedib. İnternetin daha bir yazılmamış qanununa görə, gözəl və məntiqi seçilmiş adı (ünvan) gələcək uğurun yarısı hesab olunur. Adların alış-verişi ilə bağlı İnternetdə nəhəng biznes formalaşıb. Müxtəlif məşhur şirkətlərin və şəxslərin adlarına uyğun olan domen adları qanunsuz qeydiyyatdan keçirənlərlə bağlı qalmaqallar indi də davam etməkdədir.

İnternet adlar sahəsində yaranmış situasiyanı nəzərdən keçirən ICANN ABŞ hökumətinin tövsiyəsi ilə 24.10.99-cu il tarixdə qeydiyyatla bağlı xüsusi qaydalar və mübahisəli adların həlli üzrə xüsusi qurum yaratmışdır.

Qaydaların əsas mahiyyəti ondan ibarətdir ki, əgər kimsə öz əmtəə nişanını rəsmi olaraq qeydiyyatdan keçiribsə, başqa heç kim o nişana uyğun adı özünün İnternet adı kimi qeydiyyata ala bilməz. Məsələn, heç kim əsl sahibinin razılığı olmadan www.coca-cola.az adını qeydiyyatdan keçirə bilməz.

Yuxarıdakı qeydlərdən aydın olur ki, İnternetdə adın mövcudluğu heç bir zaman-məkan çərçivəsinə sığmır və adı birinci qeydə aldıran hər kəs (təbii ki, həmin ad kiminsə ticarət nişanı deyilsə) həmin ad üzərində ömürlük külli ixtiyar və səlahiyyət sahibi olur. İnternetdə adlar sistemi formalaşarkən müxtəlif ölkələrin müxtəlif hüquqi sistemləri nəzərə alınmadığından mübahisəli adlar məsələsinin həlli həm yerli, həm də beynəlxalq hüquqi aktlar vasitəsilə nizamlanır. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanunu da bu sahədə müəyyən rol oynaya bilər.

## Milli kontent (Məzmun)

Azərbaycan İnternetində müxtəlif mövzuda informasiya ehtiyatlarının sayının artmasını müsbət keyfiyyət kimi də qeyd etmək olar. Milli İnternet seqmentində xeyli sayda azərbaycandilli kataloq və kitabxanalar fəaliyyət göstərməyə başlayıb. İctimai, siyasi, iqtisadi və mədəni həyatın bütün sahələri ilə bağlı ciddi İnternet resursları, hətta məlumat bazaları yaradılıb və fəaliyyət göstərməkdədir.

Ali hakimiyyət orqanlarının, əksər nazirliklərin və dövlət komitələrinin, ictimai-siyasi qurumların, kütləvi informasiya vasi-

tələrinin və biznes qurumlarının azərbaycandilli İnternet saytları yaradılıb.

Real həyatda bir infrastruktur kimi formalaşan Azərbaycan mətbuatı elə virtual dünyada da olduqca yüksək templə inkişaf edir. Nəinki əksər qəzetlərin, elektron KİV-in azərbaycandilli İnternet resursları, eyni zamanda ancaq İnternet vasitəsilə yayılan online informasiya subyektləri, ölkə miqyasında nəhəng hesab edilə biləcək mətbuat portalı yaradılıb. Xeyli sayda qəzet və informasiya agentliyi bu İnternet resursunun köməyi ilə həm xəbər yaymaqla, həm də özlərinin reklamı ilə məşğuldur. Artıq Azərbaycanda yeni media növü olan İnternetMedia formalaşıb.

2003-cü ilin prezident seçkilərində, 2005-ci ilin parlament seçkilərində Azərbaycan İnterneti kifayət qədər aktiv iştirak edib. Xüsusilə son parlament seçkilərində informasiya mübadiləsi prosesində "AzNet"in rolu kifayət qədər yüksək olub.

Təəssüflə qeyd etmək lazımdır ki, yalnız tanışlıq xarakteri daşıyan, informasiya kasadlığı olan, sadəcə hansısa qurumun reklamı olan saytlar da Azərbaycan İnternetində xeyli saydadır. Xüsusən real imkanlar olduğu halda dövlət orqanlarının İnternet resurslarının əksərində vətəndaşlar üçün ciddi əhəmiyyət kəsb edən interaktiv xidmətlər göstərilmir. Dövlət qurumlarının əlində olan, hətta elektron formada olan informasiyanın əhaliyə çatdırılması üçün İnternetdən səmərəli istifadə edilmir. Nəhəng informasiya ehtiyatlarına malik Bakı Şəhər İcra Hakimiyyətinin, Nazirlər Kabinetinin ciddi İnternet resurslarının yaradılmaması yalnız təəssüf və təəccüb doğurur. Bununla belə, qeyd etmək lazımdır ki, informasiya əldə edilməsi haqqında qanunun qəbulundan sonda sonra bu sahədə vəziyyət müsbət istiqamətdə daha sürətlə dəyişməyə başlayıb.

Azərbaycan İnternetinin populyarlaşması istiqamətində son dövrlərdə İTV və ANS TV tərəfindən də, həmçinn ANS ÇM, İctimai Radio və "Azadlıq" radiosu tərəfindən müəyyən addımlar atılıb.

Son 1-2 il ərzində sanballı milli İnternet resurslarının hazırlanması sahəsində ciddi irəliləyiş olub. Xüsusilə İT və digər özəl şirkətlər, dövlət qurumları və az sayda olsa da, bələdiyyələr bu sahədə xeyli qabağa gediblər. Elektron media sahəsində, bank sektorunda da ciddi irəliləyiş əldə edilib.

## Milli kontent və şrift problemi

Yuxarıda qeyd olunduğu kimi, mili informasiya resurslarının istehsalında şrift problemi də ciddi, hətta müstəsna əhəmiyyət kəsb



edən məsələlərdəndir. Məhz bu problemlə bağlı, təbii ki həm də istifadəçi auditoriyası nəzərə alınmaqla uzun müddət Azərbaycanın İnternet resursları ancaq rus və ingilis dillərində hazırlanıb. Son bir neçə ilədək Azərbaycan İnternetində rusdilli və ingilisdilli xətt üstünlük təşkil edirdi. Obyektivlik naminə qeyd etmək lazımdır ki, yalnız şrift problemi deyil, bazara çıxış əldə etmək, populyarlıq qazanmaq üçün də milli saytları ən azı bir neçə dildə hazırlamaq lazım gəlirdi. Elə bunun özünü də Azərbaycan İnternetinin ağrılı yerlərindən hesab etmək olar.

Bir daha qeyd etmək lazımdır ki, 2000-ci ilədək ölkədə heç bir şrift standartı qəbul edilmədiyindən informasiya istehsalçıları, adi istifadəçilər tərəfindən rus və ingilis klaviaturası üzərində cüzi dəyişikliklər etməklə mətn yığılması prosesi həyata keçirilirdi. Ölkədə latın qrafikalı Azərbaycan əlifbası hərflərinin kompüter variantının müxtəlif standartlarının mövcudluğu informasiya texnologiyaları sahəsində uzun müddət bir nömrəli problem olaraq qalıb.

Qeyd etmək lazımdır ki, 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı (latın qrafikasına keçidlə bağlı) bu problemin aradan qaldırılmasında, beynəlxalq informasiya fəzasına Azərbaycanın inteqrasiyası yolunda əhəmiyyətli rol oynadı. Yəni, bu sənədin icrası başlanandan ölkədə beynəlxalq standartlara uyğun saytların yaradılmasına təkan verildi.

29 iyul 2001-ci ildə, nəhayət ki, bu fərmanın icrası məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 141 S saylı sərəncamı qəbul edildi və İnformasiya texnologiyaları sahəsində istifadə olunan latın qrafikalı Azərbaycan əlifbası simvollarının kodları və klaviatura düzümü ilə bağlı standartlar təsdiqləndi. Lakin təəssüf ki, sərəncamda problemin həlli ilə bağlı əlavə tədbirlər nəzərdə tutulmadığından, uzun illər boyu müxtəlif standartlar əsasında yaradılmış milli informasiya resurslarının yeni ölkə standartlarına uyğunlaşdırılması istiqamətində tədbirlər nəzərdə tutulmadığından bu proses xeyli ləng həyata keçirildi.

2003-cü ildə Azərbaycan hökuməti və BMT-nin İnkişaf Proqramının dəstəyi ilə həyata keçirilən NICTS layihəsi çərçivəsində bütövlükdə ölkədə şrift probleminin həlli istiqamətində ciddi addımlar atıldı. Bununla da ölkədə yeni standartlara uyğun informasiya istehsalı üçün gərəkli olan hər bir şey hazırlandı və pulsuz olaraq İnternetdə yerləşdirildi. Beləliklə, artıq bir ildən çoxdur ki, ölkə-

mizdə yeni standartlara uyğun web-saytların hazırlanması və ümumiyyətlə informasiya istehsalı və əvvəllər köhnə şriftlərlə yığılmış informasiya ehtiyatlarının yeni standartlara çevrilməsi üçün bütün şərait yaradılıb. Artıq son dövrlərdə ölkənin müxtəlif web-studiyaları tərəfindən yaradılan bütün resurslar bir qayda olaraq şrift standartlarına uyğun hazırlanır. Lakin təəssüf ki, maarifçilik işinin aşağı səviyyədə olması, informasiyaya ən azı sayğısız münasibət ucbatından hətta dövlət orqanlarının İnternet resursları içərisində də qeyri-standart informasiya ehtiyatları qalmaqdadır.

Yeri gəlmişkən bir daha qeyd edirik ki, köhnə standartlarda olan istənilən mətni, o cümlədən web-resursu (html faylı) bir anda yeni standarta çevirən HTML konverterlerini pulsuz olaraq www.unicode.az və www.azlang.info ünvanından əldə edə bilərsiniz.

2004-cü ildə NICTS layihəsi çərçivəsində Azərbaycan dilində yığılmış mətnlərin orfoqrafik düzgünlüyünü yoxlayan proqram – "AzeriSpellChecker" yaradılması da, fikrimizcə, ölkənin İT sektorunda olduqca mühüm hadisə idi və bunun özü də, güman ki, yeni şrift standartlarına keçidin başa çatmasını sürətləndirəcək (Proqram yalnız standart Azərbaycan əlifbasındakı mətni yoxlayır – **müəllif**). Proqram "Microsoft"un standartlarına uyğundur və pulsuz olaraq www.unicode.az saytından kompüterinizə yükləyə bilərsiniz.

2005-ci ildə domen versiyasının istifadəyə verildiyi "Dilmanc" tərcümə proqramının da bütövlükdə milli İnternet seqmentinin inkişafında mühüm rol oynayacağı şəksizdir.

2007-ci ildə "Windovs XP"-nin Azərbaycan versiyasının hazırlanması, bu kitab çapa hazırlanarkən Azərbaycan dilinə çevrilməsi üçün üzərində iş aparılan milli versiyalı "Ofis" və "Vista" proqramlarının da milli İnternet seqmentinin inkişafında mühüm əhəmiyyətli rol oynayacağı şəksizdir.

## Milli web-saytların yaradılması

Artıq Azərbaycan İnternet seqmentində nəinki ayrı-ayrı təşkilatlar, həmçinin xeyli sayda fiziki şəxslər öz fərdi saytlarını və səhifələrini yaratmaqdadırlar. Bəziləri özlərini təsdiq etmək, özləri haqqında məlumat vermək məqsədi güdür, bəziləri sadəcə pul qazanmaq məqsədi ilə virtual ofis açırlar. Burada qeyd etmək yerinə düşər ki, ümumiyyətlə sayt və ya səhifə yaratmaq elə bir xüsusi bilik tələb etmir. İnternetdə işləməyi bacaran kəs özünə sadə bir web-səhifə hazırlaya bilər. Əslində, ***.htm** və ya ***web-page*** formatında saxlanılmış hər hansı bir adi Word sənədi elə web-səhifə deməkdir. Web-sayt (çox halda buna İnternet sayt da deyilir) isə mahiyyətcə bir-birinə yaxın, təkrarlanan dizayna malik və fiziki olaraq eyni bir web-serverdə yerləşən səhifələrin məcmusu kimi anlaşıla bilər.

Sayt yaratmaq üçün nəzərdə tutulan hipermətn dil proqramları (HTML, PHP, ASP və s.) daha çox professionallar üçün nəzərdə tutulub. Adi qaydada sadə saytlar və səhifələr yaratmaq üçün hazır proqramlar – "Microsoft FrontPage", "Macromedia Dreamweaver" və s. bu kimi proqram təminatları mövcuddur. Azərbaycanda İnternetin sürəti xeyli zəif olduğundan saytları mümkün qədər yüngül elementlərdən istifadə edərək hazırlamaq daha səmərəli olardı. Çoxlu şəkillər olan, animasiyalar və videofayllar yerləşdirilən səhifələri açmaq üçün Azərbaycan istifadəçisi xeyli vaxt sərf etməli olur. Saytınızın istifadəçilər tərəfindən tez axtarılıb tapılmasını istəyirsinizsə, o zaman bütün populyar axtarış serverlərində saytınızı qeydiyyatdan keçirmyiniz vacibdir. Bunun üçün həmin axtarış serverlərində **Add URL** və ya **Submit a site** keçidlərindən (linklərindən) istifadə etməlisiniz. Bir daha təkrar edirik ki, saytları hazırlayarkən şrift probleminə xüsusi diqqət yetirilməlidir.

Yuxarıda qeyd olunduğu kimi, ölkəmizdə uzun müddət ayrı-ayrı fiziki və hüquqi şəxslər tərəfindən, eləcə də veb-studiyalar tərəfindən milli İnternet resursları ancaq rus və ya ingilis dillərində hazırlanırdı. Hazırda bu sahədə ciddi irəliləyiş baş verib.

Ölkədə son dövrlərdə, xüsusilə də şrift standartları təsdiqləndikdən sonra azərbaycandilli milli resurslar hazırlamaqla məşğul olan xeyli sayda peşəkar veb-studiyalar yaranıb. Bu cür studiyalar həm də saytınız üçün domen qeydiyyatı, saytın yeniləşdirilməsi və hostinq probleminin həllində sizə yardımçı ola bilər. İstənilən halda veb-studiya ilə müqavilə bağlamaq (qiymət, saytın yeniləşdirilməsi, hostinq, domen qeydiyyatı, saytın təhlükəsizliyinin təmin edilməsi, müəllif hüquqları və s. prosedurları müəyyənləşdirən sənəd) tövsiyə olunur. Saytın hazırlanması üçün müqavilə üzrə nəzərdə tutulan vəsaitin müəyyən hissəsini sayt İnternetdə yerləşdirildikdən və fəaliyyətə başladıqdan sonda ödəmək daha məqsədəuyğun olardı.

Son dövrlərdə Qlobal Şəbəkədə olduğu kimi, Azərbaycan İnternetində də sosialyönümlü resurslar yaranmağa başlayıb:

myxazar.com, www.azeriblog.com, www.azcomonline.net, emi.az sosial şəbəkəsi.

Ölkədə saytların hazırlanması ilə bağlı xərclərin konkret həddi dəqiq müəyyənləşdirilməyib. Hazırda bir web-saytın yaradılması üçün sifarişçi zövqündən asılı olaraq 200-5000 $ arasında xərc çəkməlidir. Hətta 100 $-a da web-sayt hazırlamaq olar. Amma ucuz resurslar bir qayda olaraq lisenziyasız proqramlardan istifadə edilməklə hazırlanır. Sayt yaradılması prosesində qeyri-lisenziyalı və pulsuz proqramlardan istifadə edilməsi sonda ciddi problemlər yaradır. Belə ki, bir sıra hallarda bu tip proqramların zəif cəhətlərini bilən hakerlər, rəqib şirkətlər, elə həmin proqramların istehsalçıları bu proqramlar vasitəsilə hazırlanan və ciddi əhəmiyyət kəsb edən İnternet resurslarını öz iqtisadi, siyasi və ideoloji maraqlarını təmin etmək məqsədilə dağıdırlar.

Professional səviyyəli saytların hazırlanması üçün web-studiyalara müraciət etmək daha səmərəli və doğru olardı. Təəssüf ki, ölkəmizdə professional veb-ustaların zəhməti yetərincə qiymətləndirilmədiyindən bir sıra hallarda onlar daha yüksək əmək haqqı ödənilən yaxın və uzaq xarici ölkələrə üz tuturlar.

Ölkəmizdə fəaliyyət göstərən web-studiyaların bir qisminin adları aşağıda təqdim edilir. Daha geniş məlumatı kitabın 3-cü fəslində əldə edə bilərsiniz.

## Milli web-studiyalar

Web Studio (www.webstudio.az)
DreamArt (http://www.da-az.com)
New Art (http://www.newart-az.com)
Network Technologies (www.nt.az)
Vision (http://www.vision.az)
Webazeri Group (http://www.webazeri.com)
Scissors (http://www.scissors.az)
Flexible Solutions (http://www.fsc.az)
Dizayn Studiyası (http://www.azeriproject.com)
NUR Dizayn (http://www.nur-d.com)



## Azərbaycanda hostinq xidmətləri

Aydındır ki, web-resursu hazırlayıb qurtarandan sonra ona ünvan almaq və İnternetdə yerləşdirmək lazımdır. Yaratdığınız web-saytı hamının həmişə əldə edə bilməsi üçün təbii ki, o, İnternetə həmişə bağlı olan bir kompüterdə, daha doğrusu, web-serverdə olmalıdır. **Bu cür web-server hostinq adlanır.** Bu isə artıq İnternetdə yeni bir xidmət növüdür. Bu xidməti göstərən qurum **hostinq provayderi** adlanır.

Hostinq üçün bu xidmətlə məşğul olan şirkətin nə dərəcədə dayanıqlı olması və keyfiyyətli xidmət göstərilməsini xarakterizə edən parametrlərə diqqət yetirmək vacibdir.

Qiymət mühüm əhəmiyyət kəsb edən amillərdən ən əsasıdır. Məhz Azərbaycan web-serverlərində hostinqin qiyməti kifayət qədər yüksək olduğundan milli İnternet resurslarımızın böyük əksəriyyəti xarici serverlərdə yerləşir. Saytları ölkədə saxlamaq yerli İnternet provayderlərinə, hostinq provayderlərinə sərf etmir. Çünki bu saytlara müraciətlər trafikin həcmini xeyli artırır. Trafiklə bağlı xərclər isə bizdə hələ də yüksək olaraq qalır. Təsəvvür edin ki, hansısa faylı axtaran istifadəçi “sorğu” verən kimi siqnal birinci onun öz provayderinə göndərilir, o isə siqnalı faylın yerləşdiyi serverə – xaricdə olan kompüterə ünvanlayır. Bu, bir yandan vaxt itkisinə səbəb olur, həm də informasiya təhlükəsizliyi üçün təhlükə yaradır.

Azərbaycanda fəaliyyət göstərən hostinq provayderlərin əksərinin web-serveri virtual xarakter daşıyır. Yəni, fiziki olaraq bu web-serverlər Azərbaycandan kənarda, deyək ki, Türkiyədə, Rusiyada və ya ABŞ-da yerləşir. Yerli hostinq provayderləri xarici hostinq şirkətlərindən bəzən bütöv bir kompüteri icarəyə götürərək yerli istifadəçilər üçün hostinq xidməti təklif edirlər. Fiziki olaraq xaricdəki provayderin öz ofisində yerləşən kompüterin (və ya web-serverin) icarəsi üçün yerli hostinq şirkətlər aylıq haqq ödəyirlər.

2006-cı ilin əvvəllərində AİF-in təşəbbüsü ilə bütün maraqlı tərəflərin iştirakı ilə ölkədə milli hostinqin inkişafı ilə bağlı faydalı ictimai müzakirələr keçirilmiş, inkişafa təkan verəcək təkliflər hazırlanaraq RİTN-ə təqdim edilmişdir. RİTN tərəfindən bu təkliflərə ciddi reaksiya verilmiş, istimai əhəmiyyətli milli İnternet resurslara texniki dəstək göstərilməsi ilə bağlı dövlət provayderlərinə rəsmi tövsiyə məktubu göndərilmişdir. Bununla belə, qeyd etmək lazımdır ki, milli hostinq bazarının inkişaf etdirilməsi üçün RİTN tərəfindən, ümumiyyətlə hökumət tərəfindən daha ciddi addımların atılmasına ehtiyac duyulur.

Bir sıra hostinq serverlərində **backup** (faylın ehtiyat variantı) sisteminin olmaması sayt sahiblərini acınacaqlı vəziyyətə salır. "Media Forum"la (www.mediaforum.az) bağlı baş verənlər buna əyani sübut ola bilər. Serverdəki bütün saytların vaxtaşırı ehtiyat variantını yaradan bu sistem müxtəlif səbəblərdən baş verən məlumat itkisinin qarşısını almağa kömək edir.

Hostinq serverində hazırda İnternetin bir nömrəli problemi olan spama və viruslara qarşı antivirus və antispam proqramlarının olması da zəruri şərtlərdəndir.

Ciddi hostinq provayderləri yalnız disk sahəsi təklif etməklə deyil, müştəriyə öz resursu üzərində əməliyyatlar aparmaq (silmək, yeniləmək və s.), e-poçt ünvanları açmaq, yeni kontrol panel istifadəçisi açmaq kimi imkanlar da yaradırlar.

Azərbaycanda hazırda **20-dək hostinq provayderi** var. Onlardan bir qismini veririk:

**İstihost.com** (http://www.istihost.com)
**SaytService** (http://www.sayt.ws)
**Uluhostinq** (http://www.uluhosting.com)
**Bakİnternet** (http://www.bakinter.net)
**AzTelekom.net** (http://www.aztelekom.net)
**Azdata.net** (http://www.azdata.net)
**Absheron.net** (http://www.absheron.net)
**Bakililar.az** (http://www.bakililar.az)
**Qeydiyyat.com** (http://www.qeydiyyat.com)
**Azerinet.com** (http://www.azerinet.com)
**Azerin.com** (http://www.azerin.com)
**Azeurotel.com** (http://www.azeurotel.com)
**Azeronline.com** (http://www.azeronline.com)
**5ci.az (Penki Kontinental)** (http://www.5ci.az)
**Liderkart.com** (http://www.lidercard.com)
**Sahil.info** (http://www.sahil.info)

İnternetdə xeyli sayda pulsuz hostinq də tapa bilərsiniz. Pulsuz hostinqlərin isə xeyli çatışmazlıqları olur. Pulsuz hostinqlərdə adətən sürət xeyli zəif olur, məlumat bazalarının saytda yerləşdirilməsi dəstəklənmir, FTP ilə işləmək məhdudlaşdırılır, bir sıra hallarda trafikə məhdudiyyət qoyulur və s.



Əksər yerli İnternet provayderləri 1-10 Mb həcmində pulsuz hostinq təklif edirlər. Bunun isə yeganə mənfi cəhəti ondan ibarətdir ki, provayderinizi dəyişdikdə ciddi problemlərlə üzləşirsiniz.

"Azeronline" provayderi tərəfindən son dövrlərdə hostinq xidmətlərində ciddi endirimlər edilmişdir. Hazırda bu qurum tərəfindən 0.5 Gb həcmində disk sahəsi ildə təxminən 100 manata (aylıq 8.5 manat) təklif olunur.

## Azərbaycan dilində informasiya axtarışı

Artıq güclü axtarış proqramlarının Azərbaycan versiyaları da hazırlanıb. Hazırda ən güclü, ən populyar axtarış robotu "Google" (www.google.com) hesab olunur. Bu axtarış maşınının Azərbaycan versiyasını www.google.az serverində tapa bilərsiniz. Sorğu üçün olduqca rahat mexanizm nəzərdə tutulub. Axtardığınız sənədin dəqiq tapılması üçün Azərbaycan dilində verilmiş əlavə məlumatları nəzərdən keçirmək tövsiyə edilir.

> Diqqət: Axtarış məqsədilə hansısa sözü daxil edərkən onun hansı şrift standartında yazılmasına diqqət yetirin. Çünki İnternetdə Azərbaycan dilində bir neçə şrift standartında yayılmış informasiyalar var.

Məsələn, əgər siz "Google"də yeni standartda *təhsil* sözü yazsanız, təxminən bir milyonadək səhifə tapacaqsınız. Köhnə şriftlə *təhsil* sözü daxil etsəniz (rus klaviaturası ilə), tapdığınız 2000-dək səhifə, güman ki, əvvəlkilərin içərisində olmayacaq.

Hər hansı mətni axtararkən həmin mətndə ən çox işlənən sözü axtarış maşınına daxil etmək lazımdır. Daha əhatəli mətn üçün bir neçə sözün daxil edilməsi tələb olunur. Müxtəlif ünvanlardan, genişləndirilmiş axtarış üsullarından eyni zamanda istifadə etmək yaxşı nəticə verir. Azərbaycan İnternetinin özünəməxsus azərbaycandilli axtarış sistemləri, təəssüf ki, hələ bir o qədər də inkişaf etməyib. Ümid etmək olar ki, Azərbaycan İnterneti inkişaf etdikcə milli axtarış serverlərimiz də güclü axtarış maşınlarına çevriləcək.

## Azərbaycan domen adlarına uyğun axtarış. Transliterasiya

Bir sıra hallarda lazımi informasiyanı tapmaq üçün URL-axtarış adlanan metod daha konkret nəticələr əldə etməyə imkan verir. Bu üsulla axtarış zamanı açar söz olaraq axtarılan informasiya ilə əlaqəli olan domen ad (ünvan) əsas götürülür. Əksər populyar axtarış sistemlərində mətn üzrə olduğu kimi, müvafiq domen adları üzrə axtarış imkanları da nəzərdə tutulub. Bu üsulla axtarışın çətinliyi milli İnternet resurslarının domen adlarının spesifikliyi ilə bağlıdır. Belə ki, domen adlar, bir qayda olaraq, ingilis əlifbasının simvolları ilə verildiyindən çox hallarda Azərbaycana aid domen adları bu qrafikaya çevirdikdə müəyyən anlaşılmazlıqlar yaranır.

Təkcə "Gəncə" ("gence", "ganja", "ganca"), "Qarabağ" ("karabakh", "garabagh"), "Mingəçevir" ("mingecevir", "mingechevir") və s. sözlərlə bağlı domen adların İnternetdə ən azı bir neçə variantının mövcud olduğu problemin xeyli ciddi olduğunu düşünməyə əsas verir.

Ümumiyyətlə, bir yazı sistemindəki hərflərin başqa yazı sistemi hərflərilə verilməsi bütün dillərə məxsus bir problemdir və bu **transliterasiya** adlanır. Dünyada dillərin transliterasiyası ilə bağlı standartlar olsa da, ölkəmizdə bu sahə, demək olar ki, diqqətdən tam kənarda qalan bir sahə olub. Ehtiyac var ki, Azərbaycan əlifbasının hər bir hərfinin və hərf birləşmələrinin literası müəyyənləşdirilsin və geniş auditoriyaya çatdırılsın. Bu, "ə", "ç", "ü", "ğ", "yev" və s. hərfləri və hərf birləşmələri olan Azərbaycan sözlərinin ingilis variantlarını dəqiqləşdirməyə imkan verərdi. Bununla da bu sözlərə uyğun domen adları İnternetdə tapmaq asan olardı.

Hələlik isə istifadəçilərə tövsiyə olunur ki, milli resursları URL-axtarış üsulu ilə axtarmaq üçün Azərbaycan əlifbası hərflərinin hazırda İnternetdə geniş istifadə edilən sadalanan transliterasiya formaları nəzərə alınsın.



| Hərflər və hərf birləşmələri | Transliterasiya |
|---|---|
| ə | a, e |
| ü | u |
| ğ | kh, g, gh |
| g | g |
| q | q, kh, g, k |
| ı | i, y |
| ö | o |
| ş | sh, s |
| ç | ch, c |
| yev | yev, ev |
| c | c, g, j |
| x | x, kh, h |

Cədvəldən göründüyü kimi, milli domen adlar üzrə axtarış üsulu ilə Mingəçevir şəhərilə bağlı ünvan axtararkən yalnız "mingechevir" sözü ilə kifayətlənmək olmaz. Həmçinin Qarabağla bağlı resurslar yalnız "karabakh" sözü daxil olan domen adlarıyla deyil, eyni zamanda digər ünvanlarla, məsələn "garabagh" sözü olan ünvanla da fəaliyyət göstərir.

## Tənzimləmə və özünütənzimləmə. İnternetin iqtisadiyyatı

Artıq İnternet istifadəçilərimiz İnternet vasitəsilə alış-veriş etmək üçün Beynəlxalq Bankın, "Azeriqazbank"ın və s. bankların adi İnternet kartlarından istifadə edirlər. Hələlik burada üç növ İnternet kartı təklif olunur. Bir İnternet kartının qiyməti 10-25 $-dır. Konkret bir neçə xidmət sahəsi üzrə İnternet üzərindən ödənişlər həyata keçirmək mümkündür.

MDB ölkələrinin əksəriyyətində olduğu kimi, Azərbaycanda da elektron ticarət hələlik inkişaf etməyib. Bu, Azərbaycan üçün müəyyən qədər milli mentalitetlə bağlı problem olsa da, digər tərəfdən, infrastrukturun inkişaf etməməsi ilə bağlıdır.

Bununla belə, son dövrlərdə əksər kommersiya banklarının İnternetə inteqrasiyasını müşahidə etmək mümkündür. Beynəlxaq Bankın "Home Banking" xidmətindən istifadə edənlər İnternet üzərindən öz hesabları haqqında məlumat əldə edə, mobil telefonun danışıq haqlarını və kommunal xərcləri ödəyə bilərlər. İstifadəçilərin İnternet vasitəsilə bu xidmətdən istifadəsi üçün bank tərəfin-

dən təqdim edilən müəyyən formalar doldurulmalı, "İnternet Banking" sisteminə daxil olmaq üçün imza sertifikatı alınmalıdır. Bu üsulla ötürülən hər bir sənəd müştərinin özünə məxsus olan və onun tərəfindən yaradılan elektron imza ilə imzalanır. Hazırda məhdud sayda hüquqi və fiziki şəxslər bu xidmət növündən istifadə edirlər. Son dövrlərdə "AtaBank" tərəfindən də müştərilərə bu cür xidmət göstərilməyə başlanıb. Bu xidmətdən istifadə haqqı illik 5-10 $-dır.

Son dövrlərdə ölkədə yeni bank texnologiyalarının tətbiqi sahəsində liderlik edən Beynəlxalq Bank tərəfindən milli web-resurs sahibləri üçün hələ də elektron ödəmə sistemi yaradılmaması təəssüf doğurur. Yəni, hələlik milli istifadəçilərimiz öz web-saytları və bank hesabları arasında inteqrasiyaya nail ola bilməyiblər. Bankda hesabı olan web-sayt sahibləri öz virtual və real məhsulunun sayt vasitəsilə satışını həyata keçirməkdən məhrumdurlar. Ümumiyyətlə, qəbul olunmuş normalara görə, yalnız əhalisinin ən azı 15 %-nin İnternet istifadəçisi olan ölkələrdə ciddi elektron ticarətdən danışmaq olar.

İnternet reklamının inkişafında son dövrlərdə müəyyən canlanma müşahidə olunsa da, hələlik qənaətbəxş deyildir. Əsas səbəb isə ümumi iqtisadi mühitlə bağlı olmaqla bərabər, Azərbaycan İnternetinin, xüsusilə onun biznes yönümünün zəif inkişafı və İnternet-reklam texnologiyalarının aşağı səviyyəsi ilə əlaqədardır. AİF tərəfindən Azərbaycanda İnternet reklamçılığının inkişafı istiqamətində müəyyən işlər aparıllıb. AİF tərəfindən 16.06.2006-cı il tarixdə əlaqədar qurumların iştirakı ilə təşkil olunan istimai müzakirələrdə ölkədə reklam bazarı təhlil olunmuş, mövcud problemlər və İnternet reklamının imkanları diqqətə çatdırılmış, dünya təcrübəsindən nümunələr gətirilmiş və interaktiv reklam sahəsində standartlar müzakirəyə təqdim edilmişdir. İnternet reklam sahəsinin inkişafı üçün ilk növbədə Azərbaycan İnternetinin inkişaf etdirilməsinin zəruriliyi vurğulanmış, reklamverənlər, sayt sahibləri, reklam agentlikləri arasında əməkdaşlığın gücləndirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyi bildirilmişdir. Bu istiqamətdə maariflənmə işinin aparılması, bu sahədə ictimai qurumların rolunun artırılmasının vacibliyi qeyd edilib.

Ölkədə hələlik daha çox informasiya istiqamətli və əyləncə xarakterli saytlara reklamlar verilir. Ən çox reklam verənlər isə İT sahəsində, bank sektorunda, avtomobil və tikintidə çalışan qurumlardır. Saytın populyarlığından asılı olaraq orada yerləşdirilən reklam bannerinin qiyməti ayda 100-300 manat arasındadır. Artıq ölkədə elə sayt var ki (www.day.az), onun bütün xərcləri reklam hesabına ödənilir.



Son dövrlərdə qəbul edilən "Elektron imza və elektron sənədləşmə haqqında", "Elektron ticarət haqqında", "Telekommunikasiya haqqında", "İnformasiyanın əldə edilməsi haqqında" qanunların, "Elektron Azərbaycan" Dövlət Proqramının qəbulu, ən nəhayət, İnternetə dövlət dəstəyinin güclənməsi də güman etməyə əsas verir ki, yaxın perspektivdə ölkədə "e-ticarət" və İnternet-reklam sahəsində dönüş yaranacaq.

Ümumiyyətlə, İnternetdə biznes maraqlarının bir qədər öndə olmasına baxmayaraq, bütün dünyada olduğu kimi, Azərbaycan İnternetində özünütənzimləmə elementləri müəyyən qədər üstünlük təşkil edib. Çətinliklə də olsa ictimai institutlaşma istiqamətində addımlar atılır. Artıq İnternet sahəsində fəaliyyət göstərən bir neçə ictimai qurum (Azərbaycan İnternet Forumu (AİF), Azərbaycan İnternet Cəmiyyəti və s.) yaranıb. Öz ətrafında ölkənin İnternet ictimaiyyətinin müxtəlif nümayəndələrini birləşdirən AİF Azərbaycan İnternetinin inkişafında və özünütənzimləməsində, onun maraqlarının dönmədən müdafiəsində olduqca ciddi rol oynayır. Yuxarıda qeyd olunan məhkəmə çəkişmələri dövründə Azərbaycan İnternet ictimaiyyəti ictimai maraqların biznes və digər maraqlardan üstün olduğunu bir daha sübut etdi.

Bununla belə, Azərbaycan İnternetinin iqtisadi yönümünün, ticari yönümünün dövlət tənzimlənməsi ciddi sərmayə yatırımı üçün vacib məsələlərdən biridir. "İnformasiya, informasiyalaşma və informasiyanın mühafizəsi haqqında" qanunun təkmilləşdirilməsi, informasiya əldə edilməsi haqqında qanunun dəqiq icrası, bu qanuna uyğun olaraq bütün dövlət və bələdiyyə qurumlarının İnternet resurslarının yaradılması Azərbaycan İnternetinin inkişafına ancaq fayda verə bilər.

İnternet beynəlxalq bir şəbəkə olduğundan bununla bağlı münasibətlər daha çox beynəlxalq normalar vasitəsilə tənzimlənir. Bu istiqamətdə sistemli şəkildə işlər görülməli, öncəliklə Azərbaycan "Kibercinayətkarlıq haqqında" Avropa Konvensiyasına qoşulmalıdır. Son dövrlərdə bu istiqamətdə RİTN və digər qurumlar tərəfindən müəyyən müzakirələr aparılsa da, hələlik bu sənədin ratifikasiyası gerçəkləşməyib. Konvensiya hüquq-mühafizə orqanla-

rına terror aktları haqda informasiya toplamaq, uşaq pornoqrafiyasına və kompüter virusu yayan hakerlərə, həmçinin, müəllif hüquqlarına və İnternetdə fırıldağa qarşı səmərəli mübarizə aparılması üçün hüquqi bazanı təşkil edir. Avropanın 30-dək ölkəsi, habelə ABŞ, Kanada, Yaponiya və Cənubi Afrika bu Konvensiyanı imzalayıblar.

Son dövrlərdə bir sıra dövlət məmurları və bəzi millət vəkilləri tərəfindən "İnternet haqqında və ya İnternet təchizatı haqqında" qanun qəbul edilməlidir" çağırışlarını və bu istiqamətdə atılan addımları nəzərə almasaq, ali dövlət hakimiyyəti səviyyəsində birbaşa İnternetin tənzimlənməsi istiqamətində hüquqi-normativ addımların atılmaması doğru bir siyasət kimi dəyərləndirilməlidir. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, inkişaf etmiş, demokratik dəyərlərə söykənən ölkələr İnternetin tənzimlənməsinə deyil (hansı ki, İnternetin öz arxitekturasına görə bu, müəyyən mənada absurd problemdir), İnternetin iqtisadiyyatı ilə bağlı münasibətlərin tənzimlənməsinə diqqət yetirirlər. Yuxarıda qeyd olunduğu kimi, bizdə də bu istiqamətdə addımlar atılmaqdadır. Odur ki, əhalisinin cəmi 10 %-i İnternetdən istifadə edən bir ölkədə İnternet haqqında qanunun qəbul edilməsi çağırışları yersiz səslənməklə bərabər demokratik ənənələri zəif olan ölkəmiz üçün ciddi fəsadlara da səbəb ola bilər. Digər ölkələrin də təcrübəsindən məlumdur ki, demokratik ənənələr zəif olduqda hər hansı bir tənzimləmə, məhdudlaşdırma sonda məmur özbaşınalığına, bürokratik əngəllərə, ən nəhayət İnternetin inkişafının ləngidilməsinə səbəb olur.

Azərbaycan İnternetində ali hakimiyyət səviyyəsində heç bir siyasi, ideoloji və texnoloji senzura yoxdur. Bununla belə, bir sıra hallarda məmur özbaşınalığı səviyyəsində atılan qeyri-qanuni addımlar sonda ciddi fəsadlar verir. 2007-ci il mayın 18-də Londonda "İnternetdə süzgəc" (Global Internet Filtering Conference–2007) mövzusunda beynəlxalq konfrans keçirilib. Konfrans Qlobal Şəbəkədə senzura və süzgəc məsələlərini araşdırmaqla məşğul olan nüfuzlu beynəlxalq qurum – Açıq Şəbəkə Təşəbbüsləri ("OpenNet İnitiative") tərəfindən təşkil edilib. Bu sətirlərin müəllifinin də iştirak etdiyi toplantıda İnternetdə müxtəlif məhdudiyyətlər və onların cəmiyyətin inkişafına təsiri, İnternetdə süzgəc prosesinin texnoloji və informasiya yönümü ətrafında, dövlət, özəl və vətəndaş cəmiyyəti subyektlərinin bu proseslərdəki məsuliyyəti və rolu ətrafında müzakirələr aparılıb. Beynəlxalq normaların və



informasiya azadlığının pozulmasına yönəlmiş süzgəc prosesinin qarşısının alınması istiqamətində irəli sürülən təşəbbüslər müzakirə obyektinə çevrilib. Təəssüf ki, konfransın təşkilatçıları tərəfindən təqdim olunan illik hesabat-analizdə "siyasi süzgəci" gerçəkləşdirən ölkələr sırasında, ciddi əsaslar olmadan Azərbaycanın da adı yer alıb. Səbəb isə ondan ibarət idi ki, həmin il məhkəmənin qərarı olmadan, məmur özbaşınalığı səviyyəsində ölkədə iki İnternet resursuna giriş qapadılmışdı.

2007-ci ildə Milli Televiziya və Radio Yayımı Şurasının (MTRYŞ) rəhbərliyi tərəfindən Azərbaycan İnternetinin tənzimlənməsi ilə bağlı dövlət qurumunun yaradılması haqqında, İnternetdə yayımlanan informasiyalara adıçəkilən qurum tərəfindən nəzarət edilməsinin vacibliyi haqqında çıxışları cəmiyyətdə müəyyən narahatlıq yaradıb. Xüsusilə mövcud qanunvericilikdə nəzərdə tutulduğu qaydada tele-radio fəaliyyəti ilə məşğul olmayan, dövlətə məxsus tezlik resursundan istifadə etməyən milli İnternet subyektlərindən lisenziya tələb etmək çağırışları birmənalı qarşılanmayıb. 2007-ci ilin oktyabrında MTRYŞ, RİTN və AİF-in iştirakı ilə keçirilən müzakirələrdə bu sahənin yetərli inkişaf etmədiyi, bunun üçün zəruri olan sürətli İnternetin olmadığı indiki şəraitdə bu istiqamətdə beynəlxaq təcrübənin öyrənilməsi daha məqsədəuyğun hesab edilib.

Eyni zamanda son dövrlərdə kiberfəzada baş verən ciddi dəyişiklikləri, İnternetdən terrorçuluq, narkotik maddələrin yayılması və insan alveri məqsədilə istifadənin gücləndiyini nəzərə alaraq kompüter cinayətkarlığı sahəsində AR Cinayət Məcəlləsindəki mövcud maddələrin təkmilləşdirilməsi və müəyyən əlavələrin edilməsi məqsədəuyğun olardı. Cinayət Məcəlləsinin 271, 272 və 273-cü maddələrində kompüter informasiyasına qanunsuz daxilolma, ziyanverici proqramlar yaratma, onlardan istifadə etmə və ya onları yayma, informasiya sistemlərinin və şəbəkələrinin istismarı qaydalarını pozmağa görə şərti maliyyə vahidi məbləğinin beş yüz misli miqdarında cərimədən başlayaraq beş ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.

Yaxın perspektivdə məktəblərdə İnternetin inkişafının sürətlənəcəyini nəzərə alaraq uşaqları zərərli saytların, qanunazidd informasiyaların təcavüzündən qorumaq üçün beynəlxalq təcrübədən istifadə etmək, inzibati-hüquqi tədbirlərdən daha çox özünütənzimləmə metodlarına – valideynlərlə treninqlərin təşkilinə, evlərdəki kom-

püterlərə xüsusi saytçeşidləyici **Süzgəc (Filter)** proqramlarının yerləşdirilməsinə ciddi önəm verilməlidir. Bu istiqamətdə ictimai qurumlar xeyli səmərəli və faydalı tədbirlər həyata keçirə, "Qaynar xətt" xidmətləri təşkil edə bilərlər. Ancaq heç zaman unutmaq lazım deyil ki, İnternetin müsbət potensialı onun mənfi nəticələrini həmişə üstələyib.

Ölkədə İnternet sahəsində əməliyyat-axtarış tədbirlərini mövcud qanunvericiliyə müvafiq olaraq Milli Təhlükəsizlik Nazirliyi həyata keçirir. Yəni, bu qurumdan başqa heç bir dövlət strukturunun İnternet istifadəçilərinin informasiya mübadiləsi prosesini izləməyə ixtiyarı yoxdur. İzləmə prosesi "Əməliyyat-axtarış tədbirləri haqqında" AR Qanunu və onunla bağlı digər hüquqi-normativ aktlar, eyni zamanda izləmənin həyata keçirilməsi üçün provayderlərin avadanlıqlarına qoyulan tələblərlə bağlı MTN və RN-in 299 N-li 31 oktyabr 2001-ci il tarixli birgə rəsmi sənədi əsasında aparılır. İzləmə ilə bağlı vətəndaşlara və provayderlərə məlumat verilməsi qeyd olunan sənədlərdə öz əksini tapmayıb. 2008-ci ilin yanvarında DİN-in nəzdində yaradılan Kibercinayətkarlığa qarşı Mübarizə Baş İdarəsi yuxarıda qeyd olunan səlahiyyət bolgüsü ilə müəyyən ziddiyyət təşkil etsə də, hər halda öz səlahiyyətləri çərçivəsində bu istiqamətdə görülən işlər, ümid etmək olar ki, kibercinayətkarlığa qarşı mübarizənin daha da sistemləşdirilməsi və gücləndirilməsinə kömək edəcək.

Ölkədə milli İnternet ünvanlarının (domen az) tənzimlənməsi və özünütənzimlənməsi sahəsində, qeydiyyat prosesinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində bir sıra müsbət addımlar atılıb (Bax: domen az).

## Azərbaycan İnternetinin problemləri

Hər bir ölkədə İnternetin inkişaf tempi həmin ölkənin milli kompüter şəbəkələri infrastrukturunun, daxili məlumatötürmə və xarici şəbəkələrlə bağlantı kanallarının hansı səviyyədə inkişaf etməsindən asılıdır.

Ölkə daxilində TCP/IP protokolu əsasında milli kompüter şəbəkələri inkişaf etmədiyindən hələlik ölkənin bütöv İnternet infrastrukturu əsasən mövcud ümumi telefon şəbəkəsinin üzərində "oturub". Ümumiyyətlə, ölkədə ümumi telefon şəbəkəsi sisteminin mövcud strukturu, bu sahədəki inhisarçılıq, ölkə daxilində alternativ telekommunikasiya şəbəkələrinin yetərincə inkişaf etməməsi



Azərbaycan İnternetinin inkişafını ləngidən amillərdəndir. İnkişaf etmiş ölkələrdə provayderlərin özlərinin ölkədaxili kompüter şəbəkələri qurulur ki, İnternetə giriş məhz bu şəbəkə vasitəsilə həyata keçirilir. Ölkənin telekommunikasiya sektorunda ciddi liberallaşma aparılmalıdır. İstifadəçilərin seçim imkanları genişləndirilməlidir.

Azərbaycan İnternetinin ən ciddi problemlərindən biri İnternet bazarında sərbəst və azad rəqabətin yetərincə inkişaf etməməsindədir. Fiberoptik kanallar vasitəsilə ölkəyə bir neçə istiqamətdən İnternet trafiki gətirilməlidir. İnternet dilində desək, fiberoptik kanaldan istifadə edilməklə bir neçə **backbone (onurğa)** yaradılmalıdır. Son dövrlərdə ölkəyə daxil olan İnternet trafikinin həcmi xeyli artırılsa da, rəqabətsizlik, bunun da nəticəsində qiymətlərin yüksək olması hələlik keyfiyyətli İnternetdən, ölkə üzrə yetərli genişzolaqlı qoşulmadan danışmağa imkan vermir. Hazırda bütövlükdə Azərbaycanın Qlobal Şəbəkə ilə bağlantı trafikinin ümumi həcmi təxminən 250 Mbit/s-dir. Müqayisə üçün qeyd edim ki, Böyük Britaniyada adi bir orta məktəb 4 və ya 8 Mbit/s ilə İnternetə bağlanır.

Azərbaycan İnternetinin ciddi problemlərindən biri də İnternet dilində desək, "milli content" (veb-saytın informasiya hissəsi) problemidir. Uzun müddət milli İnternet resurslarının monitorinqini aparan bir şəxs kimi deyə bilərəm ki, indiki böyüməkdə olan nəsil üçün, gənclər üçün İnternetdə Azərbaycan dilində fundamental mahiyyətə malik informasiya resursları olduqca azdır. Rus və ingilis dillərində olan bu cür resurslardan isə adıçəkilən təbəqənin istifadəsi bir qədər problemlidir. Kağız formada olan bir sıra milli informasiya resurslarının elektron formaya keçirilməsi və İnternetdə yerləşdirilməsi ilə bağlı ölkə rəhbərliyi tərəfindən fərman imzalansa da, fikrimizcə, İnternetin inkişafı ilə bağlı dövlət proqramı çərçivəsində "milli content"in yaradılması istiqamətində kompleks tədbirlər hazırlanmalıdır.

Digər bir problem. Azərbaycan ərazisində tikintisi 1999-cu ildən başlayan TAE (Trans Asia Europe) qitələrarası telekommunikasiya kanalının əsas məqsədi Azərbaycanın dünya informasiya fəzasına inteqrasiyasına nail olmaq idi. Layihənin nəzərdə tutulduğu müddətdə tam yekunlaşmaması, bu kanaldan istifadə ilə bağlı tariflərin yüksək olması hələlik qarşıya qoyulan məqsədə nail olmağa imkan verməyib. Almaniyadan Çinə qədər uzanan, 20-dək ölkəni birləşdirən, Azərbaycan ərazisində tikintisinə 30 mln. dollar dövlət vəsaiti xərclənən bu strateji informasiya kanalından (Azərbaycan üçün

BTC layihəsindən sonra ikinci ən böyük və strateji əhəmiyyət kəsb edən layihədir – **müəllif**) effektiv və səmərəli istifadə mexanizminin qurulmasına ciddi ehtiyac var. 2007-2008-ci illərdə Xəzər dənizinin altından Orta Asiya istiqamətində çəkiləcək seqmentlə bağlı beynəlxalq kosorsiumun yaradılmasına cəhdlər edilsə də, hələlik onun taleyinin həll olunmaması da bu layihənin Azərbaycan üçün əhəmiyyətini xeyli azaldıb.

TRACECA (Transport Corridor Europe Caucasus Asia) layihəsi çərçivəsində və Cənubi Qafqazın dəmir yolu stansiyaları boyunca çəkilən fiberoptik kanalın Azərbaycanda İT sektorunun inkişafında mühüm rol oynayacağı proqnozlaşdırılır. ADDY və "Siemens" şirkətləri tərəfindən reallaşdırılan Azərbaycan seqmenti Bakıdan Böyük Kəsik stansiyasına qədər olan ərazini əhatə edir. 550 km uzunluğunda olan bu fiberoptik xətt boyunca 40 stansiya yerləşir.

Gücünə görə TAE layihəsindən geri qalmayan TRACECA-dan ölkə daxilində yalnız ADDY daxili məqsədləri üçün deyil, ümumiyyətlə ölkədə İT sektorunun inkişafı istiqamətində istifadəsi sürətlənərsə, Azərbaycanın regiondakı mövqeyi xeyli möhkəmlənərdi.

Ölkədə kompüterləşmənin səviyyəsinin aşağı, İnternetin və avadanlığın baha, əhalinin gəlirlərinin isə az olması İnternetin yüksək sürətli inkişafının qarşısını alan amillərdən hesab edilə bilər. İnternetin ciddi inkişafı üçün birinci kompüterləşmədən – dövlət orqanlarının, təhsil və səhiyyə, elm və mədəniyyət qurumlarının kompüterlə təchizatından başlamaq lazımdır. Hazırda dünyada hər 1000 nəfərə düşən kompüterlərin sayı 150, inkişaf etmiş ölkələrdə isə bu rəqəm dəfələrlə artıq olduğu halda Azərbaycanda bu göstərici təxminən 30-40-a bərabərdir. Bu sahədə vəziyyətin yaxşılaşdırılması üçün 2007-ci ilin sonu və 2008-ci ilin əvvəllərində RİTN "Microsoft" və "İntel" şirkətləri ilə birgə "Xalq kompüteri" proqramı üzərində iş aparırdı. Bu layihədə əhalinin kasıb və aztəminatlı hissəsinin güzəştli şərtlərlə kompüter və proqram təminatı əldə etməsi nəzərdə tutulur. Eyni zamanda, təklif edərdik ki, ictimai məqsədlər naminə alınan kompüter avadanlığı, milli proqram təminatlarının istehsalı, kompüter və İnternet savadının artırılması ilə bağlı xidmətlər müyyən müddət üçün vergilərdən azad olsun.

Paralel olaraq bütün inkişaf etmiş və sürətlə inkişaf etməkdə olan ölkələrdə olduğu kimi, bütün dövlət məmurlarının, təhsil işçilərinin, ümumiyyətlə bütün əhalinin kompüter savadının artırılması üçün kütləvi və sistemli treninqlər təşkil olunmalıdır. Bu sahədə beynəlxalq qurumların dəstəyindən də səmərəli istifadə etmək faydalı olardı. Müasir inkişafın əsas indikatoru sadə insanların İnternetdən istifadə imkanları ilə ölçülür. "Evdən İnternetə" – bu gün qlobal dünyanın ən ciddi problemlərindən biri budur. Hazırda RİTN-in təşəbbüsü ilə pilot qaydada bir sıra regionlarda vaxtaşırı belə tədbirlər gerçəkləşdirilir və xeyli müsbət nəticələri olur. Ancaq bu istiqamətdə vahid bir layihənin, dövlət proqramının olması daha səmərəli və effektiv olardı.



Regionlarla Bakı şəhəri arasındakı mövcud informasiya bərabərsizliyinin (rəqəmsal bərabərsizliyin) aradan qaldırılması üçün xüsusi dövlət proqramına ehtiyac var. Dünya Bankı və Azərbaycan hökuməti tərəfindən maliyyələşən (17.5 milyon dollar dəyərində) layihə çərçivəsində "Azərpoçt"un bölgələrdəki strukturlarında ictimai İnternet mərkəzlərinin açılması xeyli faydalı olardı.

Eyni zamanda, büdcə vəsaitlərindn daha səmərəli istifadə edilməsi üçün, bu sahədə şəffaflığın təmin edilməsi üçün büdcədə informasiya texnologiyaları xərcinin ayrıca bənd kimi göstərilməsinin həlli də əhəmiyyətli məsələlərdən biridir.

Son dövrlərdə rəsmi dövlət saytlarının yaradılması, bəzi dövlət saytlarında interaktiv xidmətlərin təklif edilməsi fonunda E-hökumət quruculuğu sahəsində müəyyən canlanma hiss olunur. Lakin bu sahədə ciddi infrastruktur probleminin mövcudluğu artıq özünü daha qabarıq göstərməkdədir. Müxtəlif dövlət qurumlarında İKT-nin tətbiqində özünəməxsusluq və pərakəndəlik ölkə Prezidenti və ya hökumət yanında E-hökumət üzrə Koordinasiya Komitəsinin yaradılmasını zəruri edir. İctimai informasiyanın məcburən yayılmasını təsbit edən yeni qanunun qəbulundan sonra dövlət məmurlarının İKT təhsilinin təşkilinə, bu məqsədlə isə RİTN nəzdində xüsusi təhsil mərkəzinin formalaşdırılmasına ciddi ehtiyac var. Bu kitab çapa hazırlanarkən Koreya hökumətinin və Dünya Bankının dəstəyi ilə, həmçinin büdcə vəsaitinin köməyi ilə ayrıca "Elektron hökumət" proqramının hazırlanması üzərində də iş aparılırdı.

Azərbaycan İnterneti hələ də baha olaraq qalmaqdadır. Aparılan müşahidələr deməyə əsas verir ki, İnternetin qiymətinin yüksək olmasının səbəbləri, əsasən, İnternet bazarında sərbəst və azad bazar rəqabətinin formalaşmasında, dövlət rabitə müəssisələri və özəl provayderlər arasında münasibətlərin bir sıra hallarda ədalətli qurulmasında, özəl provayderlərin qlobal bağlantı xərclərini və

ATS-lərə ödədikləri avadanlıq və kanal xərclərinin yüksək olmasındadır. Həmçinin əksər provayderlərin fəaliyyətində şəffaflığın yetərincə olmaması, eyni zamanda İnternet xidmətlərinin keyfiyyətinin və qiymətlərinin vəziyyətinin öyrənilməsi məqsədilə dövlət, biznes və vətəndaş cəmiyyəti qurumlarının iştirakı ilə vaxaşırı monitorinqlərin keçirilməməsi də bu sahədə informasiya açıqlığının yaradılmasını əngəlləyir. Ötən dövrlərdə bir qrup provayder tərəfindən uzun müddət süni surətdə qiymətlərin yüksək səviyyəydə saxlanılması və haqsız rəqabət mühitinin yaradılması da müşahidə olunub. AİF tərəfindən İnternetin keyfiyyətinin yaxşılaşdırılması və qiymətlərin endirilməsi ilə bağlı RİTN-ə təqdim edilən təkliflər bu kitab çapa hazırlanarkən baxılmaqda idi.

## Perspektivlər

Bütün qeyd olunan problemlər və çatışmazlıqlara baxmayaraq, ən yaxın perspektivdə Azərbaycan İnternetinin sürətli inkişafını proqnozlaşdırmaq üçün xeyli əsas var.

Ən əsası, son dövrlərdə İnternetə dövlət qayğısı, dövlət büdsəsindən birbaşa vəsaitlərin ayrılması istiqamətində konkret addımlar atılıb. Birbaşa İnternetin inkişafına yönələn bir neçə iri layihə və dövlət proqramları qəbul edilib.

Azərbaycan hökuməti, BMT İP və ACİ–Yardım Fondunun birgə layihəsi olan "Tədqiqat, təhsil və vətəndaş cəmiyyətinin məqsədləri üçün İnternetə çıxış" layihəsi ("AzNet" layihəsi) elm, təhsil və QHT sektorunda İnternetin inkişafında, bir sıra çatışmazlıqlara baxmayaraq, müəyyən rol oynayıb.

Azərbaycan hökuməti və BMT İP-in dəstəyi ilə reallaşan "Milli E-idarəçilik şəbəkəsi təşəbbüsü" layihəsi çərçivəsində dövlət sektorunda İnternet infrastrukturlarının qurulması, 6 regionda ictimai informasiya mərkəzlərinin açılması, dövlətə məxsus informasiyanın vətəndaşlar tərəfindən əldə edilməsi üçün şərait yaradılması nəzərdə tutulub.

"2005-2007-ci illərdə təhsil sahəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi" Dövlət Proqramının icrası nəticəsində təhsildə İnternetin tətbiq edilməsi üçün kifayət qədər geniş imkanlar açılıb. Hazırda məktəblərə verilmiş İKT avadanlığından səmərəli və effektiv istifadə edilmədiyi indiki məqamda İnternet texnologiyalardan istifadə edilməsi təhsilin informasiyalaşmasında mühüm rol oynaya bilərdi.

2007-ci ilin əvvəlində AİF tərəfindən keçirilən "Təhsildə İnternet texnologiyalarının rolu" mövzusunda ictimai müzakirələrin yekunu əsasında təhsil naziri Misir Mərdanova və rabitə və informasiya texnologiyaları naziri Əli Abbasova təhsildə İnternet texnologiyaların tətbiqinin gücləndirilməsi ilə bağlı təkliflər göndərilib. Təkliflərdə İnternet texnologiyalarının tətbiqinin təşkilati, hüquqi-metodiki və texniki aspektlərini özündə əks etdirən konseptual sənədin hazırlaması, Təhsil Nazirliyi və RİTN tərəfindən bu sahədə koordinasiyanın daha effektiv qurulması öz əksini tapıb. Təkliflərdə eyni zamanda məktəblərin İnternet xərclərinin ödənilməsi üçün maliyyələşmə məsələlərinə aydınlıq gətirilməsinin, məktəblərin və müəllimlərin İnternet texnologiyaları sahəsində dərs vəsaitləri və metodiki vəsaitlərlə təmin edilməsinin, fənn müəllimlərinin İnternet texnologiyalarının əsasları ilə tanışlığı üçün davamlı treninqlərin keçirilməsinin vacibliyi qeyd edilib.

2007-ci ilin dekabrında "Multimedia" Mərkəzi tərəfindən əlaqədar qurumların iştirakı ilə "Ümumtəhsil sisteminin informasiyalaşdırılması konsepsiyası" hazırlanaraq Təhsil Nazirliyinə təqdim edilib. Konsepsiya təhsildə informasiya texnologiyalarından səmərəli və effektiv istifadə edilməsinin konseptual əsaslarını müəyyənləşdirir.

2008-ci ilin əvvəllərində Təhsil Nazirliyi tərəfindən hazırlanaraq hökumətə təqdim olunduğu bildirilən "Azərbaycan Respublikası təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı (2008-2012-ci illər)"nın bu sahədə vəziyyətin xeyli yaxşılaşacağını düşünməyə əsas verir.

2005-2008-ci illər üçün qəbul olunan "Elektron Azərbaycan" Dövlət Proqramı maliyyə çatışmazlığı ilə bağlı İnternetin inkişafında elə də ciddi rol oynamasa da, bu proqram çərçivəsində perspektivə istiqamətlənən bir sıra tədbirlər gerçəkləşib. Hazırda ölkədə İKT-nin inkişafına yönələn yeni dövlət proqramının hazırlanması ilə bağlı RİTN-də müəyyən işlərin görüldüyü bildirilir.

Son dövrlərdə ölkədə informasiya cəmiyyəti quruculuğunun elmi əsaslarının yaradılması və inkişaf etdirilməsi, İKT sahəsində kadr hazırlığının gücləndirilməsi istiqamətində AMEA İnformasiya Texnologiyaları İnstitutu tərəfindən ciddi addımlar atılır.

2008-ci ilin əvvəlində RİTN, Azərbaycan İnternet Forumu, HP və "Ultra" şirkətlərinin birgə iştirakı ilə "İnformasiya cəmiyyətinin jurnalisti" layihəsi həyata keçirilib (www.cit.az). Ölkəini tanınmış mütəxəssisləri tərəfindən jurnalistlərə treninqlər keçirilib, "İnformasiya cəmiyyətinin ən yaxşı KİV-i" və "İnformasiya cəmiyyətinin ən yaxşı jurnalisti" nominasiyaları üzrə müsabiqə keçirilib. Layihənin məqsədi ölkədə informasiya cəmiyyəti quruculuğuna dəstək vermək, informasiya cəmiyyəti ideyasını, cəmiyyətin bütün sahələrində İT-dən istifadənin üstünlüklərini geniş kütlələrə çatdırmaqdan ibarət olduğu bildirilib. Hər il davam etdirilməsi nəzərdə tutulan bu tədbirlərin ölkədə informasiya cəmiyyəti quruculuğuna ciddi təkan verəcəyini düşünmək olar.

2005-ci ildə Mingəçevir şəhərində "KÜR" kompüter yığımı müəssisəsi fəaliyyətə başlayıb. Sutkada 135 kompüterin yığımını nəzərdə tutan bu birgə müəssisə ilkin dövrlərdə Təhsil Nazirliyinin sifarişlərini yerinə yetirəcək. Dünya şöhrətli HP şirkətinin bu prosesdə iştirakı layihənin uğurla nəticələnəcəyini düşünməyə əsas verir.

Dövlət orqanlarının İnternet resursları əvvəlki illərə nisbətən daha sürətlə inkişaf edir. Vergilər Nazirliyi, RİTN, Ədliyyə Nazirliyi, dövlət sosial müdafiə sistemində, DİN və gömrük sistemində, Təhsil Nazirliyində, Milli Məclisin və Prezidentin rəsmi saytlarında İnternet texnologiyalarının tətbiqi, korporativ informasiya sistemlərinin yaradılması və istismarı istiqamətində ciddi layihələr həyata keçirilməyə başlanıb. Xeyli dövlət qurumunda informasiya əldə edilməsi haqqında qanuna uyğun olaraq informasiya strukturları yaradılıb. 2007-ci ilin əvvəlində Nazirlər Kabineti dövlət qurumlarının və bələdiyyələrin İnternet resurslarının yaradılması qaydaları haqqında qərar qəbul edib.

2005-ci ilin dekabrında qəbul edilən və informasiya azadlığının effektiv üsullarla gerçəkləşdirilməsinə xidmət edən yeni qanunun tələblərinə görə, 1 il ərzində bütün dövlət qurumları, 2-3 il ərzində isə bütün dövlət müəssisələri və bələdiyyələr öz İnternet resurslarını yaratmalıdırlar. Hazırda əksər ali hakimiyyət orqanlarının rəsmi İnternet saytları yaradılıb. Təəssüf ki, bələdiyyələrdə informasiya resurslarının formalaşması prosesi ləng gedir. 2007-2008-ci illrdə "İnformasiya azadlığının inkişafı" Koalisiyası tərəfindən "Vətəndaşların informasiya azadlığının gerçəkləşməsinə dəstək" layihəsi çərçivəsində bir sıra bələdiyyələr üçün pilot qaydasında İnternet resursları hazırlanıb. Layihə çərçivəsində dövlət qurumlarının informasiya açıqlığı vəziyyəti monitorinq edilir və bu prosesin müntəzəm olaraq təkmilləşdirilməsi və davam etlirilməsi nəzərdə tutulur. Aparılan monitorinqin nəticələrinə əsasən demək olar ki, dövlət qurumlarının İnternet resurslarında informasiya bolluğu yetərincə olmasa da, İnternet üzərindən gerçəkləşən dövlət xidmətlərinin sayı çox az olsa da, bu sahədə vəziyyət müsbət istiqamətdə dəyişməkdədir.

2008-ci ilin əvvəllərində Rabitə və İnformasiya Texnologiyaları nazirinin əmri ilə Nazirliyin nəzdində İnternetin inkişafı məsələləri ilə bağlı problemlərin aşkara çıxarılması , bu istiqamətdə təkliflərin hazırlanması məqsədilə Kordinasiya Şurası yaradılıb. Ümid etmək olar ki, Şura İnternet bazarında sərbəst və azad rəqabətin inkişaf etdirilməsində, qiymətlərin endirilməsində, yeni texnologiyaların və xidmətlərin inkişaf etdirilməsində müsbət rol oynayacaq.

Təkcə bu qeyd olunanların həyata keçirilməsi ən yaxın perspektivdə Azərbaycan İnternetinin ciddi keyfiyyət (yeni İnternet xidmətlərinin yaranması, infrastrukturun inkişafı və s.) və kəmiyyət (İnternet istifadəçilərinin və milli resursların yüksək templə artımı və s.) dəyişikliyinə uğrayacağını düşünməyə əsas verir.

# III FƏSİL

# Azərbaycan İnternet resursları



## Azərbaycan

- Azərbaycan haqqında. Diaspor
- Güney Azərbaycan
- Qarabağ. İşğal olunmuş ərazilər

## Azərbaycan haqqında. Diaspora

**Azərbaycan Portalı**
Sayt Heydər Əliyev Fondu tərəfindən yaradılıb. Azərbaycan haqqında məlumatlar. İqtisadiyyat, mədəniyyət və tarix. Cəmiyyət və hakimiyyət. Azərbaycan beynəlxalq aləmdə. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Resurs Azərbaycan, rus və ingilis dillərindədir.
http://www.azerbaijan.az

**Azərbaycan Evi**
Azərbaycan Evi haqqında. Mədəni fəaliyyət. Qafqaz xalçası. Fransa – Azərbaycan əlaqələri, nəşrlər. Azərbaycan haqqında faydalı məlumatlar.
http://www.azmaison.fr

**Odlar yurdu – Azərbaycan**
Ölkə haqqında məlumat. Mədəniyyət. Tarix. Qarabağ. Müzakirə.
http://www.azeri.ws

**Azərbaycan – incəsənət diyarı**
Abşeron, Gəncə, Şəki, Naxçıvan, Lənkəran, Quba və Qarabağ bölgələrinin tarixi, memarlığı, xalçaları və musiqisi. İngilis dilində.
http://azerbaijan.aznet.org

**Diaspora.az**
Azərbaycan haqqında məlumatlar. Diasporun fəaliyyəti. Xaricdəki diaspor təşkilatları.
http://www.diaspora.az

**Bura Vətəndi**
Vətən sevgisi. Tarix. Şeirlər. Musiqi. Fotolar. Xəbərlər.
http://www.veten.8k.com

**Azərbaycan xalq adət-ənənələri**
Bayramlar və matəmlər haqqında. Adət-ənənələr. Geyim. Xalq təbabəti.
http://traditions.aznet.org

**Diaspora.gov.az – informasiya portalı**
Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi. Xəbərlər. Layihələr. Diaspor. Musiqi. Səni axtarıram. Azərbaycan. Qalereya. Forum. Downloads. Horoskop. Əlaqələr.
http://www.diaspora.gov.az

**RİFAH**
Azərbaycan dili, demokratik cəmiyyət və Azərbaycan xalqının birliyi haqqında məlumat. Sayt ingilis və rus dillərindədir.
http://rifah.aznet.org

**Qafqaz Albaniyası**
Tarixi məqalələr. Xəbərlər. Arxiv. Forum. Fotolar. Qonaq kitabı.
http://www.caucasianhistory.org

**Azerbaijan Community Development, Research, Training and Resource Center**
Mərkəz haqqında. Xəbərlər. Layihələr. Əlaqələr. Sayt ingilis dilindədir.
http://www.cdig.az

**Savaş**
Hərbi-tarixi sayt. İkinci dünya müharibəsi haqqında. Qəhrəmanlar. Fotolar. Cənubi Azərbaycanın orden və medalları. Sayt rus dilindədir.
http://www.savash-az.com

**"Tələbələrin Görüş Yeri"**
Rusiyada təhsil alan tələbələrin İnternetdəki görüş yeri. Azərbaycan haqqında məlumatlar.
http://www.azerbaycan.ru

**Bizim Azərbaycan**
Azərbaycan və azərbaycanlılar haqqında səhifə.
http://www.bizimazerbaijan.com



**9 may 1945-ci il**
Faşizm üzərində qələbəyə həsr olunmuş sayt. Xəbərlər. Arxiv. Tarix. Məqalələr. Sənədlər. Döyüşlər. Fotoalbom. Qəhrəman şəhərlər. Qəhrəmanlar. Orden və medallar. Forum. Linklər. Qonaq kitabı.
http://www.9may.az

**Azər Cəmiyyəti**
Azər Cəmiyyətinin rəsmi web-saytı. Fəaliyyət. Seminarlar və görüşlər. Diaspor.
http://www.azersociety.org

**Azər-Çex Cəmiyyəti**
Azərbaycanlıların Çexiyadakı cəmiyyəti. Cəmiyyət haqqında. Yeniliklər. Çexiya.
http://www.diaspora.cz

**Avstriya.com**
Azərbaycan Akademik Cəmiyyəti. Avstriya təhsili haqqında məlumat.
http://www.avstriya.com

**Azərbaycan Akademik Birliyi**
Almaniyanın Bonn şəhərində fəaliyyət göstərən Azərbaycan Akademik Birliyi haqqında.
http://www.asav.org

**Estoniya Azərbaycan Mədəniyyət Mərkəzi**
Estoniyada yaşayan azərbaycanlıların cəmiyyəti. Mədəniyyət və idman. Əlaqələr. Siyasət.
http://www.azeri.ee

**Azərbaycan Kültür Dərnəyi**
Azərbaycan Kültür Dərnəyi İzmir şöbəsi
http://www.azerbaycan.org.tr.tc

**Ulu dil**
Azərbaycan dilinin tarixi.
http://www.uludil.gen.az

**Uludil**
Professor Qəzənfər Kazımovun saytı. Dilimiz-tariximiz, müasir Azərbaycan dili haqqında.
http://prof-kazimov.iatp.az

**Dil. Tarix. Poeziya**
http://dil-tarix-poeziya.iatp.az

**Azad məkan**
Azərbaycan. Atributlar. Tarix. Məqalələr. İqtisadi sözlük. Xəbərlər. Telefon kodları. Çat. Forum.
http://www.azadmekan.tk

**A to Z of Azerbaijan**
Azərbaycan üzrə məlumat sistemi. Sayt ingilis dilindədir.
http://www.azerb.com

**Kim kimdir**
"Azərbaycanda kim kimdir" elektron məlumat kitabçası.
http://whoiswho.az

**Azervista**
Azərbaycan və Bakı şəhəri üzrə bələdçi
http://www.azerivista.com

**Bakıya pəncərə**
Bakı neft şəhəri kimi. Yaranma tarixi. İçərişəhər. İnkişafı. Fotoalbom. Küçələri. Arxitekturası. Resurslar.
www.window2baku.com

**Qafqaz.info**
Redaksiya. Qafqaz xalqları. Statistika. Lətifələr. Şəkillər. Xəbərlər. Sayt rus dilindədir.
http://www.qafqaz.info

**Azərbaycan Xalq Cümhuriyyəti**
ADR-in elan olunması. Fəaliyyəti. Atributları. Süqutu. Məqalələr. Kitablar.
www.28may.biz

**Azərbaycan haqqında hər şey**
Gündəlik xəbərlər. Şou-xəbərlər. İnternet xəbərləri. İnternet kartları.
Dil: RU
www.search.az

**Böyük Azərbaycan və Oğulları**
Azərbaycan və müxtəlif sahədə tanınmış azərbaycanlılar haqqında məlumatları əhatə edən İnternet saytı
www.great.wmsite.ru

**Bizim Azərbaycan**
Musiqi. Şeir. Tarix. Uşaqlar.
Dil: EN
www.bizimazerbaijan.com

**TekDiaspora.com**
Türkiyə və Azərbaycanın ortaq diasporu
www.tekdiaspora.com

**Azərievi Forum**
Azərbaycanın tarixi. Mədəniyyəti, ədəbiyyatı, mədəniyyəti, musiqisi, mətbəxi ilə bağlı mövzuların müzakirə olunduğu forum
www.azerievi.com

**Azportal.az**
Azərbaycana həsr olunmuş portal.
Dil: RU
www.azportal.az

**Vətənim Azərbaycan**
Azərbaycan haqqında məlumatlar Milli qəhrəmanlar, Qarabağ müharibəsi, milli mətbəx, tarixi günlər.
www.vetenimazerbaycan.com

**Bakude.com**
Azərbaycan haqqında məlumatlar. Təbiət. İqtisadiyyat. Tarix. Mədəniyyət. Bayramlar. Siyasət. Təhsil. Ali məktəblər
www.bakude.com

**Dünya Azərbaycanlıları Gənclər Birliyi**
Dünya Azərbaycanlıları Gənclər Birliyinin (DAGB) rəsmi internet saytı. Məqsəd və vəzifələri. İdarə heyəti. Üzvləri. Layihələr.
Dil: AZ/EN
www.dagb.org

**Azərbaycan türk ölkəsi**
Media. Məqalələr. Türkün tarixi. Layihələr. Üzvlər.
www.turk.az

**ZiyaŞahin.com**
Türk vətəndaşlarının Azərbaycan haqqında yaratdıqları sayt.
Azərbaycan ədəbiyyatı. Musiqi. Mətbəx. Təşkilatlar. Dövlət qurumları. Mədəniyyət ocaqları. Azərbaycan mənzərələri.
Dil: AZ/TR
www.ziyasahin.com

**Azerros.ru**
Rusiyada Azərbaycanlıların Federal Milli-Mədəni Muxtariyyəti
Rusiyada yaşayan azərbaycanlılarla bağlı xəbər-informasiya saytı.
Dil: RU
www.azerros.ru

**Azərbaycan haqqında nə bilirik?**
Azərbaycan haqqında məlumatları əhatə edən online ensiklopediya. Atributlar. Tarix. Mədəniyyət. İqtisadiyyat. Siyasət. Media. İnternet. Neft. Qarabağ
www.encyclopedia.aznet.org

**Azərbaycanlılar Dayanışma Dərnəyi**
www.azerbaycanlilar.com

**DAK**
Dünya Azərbaycanlıları Konqresi.
www.azerbaijanis-congress.com



**Azerbaijan Online**
Dünya azərbaycanlılarının portalı. Azərbaycan tarixi. Gündəlik xəbərlər.
www.azerbaijan-online.com

**Azərbaycan haqqında videolar**
Avtomobil. Cizgi filmləri. Bədii filmlər. Bu şəhərdə. De gəlsin. Kurtlar vadisi. Kliplər. Muğamlar. Türk filmləri. Toylar.
www.qaraqutu.com

**Niderlanddakı Azərbaycan əhalisi**
Gündəlik xəbərlər. Qarabağ. Xocalı faciəsi. Qanlı Yanvar. İdman. Musiqi. Azərbaycan mətbəxi. Məşhurlar
Dil: EN
www.azeriunited.com/

## Güney Azərbaycan

**Güney Azərbaycan Milli Oyanış Hərəkatı**
Mahmudəli Çöhrəqani. Coğrafiya. İqtisadiyyat. Tarixi-siyasi və elmi-ədəbi şəxsiyyətlər. Mədəniyyət. Fotoalbom. Xəritə.
http://www.gamoh.org

**Sarı gəlin**
Güney Azərbaycanda erməni daşnaklarının türk xalqına qarşı etdikləri soyqırımı və toplu qırğınlardan alınan dərslər. Fotolar. Videomateriallar.
http://sari-gelin.bloqspot.com

**Təbrizin səsi**
Gündəm. Siyasət. Reportaj. İqtisadiyyat. Dünya. İç xəbər. İncəsənət və mədəniyyət. Türk dünyası. Məqalələr. İdman. Hava durumu. Soyqırımı.
Dil: TR
http://www.tebrizinsesi.com

**Varlığın səsi**
Cənubi Azərbaycanda işıq üzü görən dərginin İnternet saytı. Yazarlar. İdarə heyəti. Məqalələr
www.varliginsesi.com

**Azərbaycan Milli Direniş Təşkilatı**
Təşkilat haqqında. Bildirişlər. Xəbərlər. Axtarış
Dil: AZ/EN
www.diranish.org

**Azərbaycan Federal-Demokrat Azərbaycan Hərəkatı**
Ana dili. Federalizm. Milli məsələ. Milli hökumət – sənədlər. İncəsənət. Qadınlar. Olaylar.
www.achiq.org

## Qarabağ. İşğal olunmuş ərazilər. Azərbaycan soyqırımları

**Erməni terroru**
Erməni terroru haqqında sayt. Erməni soyqırımı. Məlumatlar. Fotolar.
http://www.human.az

**Qarabağ – tarix və faktlar**
Tarix. Fotoqalereya. Video. Musiqi. Tanınmış adamlar. Qonaq kitabı.
Dil: EN
http://www.karabakh.co.uk

**Xocalı**
Məqalələr və reportajlar. İngilis dilində.
http://www.come.to/khojaly

**Soyqırımı**
http://www.genocide-az.com

**Qarabağ həqiqətləri**
http://karabakh-doc.port5.com

**Azəri yurdu**
İşğal olunmuş rayonlar. Xocalı dəhşəti. Erməni tarixçiləri. Videomateriallar. Fotolar.
http://www.yurd.cjb.net

**Kitab Türkoğlu**
Tarixi həqiqətlərə işıq salan əsər. Erməni-turk, erməni-azərbaycanlı münasibətləri. Ermənilərin türklərə və azərbaycanlılara qarşı soyqırım və təcavüzkarlıq siyasəti.
http://www.turkoglu.iatp.az

**Çingiz Mustafayev Fondu**
Fond haqqında. Xəbərlər. Xocalı soyqırımı. Qarabağ. Video arxiv. Məqalələr. Həyat fəaliyyəti.
www.chingizmustafayev.com

**Qara Qan**
Elektron kitab. Yazıcı Fazil Güneyin Qarabağ dəhşətlərinə həsr olunmuş tarixi romanı.
http://qara-qan.iatp.az

**Qarabağ**
Erməni terrorizmi. Xocalı faciəsi. Qarabağ. Tarix. Son xəbərlər.
Dil: EN
www.karabakh.gen.az

**Khojaly.info**
Xocalı faciəsi haqqında kitab.
http://www.khojaly.info

**İmmiqrantlara, qaçqın və köçkünlərə dəstək üzrə Azərbaycan Fondu.**
Xəbərlər. Mətbuat. İşğal olunmuş ərazilər. Sənədlər. Layihələr
http://azerbaijanfoundation.org

**Khojaly.org**
Xocalı faciəsi. Fotoqalereya. Videofaktlar. Şəhərin işğalı. Şahid ifadələri. Faciənin qurbanları.
http://khojaly.org

**Azəri soyqırımı**
Azərbaycanlıların soyqırımı haqqında ingilis dilində məlumatlar. Fotolar. Video. Faktlar. Məqalələr.
http://www.khojaly.org.az

**Azərbaycanlıların soyqırımı**
Xocalı soyqırımı haqqında. Fotolar. Azərbaycan tarixi.
Dil: EN
http://www.khocaly.s5.com

**Azəri soyqırımı**
Soyqırım haqqında. Tarix. Faktlar. Arxiv. Xəbərlər.
http://www.azerigenocide.org

**Qarabağ sənədlərdə**
Kitablar və məqalələr. Tarixi sənədlər. Erməniçilik. Aktual mövzular. Xəbərlər. Sayt rus dilindədir.
http://karabakh-doc.gen.az

**20 Yanvar**
20 Yanvar faciəsi. Qurbanlar. Fotolar. Video. Sənədlər. Mətbuat yazarları. Forum. Qonaq kitabı.
Dil: EN
http://january20.net

**Xocalı**
Məqalələr və reportajlar.
Dil: EN
http://www.come.to/khojaly

**A-dan Z-yə Şuşa Ensiklopediyası**
Şuşa şəhərinin, Qarabağın tarixi. Tarixi şəxslər. Qarabağ və Şuşa xalçaları. Məşhur Qarabağ atları.
Dil: EN
www.shusha.aznet.org

**Karabakh.co.uk**
Qarabağ haqqında məlumatlar, fotoşəkillər, videolar, musiqilər.
Dil: EN
www.karabakh.co.uk



**Armenian Reality**
Erməni terroru.Dil: EN
www.armenianreality.com

**Erməni terroru**
Xocalı faciəsi. 20 Yanvar gecəsi. Soyqırımı və erməni terroru. Fotoalbom.
Dil: RU
www.armenterror.narod.ru

**Qarabağ haqqında**
Dil: EN
www.geocities.com/fanthom_2000

**Ağdam rayonu**
Saytda Ağdam rayonunun işğaldan sonra çəkilmiş, erməni vəhşiliklərini əks etdirən fotolar və həmin rayonun milli qəhrəmanları haqqında məlumatlar əks olunub.
www.agdam.xm.com

**Qarabağ münaqişəsi**
Sənədlər. Müzakirələr. Müraciətlər. Münaqişə qurbanları. Görüşlər. Sazişlər.
Dil: AZ/RU/EN
www.karabakh.info.az

**İrəvan**
İrəvanın tarixi. Toponimlər. Erməni terroru.
www.iravan.com

**Xocalı soyqırımı**
Soyqırımı haqda faktlar, şahid ifadələri. Beynəlxalq KİV-in yazdıqları. Ermənistanın Azərbaycana qarşı təcavüzü. Video və fotomateriallar.
www.chodschali. de/lang/fr/

**Xocalı faciəsi**
Xocalı şəhidlərinin xatirəsinə həsr olunan sayt
Dil: EN
www.khojaly.net

**Azərbaycan genosidi**
Heç kim və heç nə unudulmur.
Dil: EN
www.azerigenocide.org

**"Gənclərin Ümid Çırağı"**
"Müharibədən zərər çəkən nəqliyyat işçiləri" İctimai Birliyinin saytı. Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti. Azərbaycanın soyqırımı tarixi. Azərbaycanın nəqliyyat tarixi. Nəqliyyat Nazirliyinin fəaliyyəti. Birliyin fəaliyyəti.
www.guc.az

**Qarabağ haqqında**
Dil: EN
www.geocities.com/azerikarabakh

**Milaz.info – müstəqil hərbi sayt**
Ana səhifə. Xəbər. Təhlil. Müsahibə. Azərbaycan–NATO. Hərb tarixi. Hərb dünyası. Region.
www.milaz.info

**Qarabağ həqiqətləri ilə bağlı bloq**
www.azerigenocide.azeriblog.com

**Qarabağ həqiqətləri ilə bağlı sayt**
Son xəbərlər. Qarabağ. Erməni terroru. Xocalı faciəsi. Qarabağ qəhrəmanları.
Dil: EN
www.karabakh.gen.az

# Şəhərlər və rayonlar





**İmişli**
İmişli şəhərinin tarixi. Muzey. Mətbuat. İnsanlar. Fotolar. Xəritə. Lüğət.

http://imishli.narod.ru

**Gəncə daşlarının yaddaşı**
Gəncə şəhərinin tarixi. Gəncə bu gün. Gəncəlilər. Fotolar.

http://www.ganca.net

**Gəncə**
Gəncənin tarixi və mədəniyyəti haqqında.

http://ganja.ascpschools-az.net

**Lənkəran Şəhər İcra Hakimiyyəti**
Xəbərlər. İcra aparatının strukturu. Lənkəranın tarix və mədəniyyəti haqqında. İqtisadiyyat. Elm. Təhsil. İdman.

http://www.lankaran.az

**Sumqayıt**
Sumqayıt haqqında. Fotolar. Mobil telefonlar. Melodiyalar. Çat. Lətifələr.

http://www.sumqayit.tk

**Əli Bayramlı**
Tarixçə. Muzey. Forum. Statistika.

http://alibayramli.aznet.org

**Sumqayıt Şəhər Gənclər Birliyi.**
Azərbaycan. Sumqayıt. Paytaxt. Xocalı soyqırımı. Mahnılar.

http://azfakt.9f.com

**Şəmkir**
Şəmkir haqqında. Xəbərlər. Şəmkir bu gün. İş dünyası. KİV. Əlaqələr. Dil: RU

http://www.shamkir.net

**Masallı**
Daştvənd hoteli

http://www.dashtvend.com/

**Sumqayıt Gənclər Şəhəri**
İATP. Treninqlər. Linklər. Şəkillər.

www.sumgait.iatp.az

**İATP Sumqayıt Mərkəzi**

www.edu.iatp.az

**Azərbaycan – incəsənət diyarı**
Abşeron, Gəncə, Şəki, Naxçıvan, Lənkəran, Quba və Qarabağ bölgələrinin tarixi, memarlığı, xalçaları və musiqisi.Saytingilis dilindədir.

http://azerbaijan.aznet.org

**Gəncə daşlarının yaddaşı**
Gəncə şəhərinin tarixi. Gəncə bu gün. Gəncəlilər. Fotolar.

http://ganca.aznet.org

**Bakı**
Xəbərlər. Xəritə. Xəzər dənizi. İqlim. Baki nefti. Tarix. Diqqətəlayiqlər. İncəsənət. Təhsil. Aşpazlıq. Bizim proyektlər. Məsləhətlər. Mənbələr.

http://baku.aznet.org

**Ucar rayonu**
İnformasiya. Tarix. İqtisadiyyat. Xadimlər. Şəkillər. Linklər.

http://ucar.iatp.az

**Oğuz rayonu**
Oğuz rayonu haqqında. Rayonun görünüşü. Ziyalılar. Mətbuat. Həftəlik xəbərlər. Qəhrəmanlar.

http://novruz.sitecity.ru

**Şusa**
Şuşanın və Azərbaycanın tarixi. Şuşa haqqında məlumat. Qalereya.
Dil: EN

http://shusha.aznet.org

**Qobustan**
Tarix. İndiki Qobustan. Qavaldaş. Təmsilçilər. Şəkil qalereyası.

http://qobustan.iatp.az

**Şəki**
Şəki şəhəri haqqında. Tarix. Adlar. Şəkililər. Mətbəx. Memarlıq. Fotolar. Xəritə.
Dil: RU
http://sheki.ru

**Göyçay**
Xəbərlər. Yerli hakimiyyət. Tarix və mədəniyyət. İqtisadiyyat. İctimai və sosial həyat. Rayonun xəritəsi.
http://www.goychay.az

**Köhnə Gəncə**
Gəncənin tarixi-mədəni irsi. Gəncə xanlığın abidələri. Köhnə Gəncənin xarabalıqları. Dil: EN
http://www.oldganja.aznet.org

**Gəncə**
Tarix və tarixi abidələr. Mədəniyyət. Qalereya. Linklər. Qonaq kitabı.
http://ganca.sayt.ws

**İmişli rayonu**
İmişli rayonu haqqında məlumatlar. Fotoşəkillər.
www.imishli.com

**Bakı səhifəsi**
Ensiklopediyalar. Kataloqlar. Bloqlar. Dil: EN
www.bakupages.com

**Bakıya açılan pəncərə**
Bakı şəhərinə həsr olunmuş sayt.
Dil: RU/EN
www.window2baku.com

**Bakı haqqında sayt**
Layihələr. Üzvlər. Hadisələr. Fotolar
Dil: EN
www.aegee-baki.org

**Şəki şəhəri**
Şəkinin tarixi. Mətbəxi. Memarlıq. Forum. Bayramlar
www.sheki.az

**Daşkəsən**
İcra hakimiyyəti. Mənbələr. Təbiət. Şəhidlər. Tarixi abidələr. Sənaye obyektləri. Coğrafi obyektlər. Qalereya. Əlaqələr. Statistik məlumatlar.
http://dashkesan.iatp.az

**Gədəbəy**
Gədəbəy rayonuna həsr olunmuş sayt. Tarixi. Coğrafi mövqeyi. İqtisadiyyatı. Turizm. Foto.
Dil: AZ/EN
www.gedabey.az

**Biləsuvar rayonu**
Əhalisi. Ərazisi. Coğrafi mövqeyi. Strukturu. Xəbərlər. Əlaqə. Forum.
www.bilesuvar.az

**Gəncə Kütləvi Kitabxana yanında İcma İnformasiya Resurs Mərkəzi**
Kütləvi kitabxanalar. İnternet mərkəzi və kompüter kursları. Gəncə QHT. Dil: AZ/EN
www.ganjacomcenter.aznet.org

**Gəncənin tarixi və fotoşəkilləri**
Elektron vəsait. Şəhərin adının mənşəyi və Gəncənin yaşı. Gəncə şəhərinin emblemi. "İmamzadə" türbəsi. Nizami Gəncəvi. Cavad Xan. Gəncə Darvazasının tarixi və fotoşəkilləri.
www.ganja-photo.iatp.az

**Borçalı**
Borçalı haqqında məlumatlar. Xəbərlər. Adət-ənənələr. Tarix. Şəxsiyyətlər. Toponimika. Təsərrüfat.
www.borchali.net

**Zərdab rayonu haqqında**
Rayonumuz. Həmyerlilərimiz. Kür damlaları. Coğrafi məkan. Fotoalbom.
Dil: AZ/EN/RU
www.zardab.com.az



**Ağdam rayonu**
Ağdam rayonu haqqında. Milli Qəhrəmanlar. Fotoşəkillər
http://agdam.xm.com

**Qərbi Azərbaycanın Mehri rayonu**
Tarixi. Tarixi abidələri. Tanınmış insanlar. Şeirlər. Kənd təsərrüfatı. Fotoalbom. Qan yaddaşı.
www.aldara.az

**Siyəzən**
Din. Kitablar. Proqramlar. Oyunlar.
www.siyezen.narod.ru

**Şamaxı rayonu**
Şamaxının tarixi. Mədəniyyəti. İqtisadiyyatı. Coğrafiyası. Təhsil və səhiyyə. Turizm və idman. Klassiklər.
www.shamaxi.sayt.ws

**Bakuphotos**
Parklar. Dövlət binaları. Muzeylər. Kinoteatrlar. Tarixi abidələr.
Dil: EN
www.bakuphotos.com

# Cəmiyyət və siyasət. Dövlət

- Dövlət qurumları. Nazirliklər. Məhkəmələr
- Tarixi şəxsiyyətlər
- Siyasi partiyalar
- Seçkilər
- İctimai təşkilatlar
- Antiterror. Narkomaniya. İnsan alveri. Qloballaşma
- Hüquq təşkilatları
- Normativ-hüquqi aktlar. Qanunlar
- Bələdiyyələr
- Proqram və layihələr. Araşdırmalar. Tədqiqatlar



## Dövlət qurumları. Nazirliklər. Məhkəmələr

**Azərbaycan Respublikasının Prezidenti**
Azərbaycan Respublikası Prezidentinin rəsmi web-saytı. Prezident. Fəaliyyət. Prioritetlər. İcra aparatı. Rəsmi sənədlər. Prezidentə məktub.
http://www.president.az

**Azərbaycan Respublikasının Milli Məclisi**
Xəbərlər. Parlamentin tarixi. Struktur. İcra hakimiyyəti. Konstitusiya. Qanunlar. Beynəlxalq əlaqələr. Qarabağ münaqişəsi.
http://www.meclis.gov.az

**Azərbaycan Respublikası Nazirlər Kabineti**
Struktur. Tərkib. Sənədlər. Rəsmi məlumatlar. Əlaqə vasitələri.
http://www.cabmin.gov.az

**Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi**
Nazirlik haqqında. Hüquqi sənədlər. Statistika. Tariflər. Layihələr. Dövlət komissiyası. Sual-cavab. Nazirin qəbuluna yazılmaq.
http://www.mincom.gov.az

**Azərbaycan Respublikasının Auditorlar Palatası**
Auditorlar Palatasının üzvləri. Qanunvericilik. Beynəlxalq əlaqələr. Nəşrlər. Auditorlar üçün bölmə.
http://www.audit.gov.az

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi**
Xəbərlər. Struktur. Tarif siyasəti. Qanunvericilik. Beynəlxalq əlaqələr. Statistika. Videomateriallar.
http://www.az-customs.net

**Azərbaycan Respublikası Vergilər Nazirliyi**
Nazirlik haqqında. Qanunvericilik. Vergi statistikası. Vergi bəyannaməsi. Tədris. Sual-cavab. İnteraktiv xidmətlər.
http://www.taxes.gov.az

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyi**
Rəsmi xronika. Nazirliyin fəaliyyəti və tarixi. Rəhbərlik. Kollegiya. Struktur. Əhaliyə hüquqi yardım. Məhkəmə və ədliyyə.
http://www.justice.gov.az

**Hərbi əsir, girov və itkin düşmüş şəxslərin işləri üzrə Azərbaycan Respublikası Dövlət Komissiyası**
Komissiya haqqında. Erməni terrorizmi. Soyqırımı. İşgəncələr. Fotolar. Videofayllar.
http://human.gov.az

**Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi**
Nazirlik haqqında. İnvestisiyalar. Sahibkarlıq. Özəlləşdirmə. Antiinhisarçılıq. Qanunlar toplusu.
http://economy.gov.az

**Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi**
BKAM-ın əsasnaməsi. Konvensiyalar və qanunlar. Mənbələr. Qanunlar. Qərarlar. Hakimlərin siyahısı.
http://www.arbitr-az.org

**Azərbaycan Respublikasının Təhsil Nazirliyi**
Xəbərlər. Struktur. Təhsil standartları. Təhsil müəssisələri. Beynəlxalq əlaqələr. Təhsildə elmi-pedaqoji kadr hazırlığı.
http://www.min.edu.az

**Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi**
http://www.mns.gov.az/

**Azərbaycan Respublikası Maliyyə Nazirliyi**
Ümumi və rəsmi materiallar. Xəbərlər. Makroiqtisadi göstəricilər. Dövlət büdcəsi. Sığorta. Dövlət Əyar Palatası. Maliyyə Elm-Tədris Mərkəzi. Məlumat Hesablama Mərkəzi. Normativ-hüquqi sənədlər.
http://maliyye.gov.az

**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**
Komitə haqqında. Statistik göstəricilər.
http://www.azstat.org

**Azərbaycan Respublikası Satınalmalar üzrə Dövlət Agentliyi**
Qanunvericilik. Tender. Valyuta. Təlim. E-Satınalmalar. Forum.
http://www.tender.gov.az

**İnformasiya və kommunikasiya texnologiyalarının inkişafı üzrə Milli Strategiya Layihəsi**
Xəbərlər. Layihələr. Nəşrlər. Tenderlər. Yeniliklər. Qanunlar.
http://www.nicts.az

**İqtisadi İslahatlar Mərkəzi**
Məlumat. Missiya. Struktur. Tədqiqatlar. Nəşrlər. Məqalələr. Xidmətlər. Layihələr. Tədbirlər. Əməkdaşlıq. Kitabxana.
http://www.cer.az

**Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi**
Xəbər mərkəzi. Qiymətli kağızlar (QK) bazarı. QK bazarının infrastrukturu. QK bazarı haqqında məlumat.
http://www.scs.gov.az

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi**
http://www.mfa.gov.az

**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
http://www.mlspp.gov.az

**Azərbaycan Respublikası Hesablama Palatası**
Hesablama Palatası haqqında. Nəzarət fəaliyyəti. Normativ, hüquqi və metodiki təminat. Beynəlxalq fəaliyyət. Rəy, məlumat və hesabatların arxivi. Rekvizitlər.
http://www.ach.gov.az

**Azərbaycan Elmi-Tədqiqat Məhkəmə Ekspertizası, Kriminalistika və Kriminologiya Problemləri İnstitutu**
Tarix. Struktur. Elmi məqalələr. Yeniliklər. Qanunvericilik. Arxiv. Sual-cavab.
http://www.expert.gov.az

**Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi**
Struktur. Məqsədlər. Sənədlər. Layihələr. Əməkdaşlıq. Xəbərlər.
http://www.azstand.gov.az

**Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi**
Ekoloji siyasət. Geologiya. Hidrometeorologiya. Xəzərin sərvətləri. Meşələr. Qoruqlar.
http://www.eco.gov.az

**Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi**
http://www.dtxk.gov.az
http://www.torpaq.org/



**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi**
http://www.agro.gov.az

**Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu**
Fond haqqında. Qanunvericilik. Məcburi sosial sığorta. Pensiyalar haqqında. Fərdi uçot. Sual-cavab.
http://www.sspf.gov.az

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu**
Fond haqqında. Normativ-hüquqi əsaslar. Xəbərlər və elanlar. Hesabatlar və statistika. İdarəetmə strukturu.
http://www.oilfund.az

**Lənkəran Şəhər İcra Hakimiyyəti**
Xəbərlər. İcra aparatının strukturu. Lənkəranın tarix və mədəniyyəti haqqında. İqtisadiyyat. Elm. Təhsil. İdman.
http://www.lankaran.az

**Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi**
Xəbərlər. Yaranması və fəaliyyəti. Konstitusiya. Hakimlər. Qərarlar.
http://www.constitutional-court-az.org

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası**
Komissiya haqqında. Məlumat xidməti. Virtual test imtahanları.
http://www.tqdk.gov.az

**Baş Dövlət Yol Polisi İdarəsi**
Qanunvericilik. Sürücülər üçün. Piyadalar üçün. Avtomobil yolları.
http://www.dyp.gov.az

**Sahibkarlara Dövlət himayəsi**
Qanunvericilik. Məsləhət. Operativ xətt. Cavablar. Təkliflər.
http://www.sahibkar.biz

**İlham Əliyev**
Azərbaycan Respublikası Prezidentinin fərdi web-saytı. Xəbərlər. Bioqrafiya. Siyasi portret. Beynəlxalq əlaqələr. Qarabağ problemi. Xeyriyyəçilik. Ailə. Fotolar.
http://www.ilham-aliyev.com
http://www.ilham-aliyev.org

**Azərbaycan Milli Elmlər Akademiyası**
http://www.science.az/

**Azərbaycan Respublikasının Milli Bankı**
http://www.nba.az/

**Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi**
http://www.mct.gov.az

**Milli Ekoloji Proqnozlaşdırma Mərkəzi**
Təşkilat haqqında. Layihələr. Sponsorlar. Mətbuat. Qanunlar. Fotolar.
http://www.tzecongo.org

**Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurası**
Şura haqqında. Qanunlar. Sənədlər. Lisenziya qaydaları. Yayımçılar haqqında məlumat. Mətbuat üçün məlumatlar.
http://www.ntrc.gov.az

**Teleradio İstehsalat Birliyi**
http://www.teleradio.rabita.az

**Azərenerji**
http://www.azerenerji.com

**Naxcıvan (MR) Mərkəzi Seçki Komissiyası**
MSK-nın tarixi. MSK-nın tərkibi. Səlahiyyətlər. Təqvim planı. Dairələr. Təlimatlar. Qərarlar.
http://msk.nakhchivan.az

**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Beynəlxalq Əlaqələr və Hesablama Mərkəzi (BƏHM)**
http://www.behm.rabita.az

**Bakı Metropoliteni**
Xəbərlər. Tarix. Stansiyalar. Xəritələr.
http://www.metro.gov.az

**"Azərpoct" Dövlət Müəssisəsi**
http://www.azerpost.rabita.az

**"Bakı Teleqrafı" Açıq Səhmdar Cəmiyyəti**
http://www.baktel.bakinter.net

**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Məlumat-Hesablama Mərkəzi**
http://www.rabita.az

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya**
http://www.dqmk.gov.az

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin portalı**
